Xalqın qəzeti!

# Xalq qəzeti

№ 144 (30838) 16 iyul 2025-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Azərbaycan BMT hesabatında rəqəmsal ticarət lideridir



Rəqəmsal Ticarət Qovşağı Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 fevral tarixli "Rəqəmsal Ticarət Qovşağı kimi Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanı əsasında yaradılıb. Rəqəmsal Ticarət Qovşağı ölkədə elektron ticarətin infrastruktur bazasının daha da inkişaf etdirilməsi və Azərbaycan Respublikasının regionda rəqəmsal ticarət qovşağı kimi mövqeyinin gücləndirilməsi məqsədi ilə yaradılmış elektron dövlət-özəl tərəfdaşlıq platformasıdır.

səhifə ➪ 7

## Qafqazda sülhün yaxınlaşan üfüqləri

*Ona vasitəçisiz çatmağın qaydalarını Azərbaycan müəyyən edir*



**Azərbaycan–Ermənistan sülh danışıqları bu günlərdə beynəlxalq siyasi gündəmin əsas mövzularından birinə çevrilib. ABŞ Prezidenti Donald Trampın və Fransa Prezidenti Emmanuel Makronun ardıcıl açıqlamaları regionda sülh prosesinə yönəlmiş beynəlxalq marağın və siyasi iradənin daha qabarıq ifadəsinə çevrilir. Hər iki liderin mesajı qlobal ictimaiyyətə ünvanlanmış bir çağırışdır: Qafqazda sülh artıq geosiyasi zərurətə çevrilib.**

*(ardı 3-cü səhifədə)*

## Demokratik cəmiyyətdə mərkəzləşdirilmiş idarəetmə

*Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına dəyişikliklərin zəruriliyi*



**Naxçıvan Muxtar Respublikasının Konstitusiyası ötən əsrdə muxtariyyətin dövlət-hüquqi əsaslarını müəyyənləşdirərək imkan daxilində Azərbaycan Respublikasının vahid konstitusion sisteminə inteqrasiya olunmasına xidmət etmişdir. Lakin son dövrlər ölkənin normativ hüquqi bazasının təkmilləşdirilməsi, həyata keçirilən geniş institusional islahatlar, İkinci Qarabağ müharibəsindən sonra yaranan yeni təhlükəsizlik arxitekturası və regionda labüd olan dərin iqtisadi idarəetmə transformasiyası Naxçıvan Muxtar Respublikası Konstitusiyasının bir sıra müddəalarının müasir reallığa uyğunlaşdırılmasını zəruri edir.**

Bu prizmadan yanaşaraq Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına təklif edilən sonuncu dəyişikliklər və əlavələrin bir neçəsi barədə söhbət açmaq istərdik.

Məlum olduğu kimi, "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Konstitusiya qanununun layihəsi Azərbaycan Respublikası Milli Məclisində müzakirə edildikdən (birinci oxunuş 21 iyun, ikinci oxunuş 04 iyul tarixində olub) sonra üçüncü oxunuşda (08 iyul) səsə qoyularaq artıq qəbul edilib.

*(ardı 5-ci səhifədə)*

## Hayastanda dövlət–din savaşı açıq müstəviyə keçir

*II Qaregin apostol tribunasından siyasi hücumlar edir*



**Erməni Apostol Kilsəsi (EAK) ilə hökumət arasında qarşıdurma davam edir. Demək olar ki, hər gün bu istiqamətdə yeni-yeni açıqlamalar verilir. Tərəflər bir-birini müxtəlif məsələlərdə ittiham edirlər. Kilsə nümayəndələri Nikol Paşinyan iqtidarını milli-mənəvi dəyərləri məhv etməkdə, hakimiyyət isə EAK-ı siyasi proseslərə müdaxilə etməkdə təqsirləndirir. Son açıqlamalarda Eçmiədzin hakimiyyətin dini institutlara təzyiq göstərdiyini də iddia edib. Hökumət isə cavab olaraq, kilsənin öz nüfuzundan sui-istifadə etdiyini və ictimai rəyə təsir göstərməyə çalışdığını bildirib. Bu qarşılıqlı ittihamlar Ermənistan cəmiyyətində parçalanmanı daha da dərinləşdirir.**

*(ardı 3-cü səhifədə)*

## "Kaspi" qəzeti necə milliləşmişdi?



ИЗДАТЕЛЬСТВО Г. З. А. ТАГИЕВА

ОТКРЫТА ПОДПИСКА НА 1913 ГОДЪ

НА ЕЖЕДНЕВНУЮ, ОБЩЕСТВЕННО-ЛИТЕРАТУРНУЮ и ПОЛИТИЧЕСКУЮ ГАЗЕТУ „Каспiй"

(XXXIII ...)

səhifə ➪ 9

## Azərbaycan regional güc mərkəzinə çevrilib

**Azərbaycan dünya birliyində etibarlı tərəfdaş, təşəbbüskar dövlət və regional güc mərkəzi kimi mövqeyini möhkəmləndirir. Son 40 gün ərzində ölkəmizin beynəlxalq təşkilatlarda namizəd olduğu 6 seçkidə ardıcıl qələbə qazanması onun beynəlxalq nüfuzunun artmasının parlaq sübutudur. Azərbaycan Xarici İşlər Nazirliyinin məlumatına görə, beynəlxalq platformalarda əldə etdiyimiz uğurlar ölkəmizin balanslı xarici siyasətinin, qlobal təşəbbüslərə verdiyi töhfələrin və diplomatik bacarıqlarının nəticəsidir. Eyni zamanda, bu uğurlar uzun illər ərzində həyata keçirilən sosial-iqtisadi islahatlarla bağlıdır. Azərbaycan milli iqtisadiyyatını davamlı inkişaf yoluna çıxarıb, maliyyə dayanıqlığını artırıb, müasir infrastruktur quruculuğu ilə innovasiyaları sürətlə mənimsəyib. Bütün bunlar ölkənin insan kapitalı və rifah səviyyəsinin yüksəlməsi ilə nəticələnib.**




*(ardı 6-cı səhifədə)*

## Trampın ultimatumu: "Silahlı sülh" diqtəsi



səhifə ➪ 11

# Türkiyə Respublikasının Prezidenti Zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

**Hörmətli cənab Prezident!**
**Əziz Qardaşım!**

Doqquz il əvvəl – 15 iyul tarixində Türkiyədə dövlət çevrilişi cəhdinin qarşısının alınması yolunda şəhid olmuş bütün qardaş-bacılarımızın əziz xatirəsini dərin hörmət və ehtiramla yad edir, ailələrinə və bütün xalqınıza dərin hüznlə başsağlığı verirəm.

Həmin gecə qardaş Türkiyə müasir tarixinin ən böyük qəhrəmanlıq salnaməsini yazdı. Mətin və mübariz xalqınız Türkiyə Respublikasının konstitusional və demokratik əsaslarını hədəfə alan qanlı çevriliş cəhdinə qarşı sinəsini sipər edərək Vətəninə, bayrağına və dövlətinə sahib çıxdı. Bu gün qürurla deyə bilərik ki, 15 İyul – “Demokratiya və Milli Birlik Günü” güclü və sarsılmaz iradənin, milli birliyin, həmrəyliyin və vətənpərvərliyin zəfərini qeyd edən əlamətdar tarixdir.

Xain çevriliş cəhdinin ilk anlarından etibarən Azərbaycan xalqı və dövləti qardaş Türkiyənin yanında olaraq öz dəstəyini və həmrəyliyini nümayiş etdirmişdi. Bu da növbəti dəfə “Bir millət, iki dövlət” prinsipinin əyani təzahürü, qardaşlığımızın bariz nümunəsi idi.

Türkiyə dövlətinə qarşı yönəlmiş bu məkrli planın önlənməsi Sizin liderliyiniz, böyük fədakarlığınız və xalqınızın Sizin ətrafınızda sıx birləşməsi sayəsində mümkün olmuşdur. Qardaş ölkəniz bu ağır sınaqdan da üzüağ, alnıaçıq və daha da güclənmiş çıxaraq bütün dünyaya öz qüdrətini bir daha sübut etdi.

Siz hazırda da “Terrorsuz Türkiyə” hədəfinin reallaşması, gələcək nəsillərə təhlükəsiz, dinc və firavan ölkə miras qoymaq uğrunda qətiyyətlə və əzmlə çalışırsınız. Bu yaxınlarda PKK terror qruplaşmasının özünü ləğv etmək və silahı yerə qoymaq qərarı Sizin güclü siyasi iradənizin parlaq nəticəsi, milli birlik və həmrəyliyin təntənəsi oldu.

Əziz Qardaşım,

Bu gün Azərbaycan və Türkiyə gələcəyə doğru çiyin-çiyinə, inamla və uğurla irəliləyir. Ölkələrimizin sarsılmaz qardaşlığı, dünyada bənzəri olmayan birliyi və strateji müttəfiqliyi həm regionumuz, həm də bütün dünya üçün mühüm təhlükəsizlik, tərəfdaşlıq və inkişaf amilidir. Əminəm ki, tarixən bir-birinə dayaq olmuş qardaş xalqlarımızın iradəsindən, eləcə də Şuşa Bəyannaməsindən qaynaqlanan strateji müttəfiqliyimiz birgə səylərimizlə bundan sonra da daha da möhkəmlənəcək və dərinləşəcəkdir.

Fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına daim əmin-amanlıq, rifah və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 iyul 2025-ci il**

# Azərbaycan–İraq hüquqi əməkdaşlıq müzakirəsi

## Baş Prokurorluqda

**İyulun 15-də Baş prokuror Kamran Əliyev ölkəmizdə işgüzar səfərdə olan İraqın Ali Federal Məhkəməsinin sədri Munder İbrahim Hüseynin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Baş prokuror İraqla mövcud əməkdaşlığın yüksək səviyyədə olduğunu qeyd edərək, ölkəmizin prokurorluq orqanlarında həyata keçirilən genişmiqyaslı islahatlardan bəhs edərək, müasir dövrdə prokurorluğun cinayətkarlıqla, xüsusilə də korrupsiya ilə mübarizədə rolunu, bu sahədə beynəlxalq əməkdaşlığın əhəmiyyətini vurğulayıb və ölkələrarası təcrübə mübadiləsinin vacibliyini diqqətə çatdırıb.

Səmimi qəbula görə təşəkkürünü bildirən Munder İbrahim Hüseyn hüquq-mühafizə orqanları arasında cinayətkarlıqla, xüsusilə də korrupsiya ilə mübarizə sahəsində qarşılıqlı və səmərəli əməkdaşlığın vacibliyini diqqətə çatdırıb və ikitərəfli əlaqələrin inkişaf etdirilməsinin zəruriliyini vurğulayıb.





## Ali Məhkəmədə

**İyulun 15-də Azərbaycanın Ali Məhkəməsində İraq Respublikası Federal Ali Məhkəməsinin sədri Munther İbrahim Hüsseynin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.**

Ali Məhkəmənin sədri İnam Kərimov İraqla Azərbaycan arasında dostluq və əməkdaşlıq münasibətlərinin yüksələn xətlə inkişaf etdiyini bildirib. Görüş zamanı ölkəmizin məhkəmə sisteminin təkmilləşdirilməsi istiqamətində həyata keçirilən islahatlar barədə ətraflı məlumat verilib.

Qeyd olunub ki, məhkəmə sistemində müasir informasiya texnologiyalarından istifadə genişlənir, hakim vəzifəsinə seçim prosedurları beynəlxalq standartlara uyğunlaşdırılır, qanunvericilik bazası isə davamlı şəkildə yenilənir.

Səmimi qəbula görə təşəkkürünü bildirən nümayəndə heyətinin rəhbəri Munther İbrahim Hüsseyn iki ölkə arasında məhkəmə-hüquq sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyini qeyd edib. O, Azərbaycan məhkəmə sistemində aparılan islahatları və əldə edilən nailiyyətləri yüksək qiymətləndirib, bu sahədə təcrübə mübadiləsinin faydalı olacağını bildirib.

***XQ***

# Azərbaycanda 15 İyul – Türkiyənin Demokratiya və Milli Birlik Günü



## Bakı

**Dünən Bakıda, Türkiyənin Azərbaycandakı səfirliyində 15 İyul Demokratiya və Milli Birlik Günü münasibətilə anım mərasimi keçirildi. Qardaş ölkənin ən yeni tarixi üçün əlamətdar olan bu hadisə ilə bağlı toplantıda Türkiyə və Azərbaycan ictimaiyyətinin tanınmış nümayəndələri, Şimali Kipr Türk Cumhuriyyətinin Bakı təmsilçisi, Milli Məclisin deputatları və KİV mənsubları iştirak etdilər.**

Türkiyənin Azərbaycandakı səfiri Birol Akgün 2016-cı il 15 iyul hadisələrində türk xalqının milli iradə və birlik ortaya qoyaraq zəfər qazanmasından və bu zaman qardaş Azərbaycanın mənəvi dəstəyindən danışdı:

– 15 iyul – Demokratiya və Milli Birlik Günü Türkiyənin tarixində çox önəmli dönüş nöqtəsi idi. Zəfərin adı Türkiyədir. Bu zəfər hamımızındır!

Səfir həmin çətin dəqiqələrdə Prezident İlham Əliyevin dəstək zəngini xüsusi olaraq qeyd etdi:

– Xain çevrilişə cəhd zamanı Prezident İlham Əliyevin ölkəmizə güclü dəstəyini də xatırlayırıq. Gələcək nəsillərə bu böyük mübarizəni ötürməyimiz çox mühümdür. 15 iyul qəhrəmanları öz canları bahasına türk millətinin milli mənafelərindən heç vaxt vaz keçməyəcəyini bir daha ortaya qoydu. Sahib olduğumuz yüksək dəyərlərə bağlılığımızı bütün dünyaya göstərdik.

Mərasimdə Milli Məclisin Səhiyyə Komitəsinin sədri, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov iki qardaş ölkənin hər zaman bir yerdə olduğunu, əlaqələrimizin bundan sonra da ən yüksək səviyyədə davam edəcəyini fəxrlə qeyd etdi:

– Türkiyə bu sınaqdan daha da güclü çıxdı. Qardaş ölkənin bugünkü uğurları məhz həmin tarixdən başlayır. Azərbaycan xalqı 44 günlük Vətən müharibəsində Türkiyənin dəstəyini heç vaxt unutmayacaq.

Sonda 15 iyul 2016-cı il hadisələrini əks etdirən sənədli videomaterial nümayiş olundu. Anım günü nikbin notlarla başa çatdı. Belə ki, gənc ifaçıların iştirakı ilə “15 temmuz dastanı” və “Çırpınırdı Qara dəniz” əsərləri şəhidlərin ölməz ruhuna ehtiram olaraq ifa edildi.

## Naxçıvan

**Türkiyənin Naxçıvandakı Baş konsulluğunda da 15 İyul Türkiyənin Demokratiya və Milli Birlik Günü ilə bağlı muxtar respublikanın rəsmi şəxslərinin və ictimaiyyət nümayəndələrinin iştirakı ilə toplantı keçirilib.**




Mərasimdə Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya çıxış edərək bildirib ki, bu gün Türkiyə demokratiya uğrunda qələbənin 9-cu ildönümünü qeyd edir: “Bu mənfur çevriliş cəhdi türk millətinin qanunun aliliyinə və ölkənin demokratik təsisatlarına sadiqliyini nümayiş etdirən daha bir qəhrəmanlıq dastanı ilə nəticələnib”. Diplomat vurğulayıb ki, 15 iyul gecəsi qardaş Azərbaycan da bu xəyanəti qətiyyətlə qınayaraq Türkiyənin yanında olub. Bu gün Türkiyə və Azərbaycan bütün sahələrdə əməkdaşlıq, birlik və qardaşlıq nümayiş etdirir.

Digər çıxışlardan sonra 15 iyul dövlət çevrilişi cəhdinin qarşısının alınması yolunda canlarını fəda etmiş şəhidlərə həsr olunmuş videomaterial nümayiş etdirilib.

***Kəmalə ABDİNOVA,***
***Səbuhi HƏSƏNOV***
***XQ***

# “Müasir informasiya məkanı və dini etiqad azadlığı”

**İyulun 15-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Medianın İnkişafı Agentliyinin birgə təşkilatçılığı ilə Şamaxıda “Müasir informasiya məkanı və dini etiqad azadlığı” mövzusunda konfrans keçirilib.**

Milli Məclisin deputatı Tamam Cəfərova bildirib ki, Azərbaycan mediası son 150 ildə cəmiyyətin maariflendirilməsində




Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən Şamaxının inkişafına xüsusi diqqət göstərildiyini bildirib. O, vurğulayıb ki, Azərbaycanda müxtəlif dini konfessiyalar bir arada mehriban yaşayır, tolerant cəmiyyət qurulub.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov bildirib ki, ulu öndər Heydər Əliyev milli mətbuatı cəmiyyətin maariflənməsində və ictimai rəyin formalaşmasında əvəzsiz vasitə kimi qiymətləndirirdi. Ümummilli Liderin siyasi kursunun davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə bu sahədə həyata keçirilən institusional islahatlar mühüm əhəmiyyət daşıyır. Komitə sədri qeyd edib ki, müasir medianın işi yalnız informasiyanı çatdırmaqla bitmir. İndi o, həm də vətəndaş məsuliyyətinin formalaşmasında, milli-mənəvi dəyərlərin qorunub saxlanılmasında vacib rol oynayır. Bu gün din bəzi hallarda mənəvi-əxlaqi və fəlsəfi mahiyyətinə uyğun olmayan bir tərzdə cəmiyyətə təqdim olunur. Dinin təşviq etdiyi ideyalar insanların mənəvi kamilliyinə, ictimai münasibətlərdə sosial-əxlaqi prinsiplərin düzgün qavranılmasına xidmət etsə də, bəzən ayrı-ayrı qrupların, bəzi dövlətlərin əlində ideoloji silaha çevrilərək müəyyən cəmiyyətlərdə parçalanma yaratmaq üçün istifadə olunur.

Mətbuat Şurasının sədri Rəşad Məcid çıxışında medianın və dini qurumların qarşılıqlı etimad əsasında əməkdaşlıq etməsinin vacibliyini vurğulayaraq, belə tədbirlərin ictimai dialoqun inkişafına və cəmiyyətdə dini tolerantlığın möhkəmləndirilməsinə xidmət etdiyini diqqətə çatdırıb.

mühüm rol oynayıb. O, 44 günlük Vətən müharibəsində medianın qəhrəmanlığını və dezinformasiyalara qarşı mübarizəsini xüsusi vurğulayıb.

Azərbaycan Dövlət İnformasiya Agentliyinin – AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev çıxışında bildirib ki dini etiqad azadlığı sahəsində yayılan məlumatlar bəzən yanlış, təhrif edilmiş və ya məqsədli surətdə yönləndirilmiş ola bilər. Bu isə cəmiyyətin dini dəyərlər sisteminə, gənclərin inanc dünyasına təsirsiz ötüşmür. Buna görə də müasir informasiya məkanında dini mövzuların peşəkar, dəqiq və məsuliyyətli şəkildə təqdim olunması informasiya qurumlarının əsas vəzifələrindən biridir.

Sonra konfrans işini “Din-media münasibətləri: yeni hədəf və çağırışlar” və “Dini etiqadın sərbəst ifadəsi və söz azadlığı” panel sessiyaları ilə davam etdirib.

# Azərbaycan–NATO əməkdaşlığının cari vəziyyəti

**Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində Müdafiə Nazirliyinin nümayəndələri ilə NATO-nun ekspert heyəti arasında işçi görüşü keçirilib. Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib.**



Bildirilib ki, görüşdə Azərbaycan və NATO arasında əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

Tərəflər, həmçinin NATO-nun “Fərdi uyğunlaşdırılmış tərəfdaşlıq proqramı” və “Planlaşdırma və analiz prosesi” sənədləri çərçivəsində görülmüş işləri müzakirə ediblər.

***XQ***

# Qafqazda sülhün yaxınlaşan üfüqləri

(əvvəli 1-ci səhifədə)

Donald Trampın NATO-nun Baş katibi Mark Rutte ilə Ağ Evdə keçirdiyi görüş zamanı Azərbaycan və Ermənistan arasındakı uzunmüddətli münaqişəyə dair nikbin fikirlər səsləndirməsi bu istiqamətdə yeni mərhələnin başlandığını göstərir. ABŞ Prezidenti səviyyəsində belə açıq və konkret mesajın verilməsi Vaşinqtonun Cənubi Qafqaz siyasətində passiv müşahidəçidən aktiv iştirakçıya çevrilmək niyyətinin göstəricisidir. Trampın “danışıqların uğurla nəticələnəcəyi ehtimalı yüksəkdir” sözləri, əslində, real prosesə yönəlmiş ciddi siyasi mesajdır. Çıxış beynəlxalq ictimaiyyət üçün də açıq siqnaldır: Vaşinqton prosesin legitimliyini təsdiqləyir və onun nəticə verməsinə ümid bəsləyir. Burada diqqət çəkən mühüm məqam ondan ibarətdir ki, Tramp ilk dəfə olaraq regionun sülh gündəmini ABŞ-ın təhlükəsizlik və enerji strategiyası ilə uzlaşdıraraq təqdim edir.

Trampın çıxışında dolayısı ilə ifadə olunan əsas mesajlardan biri də budur: Cənubi Qafqazda sabitlik təkcə Ermənistan və Azərbaycanın marağı deyil, həm də ABŞ və onun müttəfiqlərinin strateji prioritetidir. Regionun enerji resurslarının Avropaya nəqli, Cənub Qaz Dəhlizi və onun davamı kimi təşəbbüslər, Zəngəzur dəhlizi vasitəsilə Mərkəzi Asiyadan Türkiyə və Avropaya çıxışın mümkünlüyü artıq ABŞ üçün də gündəmin önəmli məsələsinə çevrilib. D.Tramp Administrasiyası dövründə ABŞ-ın enerji təhlükəsizliyinə verdiyi diqqət fonunda Azərbaycan kimi sabit və etibarlı enerji tərəfdaşının rolunun güclənməsi Vaşinqton üçün prioritet məsələdir. Burada söhbət Çin və Rusiya ilə geosiyasi rəqabət müstəvisində alternativ ticarət və nəqliyyat marşrutlarının formalaşmasından gedir. Məhz bu baxımdan, ABŞ-ın sülh prosesini dəstəkləməsi dərin strateji məntiqə əsaslanan siyasi seçimdir.

*

Fransa Prezidenti Emmanuel Makronun Ermənistan baş naziri Nikol Paşinyanı Parisdə qəbul edərkən verdiyi bəyanat Qafqazda sülh gündəminin Avropa siyasi mərkəzlərinin də diqqət mərkəzinə çevrildiyini nümayiş etdirir. “Paşinyanın sülh təşəbbüslərini dəstəkləyirik”. Makronun bu fikri ilk baxışda Fransanın ənənəvi Ermənistan yönümlü mövqeyinin davamı kimi görünə bilər. Lakin bu bəyanatda yeni bir ton, fərqli dinamika hiss olunur: Makron bu dəfə ilk dəfə olaraq “tezliklə sülh müqaviləsinin imzalanması” kimi konkret və operativ çağırışla çıxış edir.

Onun bu yanaşması Fransa rəhbərliyinin məsələyə artıq təkcə emosional və tarixi bağlılıq kontekstindən deyil, daha çox strateji və təhlükəsizlik baxımından yanaşdığını göstərir. Avropa İttifaqı daxilində sülhün və sabitliyin qorunması, xüsusilə Ukraynada baş verən hadisələr fonunda Cənubi Qafqazda yeni münaqişə ocağının alovlanmasının qarşısını almaq siyasi zərurətə çevrilib. Paris bu riski görür və ona qarşı əvvəlcədən diplomatik aktivlik göstərmək istəyir.

Tarixi kontekstdə Fransa–Ermənistan münasibətləri dərin diaspor təsiri və mədəni əlaqələr fonunda formalaşıb. Fransada güclü erməni diasporu var və bu, Parisin uzun müddət Ermənistanın maraqlarına yaxın mövqe tutmasında mühüm rol oynayıb. Lakin bu gün Makronun mövqeyində təkcə tərəfkeşlik deyil, həm də vasitəçilik niyyəti sezilir. O, Ermənistanı sülhə təşviq etməyə çalışmaqla, əslində, onu daha



dayanıqlı və təhlükəsiz regional düzənə doğru yönləndirməyə çalışır.

Makronun bu addımı həm də Fransa üçün yeni bir diplomatik rol oynamaq cəhdidir: postsovet məkanında və xüsusilə Cənubi Qafqazda Aİ-nin simasında öncül aktora çevrilmək. Onun “böyük Avropa layihəsi” ideyası çərçivəsində Qafqazda sülh təşəbbüslərinə sahiblənməsi həm Fransa diplomatiyasının ambisiyalarına, həm də Avropanın ümumi təhlükəsizlik vizyonuna uyğundur. Fransa Prezidentinin bəyanatını Avropa geosiyasi mənzərəsində qiymətləndirdikdə, Cənubi Qafqazda sülh məsələsinin Avropanın sərhədlərinə təsir edə biləcək strateji məsələ kimi qəbul olunduğu aydınlaşır. Bu kontekstdə Makronun “sülh müqaviləsinin qısa zamanda imzalanması” çağırışı, əslində, təkcə Ermənistanın deyil,



həm də Azərbaycanın və regiondakı digər aktorların Avropa ilə daha sıx inteqrasiyasına yönəlmiş mesaj kimi səslənir. Fransa bu prosesi təkbaşına deyil, Aİ-nin siyasi çəkisini arxasına alaraq təşviq edir.

*

ABŞ və Fransa prezidentlərinin ardıcıl açıqlamaları Cənubi Qafqazda dəyişən siyasi iqlimi və qlobal güclərin bu regiona baxışında yeni mərhələnin başlandığını təsdiqləyir. Postmünaqiş dönəmdə, xüsusilə 44 günlük Vətən müharibəsindən sonra regionun geosiyasi reallıqları kəskin şəkildə dəyişib və yeni düzən yaranıb. Bu düzən artıq beynəlxalq oyunçular tərəfindən rəsmən tanınma mərhələsinə daxil olur.

Cənubi Qafqazda uzun sürən münaqişədən sonra yaranmış yeni geosiyasi reallıqlar fonunda sülh tarixi zərurətə çevrilib. Məhz bu səbəbdən Azərbaycanın irəli sürdüyü sülh şərtləri regionda davamlı sabitliyin və əməkdaşlığın təməlini təşkil edir.

Azərbaycanın mövqeyi aydın və açıq olub beynəlxalq hüquq normalarına əsaslanır. Bakı sülh danışıqlarını hüquqi və siyasi reallıqlar üzərində qurur. Sülh müqaviləsinin hüquqi və siyasi əsaslarının möhkəmləndirilməsi üçün Ermənistanın daxili hüquqi sənədlərində – xüsusilə də konstitusiyasında – mütləq şəkildə dəyişiklik edilməlidir. Ermənistan konstitusiyasında hələ də Azərbaycan ərazilərinə, o cümlədən Qarabağa dolayısı ilə iddialar ehtiva edən müddəaların olması real sülhə ziddir. Onların mövcudluğu Ermənistanın gələcəkdə sülh müqaviləsinə istinad edərək həmin iddiaları yenidən gündəmə gətirməsi üçün hüquqi əsas yaradır.

Azərbaycanın sülh kontekstində vurğuladığı mühüm məsələlərdən biri də ATƏT-in Minsk qrupunun artıq tarixə qovuşması zərurətidir. Bu qrup uzun illər fəaliyyətsizliyi və birtərəfli yanaşması ilə tanındı, status-kvonu qorumağa və vaxtı uzatmağa xidmət etdi. 44 günlük müharibə isə göstərdi ki, bu mexanizm nə münaqişəni həll edə bildi, nə də yeni reallıqları qəbul etməyə hazır oldu.

Bu gün Azərbaycanın ərazi bütövlüyü tam bərpa olunub və yeni danışıqlar formatında Minsk qrupu kimi passiv və arxaik struktura yer yoxdur. Əksinə, bu cür mexanizmlərin dirçəldilməsi prosesi geriyə aparmaqdan və saxta paralel platformalar yaratmaqdan başqa bir məqsədə xidmət etməz. Azərbaycan beynəlxalq hüququn daşıyıcısı, sülhün təşəbbüskarı və regionda sabitliyin təminatçısı kimi çıxış edir. Onun bu mövqeyi ədalətə, beynəlxalq hüquqa və gələcək nəsillərin təhlükəsizliyinə əsaslanır. Məhz bu səbəbdən Azərbaycanın şərtləri sülhün real və davamlı təməlidir.

Cənubi Qafqaz bu gün kritik dönüş nöqtəsindədir. ABŞ və Fransa liderlərinin ardıcıl və qətiyyətli açıqlamaları bir daha göstərdi ki, beynəlxalq ictimaiyyət bu regionda davamlı münaqişə mühitinin saxlanmasına artıq göz yummayacaq. Azərbaycan bu reallığı düzgün dəyərləndirərək sülh təşəbbüslərini prinsipial şəkildə irəli sürür. Azərbaycanın irəli sürdüyü şərtlər beynəlxalq hüquqa və sülh fəlsəfəsinə əsaslanır. Rəsmi Bakı öz şərtlərini “maksimalist tələb” kimi deyil, real və konstruktiv yol xəritəsi kimi təqdim edir.

Sülh danışıqlarının indiki vasitəçisiz dialoq mərhələsində əsas vəzifə bu tarixi fürsəti dəyərləndirmək, regionda uzunmüddətli sabitliyi təmin etməkdir. Əgər bu imkan düzgün dəyərləndirilərsə, Cənubi Qafqaz Avropa ilə Asiyanın, Qərblə Şərqin strateji körpüsünə çevriləcək. Əks təqdirdə sülh fürsətinin qaçırılması regionu yenidən qeyri-müəyyənlik, qarşıdurma və strateji izolyasiya təhlükəsi ilə üz-üzə qoya bilər. Tarix bu fürsəti həmişə yaratmır. İndi ona müdrikliklə, ədalətlə və məsuliyyətlə yanaşmaq zamanıdır.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Hayastanda dövlət–din savaşı açıq müstəviyə keçir

(əvvəli 1-ci səhifədə)

Bir neçə gün öncə EAK-ın iqamətgahında – Eçmiədzində erməni yeparxiyalarının rəhbərlərinin və kilsə keşişlərinin konfessiyalarının illik toplantısı keçirilib. Toplantıda çıxış edən bütün ermənilərin katolikosu II Qaregin bildirib ki, Ermənistan hakimiyyəti kilsəyə qarşı kampaniya aparmaqda davam edir. Deyib ki, hakimiyyət kilsəyə qarşı addımları ayrı-ayrı ruhanilərə qarşı yönəlmiş hərəkətlər kimi təqdim etməyə nə qədər çalışsa da, bu addımların sistem xarakterli olduğu və kilsənin özünün də hədəfə alındığı açıq-aydın görünür: “Bu çətin dövrlərdə biz ruhaniləri təkcə mənəvi xilaskarlıq missiyamızı (?) yerinə yetirməyə deyil, həm də əzab-əziyyətlərə, kilsə əleyhinə hücumlara tab gətirməyə çağırırıq. Dünyada və regionumuzda baş verən proseslər ölkəmiz və xalqımız üçün ciddi problemlər yaradıb. Biz dərin narahatıq ki, bütün erməniləri birləşdirmək və cəmiyyətdəki parçalanmaları aradan qaldırmaq əvəzinə, Ermənistan hakimiyyəti kilsəyə qarşı kampaniya aparmağa davam edir”.



Katolikos keşişlərə müraciətlə bildirib ki, erməni kilsəsi din xadimləri ilə milli kimliyə və vətənin təhlükəsizliyinə təhdidlərə, “tarixin təhrif edilməsinə” səssiz və biganə qala, hökumətin erməni dövlətinin və xalqının mənafeyinə etinasız yanaşmasını sadəcə seyr edə bilməz. O, daha sonra siyasi bəyanat səsləndirərək “Artsax” ermənilərinin pozulmuş hüquqları və keçmiş qondarma separatçı rejimin başçılarının Bakıda mühakimə edilməsi barədə danışıb.

**

Yığıncağın sonunda qəbul edilən bəyanatda bildirilib ki, son günlər Ermənistanda baş verən ağrılı hadisələr din xadimlərini çox narahat edir: “Mürəkkəb geosiyasi reallıqlar şəraitində ölkədə müxtəlif səbəblərdən həyata keçirilən siyasi təqiblər və bu kontekstdə Ermənistan baş nazirinin və hakimiyyət nümayəndələrinin erməni kilsəsinə və ruhanilərə qarşı başlatdığı kampaniya milli həyatı pozur, mövcud çağırışlar qarşısında xalqımızın birliyini zəiflədir, dövlətimizin qlobal miqyasda mövqeyini sarsıdır. Hakimiyyət orqanlarının kilsəyə qarşı nalayiq davranışı və səsləndirdikləri ədəbsiz ifadələr, davamlı təhdidlər və din xadimlərini parçalamaq üçün gizli cəhdlər diaspordakı dindarlarımızın nəcib hisslərini təhqir edir, həmçinin Ermənistan konstitusiyasını, “Vicdan azadlığı haqqında” qanunu və beynəlxalq dini qurumların tələblərini birbaşa pozur”.

Bəyanatda biznesmen Samvel Karapetyan “erməni kilsəsinin müdafiəsi üçün çıxış edən milli xeyriyyəçi” adlandırılır, onun həbsi pislənilir: “Həbsdə olan arxiyepiskop Baqrat Qalstanyan və onun tərəfdarlarının işində hakimiyyət tərəfindən təqsirsizlik prezumpsiyası prinsipinə qəsdən məhəl qoyulmaması da qəbuledilməzdir. Biz böyük hiddət və ağrı ilə iyunun 27-də arxiyepiskop Mikael Acapaxyanı həbs etmək üçün çox sayda hüquq-mühafizə orqanlarının müqəddəs Eçmiədzinə basqın etməsinin şahidi olduq. Katolikosun saat 16:00-da keşişlər yığıncağının sonunda Acapaxyanın İstintaq Komitəsinin qarşısına könüllü çıxacağına dair verdiyi vədlərin əksinə olaraq, hüquq-mühafizə orqanları qeyri-mütənasib güc tətbiq etməklə öz planlarını həyata keçirməyə üstünlük verdilər ki, bu da haqlı olaraq hamının etirazına səbəb oldu, həm də illik toplantımızın keçirilməsinə mane oldu. Arxiyepiskop Mikael könüllü olaraq İstintaq Komitəsinə gedib. Bütün ermənilərin müqəddəs ziyarətgahına bu cür təcavüz, ziyarətgahın dua mühitinin pozulması, bütün ermənilərin patriarxına və ruhanilərə qarşı belə münasibət qəti şəkildə pislənilməli və qəbuledilməzdir”.

Bu istiqamətdə daha bir açıqlamanı Rusiya Erməniləri İttifaqının sədri Ara Abramyan verib. O deyib ki, baş nazir Nikol Paşinyan II Qareginin yerinə yeni katolikos-namizəd axtarır: “Mən bilirəm ki, o, katolikos olacaq insanlar arasında danışıqlar aparır. O, din xadimlərini kilsə rəhbərliyinin əleyhinə danışmağa inandırmağa çalışır. Bunun əvəzinə onlara müəyyən vədlər verir”.

Abramyanın fikrincə, kilsə güclü olduğu üçün Paşinyan uğur qazana bilməyəcək: “Paşinyan katolikosa bəzi ittihamlar irəli sürür. Halbuki, bu, onun işi deyil. Katolikos kimdir? O, seçilmiş adamdır. Sizin katolikos haqqında deməyə sözünüz varmı? Siz dediniz, onlar özləri qərar verəcəklər. Amma Paşinyanın “mən şəxsən bu prosesə rəhbərlik edəcəm” sözü bütün ermənilər arasında anlaşılmazlığa səbəb olur”.

*

Eçmiədzində keçirilən toplantıda II Qareginin çıxışı Ermənistan hakimiyyəti ilə kilsə arasındakı dərin uçurumu bir daha üzə çıxardı. Katolikos açıq şəkildə bildirdi ki, kilsəyə qarşı yönəlmiş təzyiqlər sistemli xarakter daşıyır və bu, sadəcə bəzi ruhanilərlə bağlı məsələ deyil. O, ruhaniləri yalnız dini borclarını yerinə yetirməyə deyil, həm də “siyasi hücumlara” dözməyə çağırdı. Bu çıxış kilsənin artıq, sadəcə, dini qurum kimi deyil, eyni zamanda ictimai-siyasi güc kimi çıxış etdiyini göstərdi.

Digər tərəfdən, II Qareginin çıxışı dini tribunanın siyasi manipulyasiya alətinə çevrildiyini bir daha sübut etdi. Katolikosun Qarabağ separatçılarını müdafiə etməsi, faktiki olaraq Azərbaycanın ərazi bütövlüyünə qarşı açıq çıxışdır və bu, Ermənistanın götürdüyü öhdəliklərinə ziddir. Dini liderin keşişləri hökumətə qarşı ruhlandırması, kilsəni milli həmrəyliyin deyil, parçalanmanın ünvanına çevirir. Əslində, bu ritorika nə kilsəyə inananlara, nə də erməni cəmiyyətinə fayda verir. Əksinə, xaos və düşmənçilik toxumu səpir. “Tarixin təhrif edilməsi” ittihamı isə absurddur. Çünki tarixi təhrif edən elə illərlə keçmiş qondarma rejimin “müstəqilliyini” təbliğ edən kilsənin özü olub. Bu çağırışlar Ermənistanın daxili sabitliyinə deyil, revanşizmin qızışdırılmasına xidmət edir.

Keşişlərin yığıncağında qəbul olunan bəyanat isə dini qurumun öz səlahiyyət və missiyasını aşaraq siyasi revanşizmin ruporuna çevrildiyini göstərir. Kilsə hökumətin ünvanına səsləndirdiyi ittihamlarla, əslində, dini nüfuzunu siyasi təsir vasitəsinə çevirmək niyyətini ortaya qoyur. “Ədəbsiz ifadələr” və “ davamlı təhdidlər” kimi emosional ifadələr reallıqdan çox manipulyativ təbliğat xarakteri daşıyır. Diasporun “nəcib hissləri” ilə söhbəti isə daxili qarşıdurmanı xaricə daşımaq cəhdidir və bu, milli maraqlara ziddir. Kilsə konstitusiyadan danışmazdan əvvəl özünün dini çərçivədən çıxaraq cəmiyyətdə bölücü rol oynadığını etiraf etməlidir.

Rusiyada yaşayan nüfuzlu və geniş imkanlara malik Ara Abramyanın açıqlamaları isə diasporun bu məsələdə fəal rol oynadığını göstərir. Onun çıxışı bir dini rəhbəri müdafiə adı altında siyasi təbliğatçılığa çevrilib. Bu isə diaspor təşkilatının neytral mövqedə dayanmaq prinsipinə ziddir. O, Ermənistanın daxili işlərinə müdaxilə edir və katolikosluq kimi dini məsələdə tərəf tutur. Bu isə onun mövqeyinin qeyri-obyektiv və qərəzli olduğunu göstərir. Abramyanın “katolikos kimdir?” sözləri populist yanaşmadan başqa bir şey deyil. O, dini simvolizmdən, necə deyərlər, siyasi qalxan kimi istifadə edir. Belə çıxışlar nə Ermənistanın sabitliyinə, nə də diasporla dövlət arasında sağlam münasibətlərə xidmət edir. Əslində, o, hakimiyyətə qarşı kilsənin arxasında gizlənərək revanşist çağırışlar səsləndirir. Bu mövqe isə sadəcə, emosional təzyiq və daxili qarşıdurmanı alovlandırmaq cəhdidir.

Görünən odur ki, Ermənistan cəmiyyətində parçalanma dərinləşir və bu gərginlik tezliklə səngiməyəcək. Hakimiyyətlə kilsə arasında artan qarşıdurma ictimai rəyi də iki düşərgəyə bölməkdədir. Dövlət institutlarına inam zəifləyir, kilsə isə özünü alternativ güc mərkəzi kimi təqdim etməyə çalışır. Bu vəziyyət ölkədə sabitliyi deyil, xaosu qidalandırır. Əgər bu dini-siyasi mübarizə nəzarətsiz qalarsa, Ermənistan daxilində idarəolunmaz proseslərin başlanğıcı ola bilər.

***Səxavət HƏMİD***
***XQ***

**Ekspert rəyi**



**İlyas HÜSEYNOV,**
**politoloq**

– Ermənistan hakimiyyəti ilə kilsə arasında dərinləşən qarşıdurma ölkənin siyasi və ictimai sabitliyinə ciddi təhlükə yaradır. Son günlər həm kilsənin daxilində keçirilən toplantılar, həm də diaspor nümayəndələrinin açıqlamaları bu mübarizənin artıq ideoloji və təşkilati səviyyəyə keçdiyini göstərir. Xüsusilə II Qareginin siyasi xarakter daşıyan bəyanatları və Rusiya Erməniləri İttifaqının rəhbəri Ara Abramyanın hökumətə qarşı sərt ittihamları dini qurumun neytrallığını şübhə altına alır. Abramyanın iddiaları Paşinyanın yeni katolikos axtarması və ruhaniləri vədlərlə ələ almağa çalışması kimi fikirlər cəmiyyətə daha çox ajiotaj və qarşıdurma gətirir.

Onu da qeyd etmək lazımdır ki, kilsənin siyasi aktora çevrilməsi Ermənistanı yeni böhranlara sürükləyə bilər. Dövlətin dini işlərə birbaşa müdaxiləsi nə qədər təhlükəlidirsə, dinin siyasətə bu şəkildə müdaxiləsi də bir o qədər zərərlidir. Ermənistanda formalaşan bu ikitirəlik cəmiyyəti parçalayır, xarici güclər üçün isə asan hədəfə çevirir. Bu parçalanma təkcə hakimiyyətlə kilsə arasında deyil, həm də cəmiyyət daxilində dərin uçurum yaradır.

REPLİKA

# Danışmağa sözün yoxdurmu, cənab Vilayəti?



**İran Prezidenti Məsud Pezeşkian bir neçə gün əvvəl özünün sosial şəbəkə hesabında paylaşım etmiş və gələcəyə doğru irəliləmək üçün bir çox baxışların dəyişməli olduğuna dair mesaj vermişdi. Əlbəttə, indiki durumda cənab Pezeşkianın ölkəsində radikal islahatlar aparması xeyli müşküldür. Xeyr, demək istəmirik ki, onun prosesi reallaşdırmağa iradəsi çatmaz. Əksinə, Məsud bəy, kifayət qədər, təcrübəli siyasətçidir, rasional baxışların daşıyıcısıdır. Elə haqqında söz açdığımız sosial şəbəkə paylaşımında da məhz rasional baxış ortaya qoymuşdu.**

Məsələ ondadır ki, İranın dəyişməsi kompleks səciyyə daşımalıdır. Bunun üçün haradan başlamaq, nə etmək lazımdır, - mövzu barədə söz açmaq çox çətindir. Həm də ona görə çətindir ki, prosesdə fundamentallıq yükü olmalı, qanunauyğunluq gözlənilməlidir. Gözlənilməlidir ki, dəyişikliklər ağrı-acı yaşatmasın. Amma hesab edirik ki, sakit məcrada reallaşdırılmalı olan müəyyən vəzifələr var. Onlardan biri İranın qonşularına münasibətinin dəyişməsidir. İlk növbədə isə Azərbaycana yönələn baxışda korrektələrə ehtiyac var.

Doğrudur, hazırda Azərbaycan-İran münasibətlərində iki il əvvəlki gərginlikdən əsər-əlamət yoxdur. Prezident Pezeşkianın ölkəmizə səfəri, xüsusən Xankəndidə olması Tehranın Bakıya yanaşmasının yeni və olduqca müsbət fazası olaraq qiymətləndirilə bilər. Heç şübhəsiz, tərəflər gələcəkdə əməkdaşlığı daha dinamik müstəviyə daşıyacaqlar. Bununla bağlı nikbinliyimiz böyükdür.

Digər tərəfdən, biz əslə "İran ayrı, Pezeşkian ayrı" motivlərinə köklənmək istəmirik. Çünki şəxslər gəldi-gedərdi, dövlətlər əbədi. Amma nəzərə alaq ki, dövlətlərin əbədilik qazanmasında şəxslərin, yəni siyasi xadimlərin rolu son dərəcə böyükdür. Güman edək ki, cənab Pezeşkian fəaliyyəti ilə İran dövlətini onun özünü gördüyümüz kimi təsəvvürə gətirməyimizə şərait formalaşdıracaq. İnanaq ki, zaman keçdikcə İranda kimsə Azərbaycanın İsraillə əməkdaşlıq etməsini sorğulamaq kimi sərsəm niyyətə düşməyəcək. Təəssüf ki, hazırda sorğulayanlar, daha doğrusu, özündə sorğulamaq haqqı peydahlayanlar var. Özü də bələləri İslam respublikasının ali rəhbərliyində təmsil olunurlar.

Beləliklə, İranın ali dini rəhbərinin beynəlxalq məsələlər üzrə müşaviri Əli Əkbər Vilayəti Tehranda Pakistanın daxili işlər naziri Səid Mohsin Nakvi ilə görüşündə qonağa bildirib ki, "Sizin Azərbaycanla yaxın əlaqələriniz var. Ancaq eyni zamanda Azərbaycan dövləti İslam aləminin baxışlarına zidd addımlar atır". Cənab Vilayəti, həmçinin, ölkəmizi Suriya ilə İsrail arasında vasitəçilikdə və İsrailə neft ixracında günahlandırıb.

İndi bələsinə nə deyəsən, nə ad verəsən? Hesab edirik ki, İranda nə vaxtsa radikal dəyişikliklərə gedilsə, ilk növbədə Vilayəti kimilərinin rəhbərlikdən uzaqlaşdırılmasından başlamaq lazımdır. Çünki bu cür zehniyyət sahibləri Pezeşkianın nəzərində tutduğu rasionallıq bucağını daim kor saxlamağa xidmət edirlər. Özü də son dərəcə yaramaz şəkildə. Sən demə, Azərbaycanın İsraillə əməkdaşlığı İslam aləminin baxışlarına zidd imiş. İndi nə deyək? Cənab Vilayətiyə çox da uzaq olmayan keçmişimi xatırladaq? Axı o keçmişdə İranın Ermənistanı silahlandırması kimi qara ləkə var. Görəsən, bu, İslam aləminin baxışlarına çoxmu uyğun idi? Bəlkə erməni quldurlarının işğal etdikləri bölgələrimizin məscidlərində donuz saxlamaları İslam aləminə məmnunluq hissi yaşadırdı? Hər halda, vilayətilərin durumdan xoşhal olduqları şübhəsizdir. Ona görə də onlar Qarabağ və işğal edilmiş digər torpaqlarımız erməni təcavüzündən qurtulduqda bildirdilər ki, bu, İranın strateji maraqlarına təhdiddir. Elə isə daha bir ritorik sual verək: İranın strateji maraqlarında İslama yönəlik hansısa həmrəylik özünü göstərirmi?

Ayrıca onu da vurğulayaq ki, məhz Vilayəti kimilərinin sərsəm düşüncələrinə görədir ki, hazırkı İran müsəlman aləminin antipatiya mənbəyidir. Görəsən, ölkə İslam dünyasındakı hansı dövlətlə yola gedir? Hər halda, sayları çox azdır. Üstəlik, hazırda beynəlxalq miqyasda müsəlmanlara qarşı nalayiq münasibətin, ümumən İslamofobiyanın daha bir səbəbi də məhz vilayətilərin daşıdıqları dini baxışlardır. Görəsən, bələlərinə 12 günlük müharibə dərs olmadımı? Deyəsən, olmadı. Olmadı ki, Vilayəti köhnə klişelərə baş vurur. Özü də bu şəxs hələ, guya, təcrübəli diplomatdır.

Adama deyən lazımdır ki, bax sənin Pakistanın Azərbaycanla yaxşı əlaqələrinin olması ilə nə işin var? Danışmağa başqa sözünmü, mövzunmu yoxdur? Gərək, qonaq Pakistan rəsmisinə məhz bunu bildirəydin? Yaxşı, nə demək istəyirsən? İstəyirsən ki, Pakistan Azərbaycanla düşmən olsun? Bu mümkünsüzdür. Bəlkə Pakistan İran kimi Ermənistanla dostluq etsin? Bu da qeyri-mümkündür.

Əlqərəz, normal məntiq Əli Əkbər Vilayətinin əslində, nəyə nail olmaq istədiyini anlamaqda çətinlik çəkir. Normal məntiq Azərbaycanın Suriya ilə İsrail arasında vasitəçilik etmək missiyasına müsbət yanaşmalıdır. Hər halda, vasitəçilik barış naminədir? Bunun nəyi pis ola bilər ki? Bu kimi sualların sayını çoxaltmaq da mümkündür, mövzuya başqa səmtlərdən yanaşmaq da. Amma lüzum görmürük.

**Ə.RÜSTƏMOV**
**XQ**

# Davtyanın "stəkanda fırtına" yaratması

**"Sünikdə (Zəngəzur – red.) son vaxtlar heç bir yeni keçid məntəqəsi qurulmayıb". Bu, Ermənistan hökumətinə yaxın media subyektlərindən birinin yayılan məlumatın həqiqətdən uzaq olması ilə bağlı yaydığı məlumatdır. Bəs Zəngəzurda yeni keçid məntəqəsinin nə vaxt, sərhədin hansı hissəsində və kimlər tərəfindən qurulmasına dair feyk-informasiyanı dövriyyəyə kim buraxıb?**

Bu ağ yalanı jurnalist, yaxud bloqer olduğu bilinməyən tehranlı Ehsan Movahedian "azərbaycanşünas ekspertə" – erməni Qarnik Davtyana istinadla özününün "Telegram" kanalında yayımlayıb. Daha doğrusu, Davtyanın xəstə təxəyyülünün məhsulu olan feyk-xəbəri yoxlamadan, fərqli mənbələrdən dəqiqləşdirmədən tirajlayıb. Hay ekspert iddia edir ki, guya, Ermənistanın Sünik vilayətində 2021-ci ildə Gorus–Qafan avtomobil yolundakı vəziyyətə bənzər yeni keçid məntəqəsi yaradılıb.

Bu zaman, o, məlumatı əldə etdiyi mənbəyi, təbii ki, təhlükəsizlik baxımından "anonim" saxladığını açıqlayıb. Aydın məsələdir ki, belə bir dezinformasiyanı tirajlayan nəşr ictimai rəyə Ermənistanın "Zəngəzur dəhlizindən imtina etməsi" barədə rəvayəti sırımağa çalışır. İndiki məqamda bu xarakterli yalan məlumatların təsadüfən yayıldığını düşünmək sadəlövhlük olardı. Razılaşın ki, Bakı və İrəvanı sülhə aparan yolun üzərində əsas maneələrdən biri sayılan komunikasiyaların açılması məsələsi müxalifətin əlində baş nazir Paşinyana qarşı siyasi təzyiq, ən təsirli kartlardan biri hesab olunur.

Ermənistanın xəbər saytlarından biri məlumatı dəqiqləşdirmək üçün Sünik bölgəsinin təhlükəsizlik strukturlarındakı özəl mənbəyinə müraciət edib. Yerli hökumət və polis bu məlumatı qəti şəkildə təkzib ediblər. "Regionda heç bir yeni nəzarət-buraxılış məntəqəsi qurulmayıb", – Sünikdəki mötəbər mənbə təsdiqləyib.

Bunun ardınca hökumətə yaxın media qurumu haqlı olaraq iranlı həmkarları Ehsan Movahedianın nəzərinə bunları çatdırmağı lazım bilib: "Biz "hörmətli" eksperti məlumat yayan zaman daha etibarlı mənbələr seçməyə çağırırıq. Əks təqdirdə, heç də xoş olmayan bir səhnə yaranır: özünü "mötəbər mənbələrlə işləyən jurnalist" kimi qələmə verən "azərbaycanşünas ekspert" Qarnik Davtyan, əslində, çox aşağı əyarlı erməni saxtakarlıqlarını yaymaqla məşğuldur".

Yazının bu yerində Davtyanın "stəkanda fırtına" qopparmaq məqsədilə əl atdığı və mahiyyəti hayların özləri tərəfindən ifşa




edilmiş bu ideoloji təxribatına bəlkə də nöqtə qoymaq olardı. Amma və lakin!

Bu "dezinformasiya oyunu"nda nəzərdən qaçmayan ən ciddi məqam odur ki, Davtyanın yalanı tirajlamaqda məqsədi tərəfləri sülhə yaxınlaşdıran iktidarlı dialoqu, eləcə də yumşalmaya doğru gedən diplomatik münasibətləri zədələyə biləcək məlumatları ictimai rəyə sırımaqdır. Onun bu təxribatını iranlı "siyasi ekspert" Ehsan Movahedianın təkrarlaması isə nə qədər ciddi suallar doğurursa, məkrli niyyətlərdən xəbər verirsə, Ermənistanda hakimiyyətə yaxın medianın dezinformasiyanı operativ şəkildə təkzib etməsi bir o qədər müəmmalı və düşündürücüdür. Hər halda Zəngəzurda kimlərinsə tərəflərdən xəbərsiz yeni keçid məntəqəsi quraşdırmağa cürət etməsi bizim üçün də inandırıcı görünmür.

Ermənistan və Azərbaycan arasında sülhə nail olmanın indiki həssas mərhələsində baş nazir Paşinyana daxildən və kənardan təzyiqlərin artacağını proqnozlaşdıranlar yanılmırlar. Xüsusilə Vətən müharibəsindən sonra daşnak-revanşist düşərgənin, ermənipərəst kollektiv Qərbin, Azərbaycanı gözü götürməyən kənar qüvvələrin məqsədli şəkildə dezinformasiyalar yaymasını, bundan Bakıya siyasi təzyiq vasitəsi kimi faydalanmağa çalışmalarını çox müşahidə etdik. Amma bunların heç bir faydası olmadı və bundan sonra da olmayacaq.

**İ.HƏSƏNQALA**
**XQ**

Xuntaçıların məhkəməsi

# Ruben Vardanyanın məhkəməsində zərərçəkmiş şəxslərin ifadələri dinlənilib

**Azərbaycan Respublikası Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi iyulun 15-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni, rus dilində tərcüməçi, habelə müdafiəsi üçün özünün seçdiyi vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev dindirmədən əvvəl məhkəmə prosesində ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə və zərərçəkmiş şəxslərin hüquqi varislərinə qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Ardınca təqsirləndirilən Ruben Vardanyan məhkəməyə bir neçə vəsatət təqdim edib. Deyib ki, müdafiə tərəfi bundan əvvəl iclas protokolları ilə tanış olmaq üçün ərizə ilə müraciət edib. O xahiş edib ki, vəkili Avraam Bermana onun iştirakı olmadan da iclas protokolları ilə tanış olmasına şərait yaradılsın.

İclasa sədrlik edən hakim Zeynal Ağayev bildirib ki, vəsatət təmin olunur. Bu, təqsirləndirilənin hüququdur. Təqsirləndirilən Ruben Vardanyana və onun vəkili Avraam Bermana iclas protokolları ilə tanış olmaq üçün daim şərait yaradılıb və bundan sonra da yaradılacaq.

Sonra Ruben Vardanyan bütün məhkəmə iclaslarından əvvəl ona vəkili ilə konfidensial görüşmək üçün imkan yaradılmasını xahiş edib. Bildirib ki, onda müəyyən suallar yaranır və bunu vəkili ilə müzakirə etmək istəyir.

Məhkəmə bu vəsatəti də təmin edib. Hakim Zeynal Ağayev deyib ki, onsuz da hər iclasdan əvvəl onlara davamlı olaraq konfidensial görüş üçün imkan yaradılır və bundan sonra da digər hüquqları kimi, bu hüququ da təmin ediləcək.

Üçüncü vəsatətini təqdim edən Ruben Vardanyan bildirib ki, bundan əvvəl o və vəkili məhkəmə protokollarındakı qərarların çıxarışlarının onlara təqdim olunmasını xahiş ediblər. Hakim Zeynal Ağayev diqqətə çatdırıb ki, hansı iclasların protokollarının qərarlarının çıxarışları ilə tanış olmaq istəyirlərsə, buna dair məhkəməyə siyahı təqdim etsinlər. Həmin siyahıya uyğun olaraq səndlər müdafiə tərəfinə çatdırılacaq. Ruben Vardanyan məhkəmənin keçirildiyi 6 ay müddətində verdiyi bütün vəsatətlərlə bağlı qərarların çıxarışları ilə tanış olmaq istədiklərini bildirib. Hakim həmin çıxarışların bir hissəsinin artıq onlara verildiyini, digərlərinin də təqdim olunacağını deyib.





Ruben Vardanyanın vəkili Avraam Berman da təqsirləndirilənin vəsatətlərini müdafiə etdiyini söyləyib.

Bundan sonra ifadə verən zərərçəkmiş şəxsin hüquqi varisi Ramil Manafov qeyd edib ki, övladı Qiyas Manafov Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin atdığı minaatan mərmisinin partlaması nəticəsində həlak olub. O, dünyasını dəyişən zaman 19 yaşı var idi.

Zərərçəkmiş şəxs Beyrək Zülfüqarov ifadəsində düşmən tərəfindən açılmış atəş nəticəsində güllə yarası aldığını deyib. O, dövlət ittihamçısı Tərana Məmmədovanın sualına cavabında hadisənin Xocavənd istiqamətində baş verdiyini söyləyib.

Minuri Səfərli ifadəsində bildirib ki, qarşı tərəfdən atılmış minaatan mərmisinin partlaması nəticəsində sol ayağından xəsarət alıb. O, dövlət ittihamçısı Fuad Musayevin suallarına cavabında hadisə zamanı yanında olmuş Vüsal Lətifovun da xəsarət aldığını diqqətə çatdırıb.

Zərərçəkmiş Sədi Əliyev Xocavənddə Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin atdığı əl qumbarasının partlaması nəticəsində xəsarət aldığını deyib.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarına cavabında zərərçəkmiş şəxs Əli Zeynalov Ağdam rayonunda düşmən tərəfindən basdırılmış minaya düşməsi nəticəsində müxtəlif xəsarətlər aldığını bildirib.

Dövlət ittihamçısı Nəsir Bayramovun suallarını cavablandıran zərərçəkmiş Cavid Şavqatlı isə Ağdamda Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin atdığı minaatan mərmisinin yaxınlığında partlaması nəticəsində yaralandığını qeyd edib.

Rüstəm Rüstəmov Kəlbəcər rayonunun Vəng kəndində düşmən tərəfindən açılmış artilleriya atəşi nəticəsində qəlpə yarası aldığını söyləyib.

Zərərçəkmiş Salman Budaqov ifadəsində Kəlbəcərdə düşmən tərəfindən atılmış əl qumbarasının partlaması nəticəsində yaralandığını deyib.

Gəray Ağayev Xocalıda Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən açılmış atəş nəticəsində yaralandığını bildirib.

Sənan Məmmədov ifadəsində Ağdamda düşmən tərəfindən açılmış atəş nəticəsində başının arxa tərəfindən yaralandığını deyib. O, dövlət ittihamçısı Vüsal Abdullayevin suallarını cavablandırarkən hadisə zamanı ölənlərin və yaralananların olduğunu qeyd edib.

Rabil İsmayılov qarşı tərəfdən atılmış minaatan mərmisinin yaxınlığına düşərək partlaması nəticəsində xəsarət aldığını söyləyib.

Zərərçəkmiş Nurlan Tarverdiyev Xocavənd istiqamətində Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin dronla atdığı mərminin partlaması nəticəsində sol qolundan yaralandığını diqqətə çatdırıb.

Zərərçəkmiş Rəşad Süleymanlı Xocavənd rayonunda düşmən tərəfindən atılmış mərminin partlaması nəticəsində xəsarət aldığını deyib.

Zərərçəkmiş Fəqan Muradov ifadəsində qeyd edib ki, Ağdərə rayonu istiqamətində düşmənin açdığı atəş nəticəsində yaralanıb.

Zərərçəkmiş Konsul Qasımov Xocalı istiqamətində Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən törədilmiş partlayış nəticəsində kəllə-beyin travması aldığını bildirib.

Sadiq Şəkərov Ağdam rayonunda düşmən tərəfindən atılmış minaatan mərmisinin partlaması nəticəsində xəsarət aldığını söyləyib.

Fəxri Məmizadə Xocavənddə Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin iriçaplı silahdan açdığı atəş nəticəsində xəsarət aldığını vurğulayıb.

Kənan Mahmudov isə Ağdam rayonunda düşmən tərəfindən atılmış qumbaranın partlaması nəticəsində xəsarətlər alıb. O, Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin sualına cavabında hadisə zamanı bir nəfərin həlak olduğunu, daha iki nəfərin yaralandığını deyib. Bildirib ki, o, əl, ayaq, göz və bədəninin müxtəlif hissələrindən xəsarətlər alıb.

Zərərçəkmiş Əmir Yusifov Kəlbəcərdə Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin atdığı minaatan mərmisinin partlaması nəticəsində yaralandığını söyləyib.

İzzət Vəliyev Kəlbəcər rayonunda düşmənin açdığı snayper atəşi nəticəsində yaralandığını bildirib.

Zərərçəkmiş digər şəxslər Rövşən Nuriyev, Natiq Qasımzadə, Murad Sadıq düşmənin təxribatları nəticəsində müxtəlif xəsarətlər aldıqlarını qeyd ediblər.

Məhkəmə prosesində, həmçinin zərərçəkmiş şəxslərin barələrində keçirilmiş məhkəmə-tibbi ekspertizasının rəyləri elan olunub.

Məhkəmənin növbəti iclası iyulun 22-nə təyin edilib.

(əvvəli 1-ci səhifədə)

# Demokratik cəmiyyətdə mərkəzləşdirilmiş idarəetmə



Qeyd edək ki, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına 2 yeni maddənin (maddə 3-1 və maddə 28-1) əlavə edilməsi, 1 maddənin (maddə 5) çıxarılması, Preambula hissədə və bir sıra maddələrdə isə dəyişikliklər edilməsi nəzərdə tutulur.

Ümumilikdə götürdükdə, bu dəyişikliklərin əsas hədəfi muxtar respublikanın hüquqi bazasının ölkə qanunvericiliyi ilə tam uyğunlaşdırılması, eləcə də mərkəzləşdirilmiş idarəetmə modelinin gücləndirilməsidir.

Gəlin, bu dəyişikliklərə nəzər salaq.

İlk olaraq Moskva və Qars beynəlxalq müqavilələrinə istinadın konstitusiyanın preambulasından və 1-ci maddənin ikinci hissəsindən çıxarılması məsələsinə aydınlıq gətirək.

Dəyişikliyə əsasən Moskva və Qars beynəlxalq müqavilələrinə istinad konstitusiyadan çıxarılmaqla yanaşı, preambulada "Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir" və "Naxçıvan Muxtar Respublikasının bu Konstitusiyasının əsası "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" 1991-ci il 30 avqust tarixli Bəyannamədə və "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" 1991-ci il 18 oktyabr tarixli Konstitusiya Aktında təsbit edilmiş prinsiplər və Azərbaycan Respublikasının 1995-ci il 12 noyabrda ümumxalq səsverməsində — referendumda qəbul edilən Konstitusiyası təşkil edir" müddəaları nəzərdə tutulacaqdır.

Bəri başdan qeyd edək ki, bu dəyişikliyin mahiyyəti təbii ki, Moskva və Qars beynəlxalq müqavilələrinin hüquqi qüvvəsinin itməsi demək deyil. Adı çəkilən müqavilələr hər bir halda beynəlxalq hüququn predmetidir.

Bu dəyişiklik hər bir halda muxtar respublikanın statusununun mənbəyini müstəsna şəkildə daxili konstitusion yurisdiksiyaya verməklə yanaşı, "ikili hüquqi mənbə" problemini də aradan qaldırmış olur. İkinci Qarabağ müharibəsindən sonra ölkəmizin dövlət strategiyasında sərhəd təhlükəsizliyi və regional koordinasiyanın prioritet məsələ olduğunu göz önünə gətirsək, o zaman geosiyasi həssaslıq şəraiti fonunda Naxçıvan Muxtar Respublikasının statusunun daxili konstitusion dayaqlara keçidinin necə böyük siyasi-hüquqi əhəmiyyətə malik olduğunu təsəvvür edə bilərik.

Hesab edirik ki, bu siyasi dəyərə malik olan dəyişiklik ölkəmiz üçün son dərəcə önəmli strateji əhəmiyyətə malikdir.

Konstitusiyaya "3-1-ci maddə"nin əlavə edilməsi ilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilmiş vəzifələri yerinə yetirən və səlahiyyətləri həyata keçirən "Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi" adlı yeni icra orqanı təsisatının konstitusion səviyyədə daxil edilməsi və bu orqanın birbaşa Azərbaycan Respublikası Prezidentinə tabe olmasının nəzərdə tutulması sözügedən orqana ali status verilməsinə, regional idarəetməyə mərkəzdən yeni nəzarət modelinin formalaşmasına, icra sferasının mərkəzi hakimiyyətlə oprativ əlaqəsinin daha effektiv və möhkəm təmin olunmasına, dövlətin strateji sosial-iqtisadi inkişaf proqramlarının effektiv icra edilməsibə, idarəetmədə şəffaflıq və korrupsiyaya qarşı nəzarət mexanizminin güclənməsinə səbəb olacaqdır.

Gələk Konstitusiyanın 5-ci maddəsinin (Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsi) ləğvi məsələsinə.

İndiyədək "Ali vəzifəli şəxs" konstitusiya ilə həm qanunvericilik, həm icra hakimiyyəti sahələrində müəyyən səlahiyyətləri həyata keçirirdi ki, bu da iki hakimiyyət qoluna aid olan səlahiyyətlərin bir subyektdə cəmlənməsinə gətirib çıxarırdı. Sözügedən hal isə son nəticədə "hakimiyyətin bölgü prinsipi"nin təbiətinə tamamilə zidd idi.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 3-cü maddəsinin ikinci hissəsinə görə qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin qarşılıqlı fəaliyyət göstərməsini real olaraq gerçəkləşdirmək üçün adı çəkilən institutun ləğvi zərurətdən irəli gəlirdi.

Konstitusiyanın 14-cü maddəsinin I hissəsinə aşağıdakı məzmunda ikinci və üçüncü cümlələr əlavə edilir:

"Müharibə şəraitində hərbi əməliyyatların aparılması Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərin keçirilməsini mümkün etmədikdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin çağırışının səlahiyyət müddəti hərbi əməliyyatların sonunadək uzadılır. Bu barədə qərar Naxçıvan Muxtar Respublikasında seçkilərin hazırlanmasını və keçirilməsini təmin edən dövlət orqanının müraciətinə əsasən Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi tərəfindən qəbul edilir.".

Sözü gedən dəyişiklik Naxçıvan Muxtar Respublikası Konstitusiyasının söhbət açılan maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 84-cü maddəsinin I hissəsinə (eyni ilə Azərbaycan Respublikası Milli Məclisi ilə bağlı olan analoji müddəaya) uyğunlaşdırılmasına xidmət edir və bu sahədə olan boşluğu aradan qaldırır.

Ümumilikdə götürdükdə bu müddəa Azərbaycan Respublikasının Seçki Məcəlləsinin 7-1-ci maddəsində (Seçkilərin və referendumun keçirilməsini istisna edən hallar) nəzərdə tutulmuş aşağıdakı məsələ ilə bağlı parlament legitimliyinin kəsilməsi riskinə qarşı normativ sığorta rolunu oynayır: "Azərbaycan Respublikasının ərazisinin 25 faizindən çoxunda hərbi və ya fövqəladə vəziyyət elan edildikdə, hərbi və ya fövqəladə vəziyyət zamanı, həmçinin hərbi və ya fövqəladə vəziyyətin ləğv edilməsindən sonra 3 ay müddətində seçkilər və ya referendum keçirilə bilməz".

Analoji müddəa Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 7-ci maddəsinin ikinci hissəsində belə əks olunmuşdur: "Azərbaycan Respublikasının və ya Naxçıvan Muxtar Respublikasının ərazisinin 25 faizindən çoxunda hərbi və ya fövqəladə vəziyyət elan edildikdə, hərbi və ya fövqəladə vəziyyət zamanı, həmçinin hərbi və ya fövqəladə vəziyyətin ləğv edilməsindən sonra 3 ay müddətində Ali Məclisə seçkilər keçirilə bilməz".

Qeyd edək ki, oxşar maddələr bir sıra dövlətlərin (Ukrayna, Gürcüstan, Litva və s.) konstitusiyalarında da nəzərdə tutulmuşdur.

Konstitusiyaya zərurətdən qaynaqlanan əlavələrdən biri də ona aşağıdakı məzmunda 28-1-ci maddənin əlavə edilməsidir:

"Maddə 28-1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin buraxılması

I. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 31 deputatın tələbi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən və ya bu Konstitusiyanın 24-cü və 25-ci maddələrində, 26-cı maddəsinin II–V hissələrində və 27-ci maddəsində göstərilən vəzifələrini aradan qaldırıla bilməyən səbəblər üzündən icra etmədikdə Azərbaycan Respublikasının Prezidenti tərəfindən buraxılır.

II. Növbədənkənar seçkilərdə seçilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin çağırışının səlahiyyət müddəti beş ildən az ola bilər. Bu halda Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə növbəti seçkilər növbədənkənar seçkilərdə seçilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin çağırışının səlahiyyət müddətinin beşinci ilinin noyabr ayının birinci bazar günü keçirilir.".

Sözügedən dəyişiklik Naxçıvan Muxtar Respublikası Konstitusiyasının Azərbaycan Respublikası Konstitusiyasının 981-ci maddəsinə (Azərbaycan Respublikası Milli Məclisinin buraxılması) uyğunlaşdırılmasına xidmət edir və bu sahədə olan çatışmazlığı aradan qaldırır.

Beləliklə, "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin buraxılması"nın konstitusiyaya əlavə edilməsi mövcud olan konstitusion təcrübəyə tam uyğun gəlir.

Oxşar maddələr bir sıra dövlətlərin (Rusiya, İtaliya, Gürcüstan və s.) konstitusiyalarında da nəzərdə tutulmuşdur.

Konstitusiyaya daha prinsipial dəyişikliklərdən biri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə aid tələblərin sadələşdirilməsidir. Belə ki, hazırda Konstitusiyanın 29-cu maddəsinin ikinci hissəsinə görə "Naxçıvan Muxtar Respublikasının ərazisində beş ildən az olmayaraq daimi yaşayan, başqa dövlətlər qarşısında öhdəliyi olmayan, ali təhsilli, ikili vətəndaşlığı olmayan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin hər bir deputatı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilə bilər".

Təklif olunan dəyişikliyə əsasən isə söhbət açılan maddənin ikinci hissəsinin aşağıdakı redaksiyada verilməsi nəzərdə tutulur:

"II. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ali təhsilli hər bir deputatı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilə bilər.".

Nəzər saldıqda görürük ki, Azərbaycan Respublikası Milli Məclisi sədrinin seçilməsi üçün də heç bir əlavə senz tələb olunmur, yəni, qısası, deputat olmaq kifayətdir. Bu mütərəqqi məzmunlu sadələşdirmə dəyişikliyi muxtar və mərkəzi parlament modellərini eyni xəttə gətirir.

Bundan başqa, unudulmamalıdır ki, Avropa Məhkəməsi də öz presedent təcrübəsində dəfələrlə bəyan edib ki, "passiv seçki hüququ"na qoyulan hər bir məhdudiyyətin qanuni məqsədə uyğun, zəruri və proporsional olması tələb olunur, "ikiqat vətəndaşlıq" və ya "müəyyən müddət yaşayış" kimi açıq-şərtsiz qadağalar "hüququn mahiyyətini həddindən artıq dərəcədə məhdudlaşdıra" bilər.

Beləliklə, bu dəyişiklikdən sonra Naxçıvan Muxtar Respublikasında parlamentin sədri "məhdudlaşdırıcı deyil, daxil edici" qayda ilə formalaşmış olacaq, bu da həm siyasi rəqabətin artmasına, həm də cəmiyyətin müxtəlif təbəqələrini təmsil etmək potensialının genişlənlənməsinə səsəb olacaqdır.

Konstitusiyaya Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetininin tabeçiliyinə dair edilən dəyişiklər son dərəcə əhəmiyyətlidir.

Hazırda Konstitusiyanın 34-cü maddəsinin (Naxçıvan Muxtar Respublikasında icra hakimiyyəti) üçüncü hissəsinə əsasən "Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Naxçı¬van Muxtar Respublikasının Ali Məclisinə tabedir və onun qarşısında müntəzəm hesabat verir".

Dəyişikliyə görə "tabedir və onun qarşısında müntəzəm" sözlərinin "özünün fəaliyyəti barədə" sözləri ilə əvəz edilməsi nəzərdə tutulur.

Qeyd edək ki, hazırda muxtar respublikada icra hakimiyyətinin qanunverici hakimiyyətə tabe olması parlamentli idarəçilik formasına malik olan dövlətlərə xas olan bir xüsusiyyətdir. Halbuki Azərbaycan Respublikası prezidentli respublikadır. Bu vəziyyətdə prezidentli respublika idarəçilik formasına malik olan dövlətin tərkibində parlamentli muxtar qurumun olması nə məntiqə uyğundur, nə də qanunvericilik və hüquq təcrübəsi ilə səsləşir.

Digər tərəfdən belə bir tabeçilik hazırda qüvvədə olan Azərbaycan və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarında qəbul edilən "hakimiyyətin bölgü prinsipi"nin təbiətinə də tamamilə ziddir. Belə olduğu təqdirdə, sözügedən dəyişiklik yerində və labüddür.

Bunun məntiqi davamı olaraq konstitusiyanın adı çəkilən maddəsinə aşağıdakı məzmunda dördüncü hissənin əlavə edilməsi də başa düşüləndir:

"IV. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti iş qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyənləşdirir.".

Dediklərimizi yekunlaşdırsaq, o nəticəyə gələ bilərik ki, Naxçıvan Muxtar Respublikası¬nın Konstitusiyasına edilən dəyişikliklər yalnız formal texniki məzmuna malik deyil, həm də substansial dövlət idarəetməsi transformasiyası baxımından fundamental əhəmiyyət daşıyır.

Beləliklə, sözü gedən dəyişikliklər müasir dövrün konstitusionalizm prinsiplərinə, idarət-mədə səmərəlilik və legitimlik tələbələrinə uyğun olaraq yalnız muxtariyyətin deyil, eyni zamanda milli dövlətçiliyin möhkəmlənməsi baxımından da strateji əhəmiyyətə malikdir.

***Yunis XƏLİLOV,***
***Naxçıvan Dövlət Universitieti ümumi hüquq kafedrasının müəllimi***

## NAXÇIVAN XƏBƏRLƏRİ



### Jurnalistlərin zəka yarışı

**Muxtar Respublikanın Gənclər və İdman Nazirliyi 22 İyul – Milli Mətbuat və Jurnalistika Günü münasibətilə "Media-aktiv" layihəsinə start verib.**

Naxçıvan Şahmat Mərkəzində layihənin ilk tədbiri – media nümayəndələri arasında "Nə? Harada? Nə zaman?" intellektual oyunu keçirilib. İki turdan ibarət yarışmada 11 komanda qalibiyyət uğrunda mübarizə aparıb. Ümumilikdə, 32 sual səsləndirilib, doğru cavablar 1 xal ilə qiymətləndirilib. Nəticələrə əsasən, "Sosial press" komandası yarışmanın qalibi olub. "Əkinçi" və "İrşad" komandaları müvafiq olaraq 2-ci, 3-cü yerlərə sahib çıxıblar.

Layihənin proqramına uyğun olaraq qarşıdakı günlərdə stolüstü tennis, şahmat və futzal yarışları da keçiriləcək. İyulun 21-i isə mükafatlandırma mərasimi olacaq.

### Su hövzələrinə mediatur

**Naxçıvan Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsi qlobal su böhranına, yay mövsümündə sudan səmərəli və qənaətli istifadənin vacibliyinə ictimai diqqəti artırmaq üçün muxtar respublikanın su hövzələrinə mediatur təşkil edib.**

Jurnalistlər ilk olaraq Şahbuz rayonunun ərazisində, dəniz səviyyəsindən 2424 metr yüksəklikdə yerləşən "Qanlıgöl" sutarına baş çəkiblər. Burada məlumat verilib ki, ötən il həyata keçirilmiş mühüm və strateji əhəmiyyət daşıyan layihələrdən biri də obyektin suburaxıcı qülləsinin əsaslı şəkildə təmir olunmasıdır. Şahbuz Şəhər Təmizləyici və Çirkab Su Təmizləyici qurğular komplekslərində isə bildirilib ki, bu avadanlıqlar bölgədə ekoloji tarazlığın qorunması, əhalinin dayanıqlı və təmiz içməli su ilə təminatı baxımından mühüm əhəmiyyət daşıyır.

Səfər zamanı media nümayəndələri həmçinin Batabat yaylağında yerləşən unikal Batabat göllərinə də baxış keçiriblər. Sonda isə hazırda su səviyyəsi minimum həddə yaxınlaşan Heydər Əliyev Su Anbarında vəziyyətlə tanış olublar. Mediatur iştirakçılarının bütün sualları ətraflı cavablandırılıb, jurnalistlərə bölgədəki su təsərrüfatının vəziyyəti və aparılan tədbirlər barədə ətraflı məlumat verilib.

Jurnalistlərə müsahibə verən Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində Regional Su Meliorasiya Xidməti publik hüquqi şəxsin Naxçıvan Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin rəisi Malik Rzayev bildirib:

– Qlobal səviyyədə baş verən proseslər sututarlarına diqqət yetirməyi vacib sayır. Hər il biz yağıntıların azaldığını müşahidə edirik. Bu il də Naxçıvanda su ilə bağlı həyəcan təbili çalınır. Sututarlarımızda suyun azlığı bizə əsas verir ki, "Qanlıgöl" sututarına bənzər layihələri həyata keçirək. Ümumilikdə 850 min kubmetr tutumu olan sututarının artıq 830 min kubmetri, yəni, təqribən 97 faizi dolub, bu da bölgə üçün mühüm əhəmiyyət kəsb edir.

Mühüm layihələrdən biri də Araz Su Anbarından Heydər Əliyev Su Anbarına təzyiqli boru xətti ilə suyun çəkilməsidir. 16 yarımbəndlik tədbirlərin artıq 12-nin icrasına başlanılıb. Eyni zamanda 90-na yaxın kənd və qəsəbədə içməli su-kanalizasiya xətlərinin dayanıqlı su mənbələrindən qidalanmasının layihələndirilməsi üçün müqavilə bağlanılıb. Yaxın zamanlarda icrasına başlanacaq.



### Bilyard turniri

**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü şərəfinə bilyard üzrə muxtar respublika açıq turniri keçirilib.**

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin Marvel Bilyard Salonunda təşkil etdiyi yarışa 18 həvəskar bilyardçı qatılıb. İştirakçılar qarışıq piramida növündə qalibiyyət mübarizəsi aparıblar.



Ramazan Əliyev turnirin qalibi olub. Gümüş medala Elvin Kərimov sahib çıxıb. Rəşad Əhmədov və Loğman Babayev yarışı bürünc medalla tamamlayıblar. Qaliblərə diplom, medal və hədiyyələr təqdim olunub.

***S.HƏSƏNOV,***
***XQ-nin Naxçıvan müxbiri***

# Terrorla mübarizədə “türk strategiyası”: konseptual aspekt



**II MƏQALƏ**

## Total terrora qarşı Azərbaycan dirənişi

Öncə, terminoloji izaha ehtiyac vardır. Faktlar göstərir ki, Azərbaycana qarşı terror həqiqi mənada total xarakterlidir. Yəni burada kimi və ya kimlərisə fiziki məhv etmək məqsədi əsas deyildi. Əksinə, insanları fiziki məhv etməyin strateji məqsədlərinə aparan üsullardan biri idi. Əgər terror dövlət səviyyəsində strateji məqsədlidirsə, ona aparan yollar çox ola bilər və onlardan biri o birindən üstün deyildir. Hətta terror törədən bu yolda kimləri və ya hansısa xidməti olmuş qrupları qurban verə bilər. Çünki əsas məqsəd rəqib hesab etdiyini məhv etməklə dövlət qurmaq olanda geridə qalan təfərrüatdır. Bu anlamda “Qnçak”ın “Daşnaksyutun”dan, onun “Aremenakan”dan və bunların hamısının bir yerdə “Ermənistan”a rəhbərlik etmiş hər bir kəsdən elə bir fərqi yoxdur. Məhz bu anlamda Azərbaycan əsrlərlə total terror hədəfi olmuşdur.

Başqa bir izaha da ehtiyac görürük. Əksəriyyət bütün bu proseslərdə ermənilərin hansısa “döyüşkənliyi”, “mübarizliyi” və hətta “mərdliyi” kimi əlamətlərini vurğulamağa çalışırlar. Bunlar tamamilə ideoloji məqsəd üçün uydurmadır, çünki bəşəriyyətin fəzilət kriteriyasında “terrorçu mərd ola bilər” şərti yoxdur. Terrorçu sərt ola bilər, qəti addım atar, kritik situasiyada özünü qurban verər, lakin bunlar mərdlik deyildir. Mərdlik fəzilətdir. Deməli, Azərbaycan həm də psixoloji çaları qabarıq olan ideoloji-mənəvi terrora məruz qalmışdır!

Bunlardan Azərbaycana qarşı “total terror” anlayışının məna çaları haqqında təsəvvür əldə edə bilərik. Bu terror “Azərbaycan” ideyasına, coğrafiyasına, kimliyinə, azərbaycanlılığa, mədəniyyətinə və geniş anlamda dövlətçiliyinə qarşı aparılan uzunmüddətli hərəkat idi. Bu aspektdə də Azərbaycana qarşı terror daha çox geosiyasi çalarlı idi. Bu xüsusiyyələrdən avtomatik olaraq həyati sual meydana gəlir: belə bir miqyaslı total terrora qarşı Azərbaycan hansı strategiyanı seçə bilərdi?

## İki mərhələnin fərqi: imperiya və sovet dönəmləri

**a) İmperiya dönəmi**

Birinci mərhələ XVIII əsrin ikinci yarısından XX əsrin üçüncü onilliyinin başlanğıcına qədər olan müddəti əhatə edir. Bu mərhələni faktiki olaraq terrorun Azərbaycan ideyasını, kimliyini, mədəniyyətini, demorafik özəlliyini, coğrafiyasını və modern dövlət qurmaq imkanlarını yoxa çıxarmaq üçün istifadə edilməsi dönəmi adlandıra bilərik. Onun da bir neçə altmərhələləri vardır.

Hər şeydən öncə, azərbaycanlıların yaratdıqları və bir müddət güclü və geniş coğrafiyada mövcud olan imperiyanı çökdürdülər. Əsl terror bundan sonra vüsət aldı. Azərbaycan dövlətinin qalıqları üzərində demoqrafik soyqırımı, yerləşim yerlərinin dağıdılması və insanların deportasiyası, mədəniyyətə və toponimlərə qarşı terror törədilməsi, ayrı-ayrı nüfuzlu fərdlərə, ağsaqqallara və tanınmış din xadimlərinə qarşı terror aksiyaları getdikcə davamlı hal aldı.

Bunlara paralel olaraq azərbaycanlıların yaşadıqları ərazilərə erməniləri köçürürdülər və ərazini öz maraqlarına uyğun inzibati bölgələrə bölürdülər. Bununla demoqrafiya, mədəniyyət, toponim və idarəetmə aspektlərində Azərbaycanı parçalamaq xətti getdikcə gücləndi. Bunları Rusiya İmperiyası həyata keçirirdi.

Artıq XIX əsrin sonlarında erməniləri terror təşkilatlarında birləşdirmişdilər və onların sayını artırmaqla bütün Azərbaycan siyasi-coğrafi məkanında aborigenliyi məhv etməyə girişmişdilər. Nəticədə XX əsrin əvvəllərindən daha mütəşəkkil və məqsədyönlü şəkildə antiazərbaycan siyasəti həyata keçirilməyə başlandı.

Dəfələrlə təşkil edilən terror aktları sayəsində 1920-ci ilə düşmən dairələr Azərbaycanı ərazicə bir neçə yerə bölünmüş, demoqrafik olaraq çox zəiflədilmiş, cəmiyyət kimi ideya baxımından parçalanmış, dövlət olaraq məhv olmaq ərəfəsinə gətirilmiş hala salmışdılar. Artıq Azərbaycanın tarixi və dövləti ərazisinin bir hissəsində “Ermənistan” yaratmışdılar. Azərbaycanlıları bir-birinə qarşı ən azı laqeyd etmişdilər. Ümumi Azərbaycan ərazisi deyə bir anlayış yox edilmişdi. Elə təsəvvür yaradırdılar ki, azərbaycanlılar (əsasən türklər) hər yerə gəlmədir və onlar şükr etməlidirlər ki, fiziki məhv edilmirlər.

Bu gedişatı Azərbaycan Xalq Cümhuriyyəti dövləti xeyli zəiflətdi. Bir illik də olsa, o dövlət qurulmasaydı, Azərbaycanın sonrakı taleyi daha da müəmmalı olacaqdı. Çünki həmin dövr Azərbaycanın zəkalı övladları dünyaya sübut etdilər ki, əsrlərdir imperilayarın apardığı terror siyasəti “Azərbaycan” ideyasını, azərbaycanlılığı, azərbaycançılığı və milli dövlətçilik ruhunu yox edə bilməmişdir. Bu, bizə düşmən olmağa qərar verənlər üçün bir siyasi, geosiyasi və ideoloji şok idi! AXC “Azərbaycan var!” nidasının rəmzi idi!

Ancaq bu, sonrakı 70 ildə Azərbaycana qarşı total terrorun tam məhv edilməsinə yetərli olmadı. AXC-ni süqut etdirdilər. Və Azərbaycana qarşı total terrorun daha təhlükəli, hiyləgər və əsasən dövlətçiliyi hədəf alan ikinci mərhələsi başladı.

**b) Sovet dönəmi**

Artıq parçalanmış Azərbaycanın şimal hissəsini güclə sovetləşdirdilər. 1920-ci ildən ölkənin yeni bir “terrora məruz qalmaq məcarası” başladı. Mərkəzin birbaşa dəstəyi və əmrləri ilə Azərbaycan torpaqlarını sürətlə Ermənistana hədiyyə etmək tendensiyası davamlı prosesə çevrildi. Paralel olaraq mütəmadi qaydada Qərbi Azərbaycandan azərbaycanlılar deportasiya olundular. Onun ən kütləvi və miqyaslı mərhələsi 1948-1953-cü illər deportasiyasında oldu. Azərbaycan torpaqları hesabına Ermənistanın ərazisini 2 dəfədən çox artırmışdılar. Bu prosesin son mərhələsini 1987-1993-cü illərdəki deportasiyalar və ərazi işğalları təşkil etdi.

İkinci mərhələnin birincidən ciddi fərqləri vardı. Hər şeydən öncə, ikinci mərhələ eyni dövlət tərkibində olan iki respublika arasında baş verirdi. Vahid mərkəzdən idarə edilən bu respublikalardan birinin coğrafi, mədəni, demoqrafik və dövləti maraqları digərinə qurban verilirdi. Bunun üçün Mərkəz əsas olaraq “hüquqi və humanist” üsuldan istifadə edirdi. Yəni Azərbaycan torpaqlarını Ermənistana mərkəzin əmrləri və göstərişləri ilə verirdilər, azərbaycanlıları öz yurdlarından “qardaş” kimi qovurdular. Bununla da Moskva iki məqsədə eyni zamanda nail olmağa çalışırdı.

Birincisi, ermənilərin azərbaycanlılara düşmən olmadığı obrazını yaradırdı. Hərçənd mərkəzə sərf edəndə bütün günahları ermənilərin üstünə atırdı. Guya Moskvanın olan-bitənlərdən xəbəri yox idi.

İkincisi, hadisələrin beynəlxalq aləmdə real dərk edilməməsi üçün SSRİ-nin qapalı siyasi rejimindən istifadə edilirdi. Yəni hər hansı kənar təsiri “SSRİ-nin daxili işlərinə qarışmaq” və ya “xalqlar arasına nifaq slmaq” kimi təqdim edirdilər. Bu da Azərbaycana qarşı həm terroru pərdələyirdi, həm də azərbaycanlıların onunla mübarizə aparmaq manevrlərini minimuma endirirdi.

Yəni ikinci mərhələdə Azərbaycana qarşı total terrora başlıca olaraq bir dövlət daxilində olan proseslər kimi baxmaq lazım gəlir. Bu hal özünün pik nöqtəsinə 1987-1991-ci illərdə çatdı. Həmin dönəmdə həm Qərbi Azərbaycandan soydaşlarımız tamamilə deportasiya edildilər, həm də Ermənistanı müstəql respublika etdilər. Azərbaycan da müstəqillik əldə etdi, lakin çoxlu sayda problemlər də üzərinə yükləndi.

Beləliklə, ikinci mərhələdə total terrorun əsas əlamətləri kimi aşağıdakıları vurğulaya bilərik.

**Birincisi,** ilkin mərhələnin yekunu kimi XX əsrin üçüncü onilliyində qondarılmış “Ermənistan”ın tarixi, siyasi, geosiyasi, mədəni və dövləti aborigenləşdirilməsi (qafqazlaşdırılması, “yerliləşdirilməsi”) prosesi aparılmışdır.

**İkincisi,** bu mərhələ daha gizli, üstüörtülü və aldadıcı məzmun daşımışdır. Əsas səbəbi Azərbaycan və Ermənistanın bir dövlət tərkibində iki respublika olması ilə bağlı idi.

**Üçüncüsü.** Azərbaycana qarşı total terror ikinci mərhələdə başlıca olaraq dörd istiqamət üzrə həyata keçirilmişdir.

**Birincisi,** Qərbi Azərbaycandan bütün azərbaycanlıların deportasiya olunması.

**İkincisi,** Azərbaycan SSR-dən ərazilərin tədricən Ermənistan SSR-ə verilməsi.

**Üçüncüsü,** mədəniyyət və toponimləri erməniləşdirmək istiqamətində davamlı addımların atılması.

**Dördüncüsü,** total terroru ört-basdır etmək üçün müxtəlif süni ideoloji konseptlərin inkişaf etdirilməsi (“əzəli erməni mədəniyyəti”, “böyük Ermənistan”, “qədim sivilizasiyanın beşiyi” və sair cəfəngiyyatlar).

İkinci mərhələnin nəticəsi Ermənistanın özünü siyasi, hüquqi və ayrıca dövlət kimi mövcudluğunun tamamilə təbii və qanuni olduğuna inanması oldu. Erməni siyasi və ictimai şüuru bu nağıla o dərəcədə inanmışdır ki, indi də torpaqlarında qondarılmış saxta bir dövlət kimi Azərbaycanın təbii və beynəlxalq haqlarına təcavüz etməyin fonunda “suverenliyimdən və ərazi bütövlüyümdən zərrə qədər də vaz keçmərəm” deyə, hay-küy salır. Əslində, onlardan soruşulmalı əsas sual belə olmalıdır: “sənin ərazin var ki, onun da bütövlüyü və ya təminindən danışasan?”

Əlbəttə, tarixi, mənəvi və siyasi baxımdan son sual sadəcə ritorika deyildir, həqiqət anıdır. Lakin müasir beynəlxalq hüquq prizmasında belə görünmür. Çünki dünya dövlətləri “Ermənistan Respublikası” adlı dövləti tanımışlar və onun hazırda ABŞ, Aİ, Rusiya, İran və hətta uzaq Hindistan kimi havadarları vardır. Bunları görməzlikdən gəlmək reallıqdan uzaq durmaq demək olardı.

Bütün vurğulanan tarixi, siyasi, mədəni, mənəvi gerçəkliklərin və hazırda beynəlxalq hüquqda Ermənistanın respublika kimi tanınması fonunda, total tettora qarşı mübarizədə Azərbaycanın strategiyasının əhəmiyyəti daha da artmış kimi görünür. Məsələnin bu tərəfinin iki cəhəti vardır.

**Birincisi,** indiyə qədər bizə qarşı olan terrorun anatomiyasını dərindən qavramalıyıq ki, bu istiqamətdə keçmişimiz daha aydın olsun. Erməni havadarları başda olmaqla kimin kim olduğunu bilməliyik. Yaddaş aldatmamalıdır!

**İkincisi,** bütövlükdə terrora qarşı Azərbaycanın (ümumi miqyasda türklərin) terrorla mübarizə strategiyasının ən perspektivli variantı tapılmalıdır. Bunun üçün hazırda çoxlu sayda faktlar mövcuddur. Həmin faktlar Azərbaycanın terrorla mübarizə strategiyasının uğurunu ifadə edirlər. Eyni zamanda, qardaş Türkiyənin terrorla mübarizədə uğurunu əks etdirirlər. Bu prosesin parlaq nümunəsi Qarabağdır, Türkiyədir, İraqdır, Suriyadır.

Ancaq terrorla mübarizədə türk strategiyasının dönüş nöqtəsi Qarabağ oldu! Qarabağ savaşları həm ayrıca Azərbaycanın terrorla mübarizəsinin tarixi nümunəsidir, həm də o, bütövlükdə terrorla mübarizənin türk strategiyasının nüvəsidir! Bu anlamda “hər şey Qarabağdan başladı!”, – deyə bilərik!

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Azərbaycan regional güc mərkəzinə çevrilib

**(əvvəli 1-ci səhifədə)**

Bu dayanıqlı inkişaf ölkəmizin regional və qlobal səviyyədə etibarlı tərəfdaş kimi tanınmasına səbəb olub. Azərbaycanın böyük maliyyə resursları və strateji coğrafi mövqeyi ölkəmizin enerji təhlükəsizliyinin təminatında əvəzolunmaz amilə çevirib. Bu isə Bakının beynəlxalq və regional əməkdaşlıqda fəal iştirakına, habelə qlobal layihələrin uğurla həyata keçirilməsinə şərait yaradıb.

Azərbaycanın artan siyasi nüfuzu və iqtisadi gücü isə ona Cənubi Qafqaz və ətraf regionların iqtisadi və siyasi mənzərəsini dəyişdirə biləcək iri layihələrin təşəbbüskarı olmaq imkanı verir. Bu layihələr ölkəmizi “qlobal oyunçu” statusuna yüksəldib, regionda proseslərin inkişaf vektorunu müəyyənləşdirən qüvvəyə çevirib. Bakının beynəlxalq seçkilərdəki uğurları da məhz bu siyasi və iqtisadi gücün təzahürüdür.




Azərbaycanın ən əhəmiyyətli uğurlarından biri isə 2025–2029-cu illər üçün BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) İcraiyyə Şurasına üzv seçilməsi oldu. Bu, Azərbaycanın şəhərsalma, infrastruktur və ekoloji planlaşdırma sahəsində əldə etdiyi uğurların beynəlxalq səviyyədə yüksək qiymətləndirilməsi deməkdir. Həmçinin, bu seçki Azərbaycanın davamlı şəhər inkişafı və “yaşıl” gələcək konsepsiyasına verdiyi töhfələri təsdiqləyir. Bakı şəhəri ağıllı şəhər və yaşıl şəhər konsepsiyalarının tətbiqində əhəmiyyətli irəliləyişlərə nail olub. Zəngilan, Cəbrayıl və Füzuli kimi işğaldan azad olunmuş bölgələrdə ağıllı infrastruktur modellərinin qurulması, “sıfır tullantı” prinsipi ilə şəhərlərin yenidən qurulması və müasir ekoloji yaşayış məkanlarının yaradılması Azərbaycanın bu sahədə liderliyini nümayiş etdirir. İcraiyyə Şurasında ölkəmizin dayanıqlı urbanizasiya ilə bağlı qlobal siyasətlərin formalaşmasında iştirak edəcək, innovativ təcrübə mübadiləsində fəal rol oynayacaq.

Azərbaycanın beynəlxalq seçkilərdə qazandığı ikinci uğur 2025–2029-cu illər üçün BMT-nin Turizmin İcraiyyə Şurasına üzv seçilməsidir. Bu, ölkəmizin turizm sahəsində qlobal qərarların qəbulunda iştirak etməsi və mədəni-təbii potensialını dünya ictimaiyyətinə təqdim etməsi üçün geniş imkanlar açır.

Xatırladaq ki, Azərbaycanın turizm sektoru ölkə iqtisadiyyatının prioritet sahələrindən biridir. “2016–2026-cı illər üçün Strateji Yol Xəritəsi” çərçivəsində aparılan islahatlar, beynəlxalq hava əlaqələrinin genişləndirilməsi, ASAN Viza sistemi və “Made in Azerbaijan” turizm brendinin yaradılması ölkənin turizm imicini əhəmiyyətli dərəcədə gücləndirib. Həmçinin, beynəlxalq idman və mədəniyyət tədbirlərinin təşkili turizmin inkişafına təkan verib.

Azərbaycan artıq turizmin, sadəcə, istehlakçısı deyil, həm də qlobal turizm siyasətinin formalaşmasında fəal iştirak edən ölkədir. İşğaldan azad olunmuş Qarabağ bölgəsinin turizm marşrutlarına daxil edilməsi, burada mədəni, dini və ekoturizm obyektlərinin bərpası və inkişafı ölkənin bu sahədə strateji inkişafının öncüllüyünü nümayiş etdirir.

Azərbaycanın UNESCO-nun Mədəni Özünüifadə Müxtəlifliyinin Qorunması və Təşviqi üzrə Komitəsinə üzv seçilməsi isə ölkəmizin zəngin mədəni irsinin beynəlxalq səviyyədə tanınması və qorunması istiqamətində atdığı sistemli addımların nəticəsidir. UNESCO-nun 2003-cü ildə qəbul etdiyi “Mədəni Özünüifadə Müxtəlifliyinin Qorunması və Təşviqi” Konvensiyası 150-dən çox ölkə tərəfindən ratifikasiya olunub. Azərbaycanın bu komitədə təmsil olunması bu mühüm beynəlxalq platformada söz sahibi olmaq deməkdir.

Hazırda ölkəmizdə çox sayda etnik qrup dinc yanaşı yaşayır. Multikulturalizm konsepsiyası dövlət siyasətinin prioritetlərindən biridir. Yada salaq ki, UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına Azərbaycanın 14-dən çox nümunəsi daxil edilib, o cümlədən “Muğam” (2008), “Azərbaycan Xalçası” (2010), “Novruz” (2009) və “Qobustan Qaya Sənətləri” (2007) kimi unikal mədəniyyət elementləri beynəlxalq aləmdə tanınır. Qarabağ və Şərqi Zəngəzurda tarixi-mədəni irsin bərpası işləri ilə bağlı ölkəmiz bir sıra regional və beynəlxalq layihələrə rəhbərlik edir.

Azərbaycanın 2026–2029-cu illər üçün BMT-nin Əməkçi Miqrantlar üzrə Komitəsinə üzv seçilməsi isə ölkəmizin miqrasiya siyasətindəki uğurlarını və əmək hüquqlarının qorunması sahəsində beynəlxalq səviyyədə qazandığı etimadı göstərir. Rəsmi Bakı işçi miqrantların sosial müdafiəsini gücləndirmək məqsədilə inteqrasiya proqramları və hüquqi maarifləndirmə kampaniyaları həyata keçirir. Eyni zamanda, ölkə beynəlxalq əməkdaşlıq çərçivəsində təhlükəsiz və qanuni miqrasiya marşrutlarının təşviqinə xüsusi diqqət ayırır. Bu da beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilir.

Azərbaycan beynəlxalq müstəvidə daha 2 mühüm nailiyyət əldə edib. Ölkəmiz BMT-nin Ətraf Mühit Proqramının (UNEP) Daimi Nümayəndələr Komitəsinə sədrlik hüququ qazanıb və eyni zamanda Azərbaycan nümayəndəsi Beynəlxalq Mülki Müdafiə Təşkilatının (ICPD) Baş Katibi vəzifəsinə seçilib. Bu mühüm uğurlar, Azərbaycanın qlobal ekoloji və humanitar siyasətdə artan nüfuzunun bariz göstəricisidir.

Onu da qeyd edək ki, UNEP-in əsas qərarverici orqanlarından birinə sədrlik, Azərbaycanın beynəlxalq iqlim siyasətində təşəbbüskar mövqeyini gücləndirir. Ölkəmiz artıq COP29 kimi mötəbər tədbirə ev sahibliyi etməklə qlobal yaşıl gündəliyin mərkəzində yer alır. Qarabağ və Şərqi Zəngəzurda “yaşıl enerji zonası” modelinin tətbiqi, bərpa olunan enerji layihələrinin genişləndirilməsi, karbon emissiyalarının azaldılmasına yönəlik tədbirlər Azərbaycanın ekodiplomatiyada sistemli yanaşma nümayiş etdirdiyini göstərir. UNEP çərçivəsindəki bu sədrlik Azərbaycana ətraf mühitin qorunması sahəsində qlobal qərarların formalaşdırılmasına rəhbərlik etmək, inkişaf etməkdə olan ölkələrə texniki və bilik dəstəyi göstərmək, yaşıl maliyyələşmə və təmiz texnologiyalar üzrə tərəfdaşlıq platformaları yaratmaq imkanı verir.

Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş Katibi vəzifəsinə Azərbaycan nümayəndəsinin seçilməsi ölkəmizin fövqəladə hallar, humanitar yardım və mülki müdafiə sahəsində artan beynəlxalq nüfuzunun sübutudur. Azərbaycan bu sahədə mərkəzləşdirilmiş cavab sistemləri qurub, təlim və texniki infrastruktur formalaşdırıb, bir sıra ölkələrə – Türkiyə, Pakistan, Ukrayna və digər dövlətlərə – yardım göstərməklə humanitar həmrəylik nümayiş etdirib. Bu vəzifə ölkəmizə qlobal səviyyədə humanitar təhlükəsizlik siyasətinə rəhbərlik etmək, böhranlara qarşı texniki və operativ müdaxiləni koordinasiya etmək, regionda humanitar mərkəz kimi rolunu gücləndirmək imkanı qazandırır.

Bu nailiyyətlər Azərbaycanın diplomatik fəaliyyətinin sistemliliyini, xarici siyasətinin strateji yanaşmaya əsaslandığını və beynəlxalq platformalarda təşəbbüskar aktora çevrildiyini təsdiqləyir. Azərbaycan yalnız müşahidəçi deyil, qlobal proseslərin formalaşdırılmasında aktiv iştirak edən, beynəlxalq hüququn prinsiplərinə sadiq və məsuliyyətli tərəfdaş kimi qəbul edilir. Bütün bu uğurlar ölkəmizin beynəlxalq siyasi arxitekturadakı yerinin daha da möhkəmləndiyini aydın şəkildə nümayiş etdirir. Bu, təkcə diplomatik uğur deyil, həm də Azərbaycanın dünya miqyasında artan rolunun və etibarlı tərəfdaş kimi qəbul olunmasının təzahürüdür.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Azərbaycan BMT hesabatında rəqəmsal ticarət lideridir

## *Bu, beynəlxalq təşkilatın qlobal araşdırmasında əksini tapıb*

**Asiya – Sakit Okean regionunda 2023–2025-ci illərdə həyata keçirilən xarici ticarət islahatlarının nəticələrinə əsasən, Azərbaycan bu il ticarətin asanlaşdırılmasını əhatə edən 5 istiqamətin orta göstəricisi üzrə 92,5 faiz səviyyəsində yüksək nəticə göstərərək Avrasiya regionunda ilk onluqda qərarlaşıb.**



İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin şöbə müdiri Nicat Hacızadə bildirib ki, Azərbaycan ticarətin asanlaşdırılmasına daxil olan şəffaflıq, formal prosedurlar, institusional əməkdaşlıq və koordinasiya indikatorları üzrə 100 faiz, kağızsız ticarət üzrə 92,59 faiz, sərhədlərarası kağızsız ticarət üzrə 72,2 faiz effektivlik nümayiş etdirərək olduqca yüksək nəticəyə nail olub.

BMT-nin 2025-ci il üzrə "Rəqəmsal və davamlı ticarətin asanlaşdırılması üzrə qlobal tədqiqatı"nda Azərbaycan şəffaflıq göstəricisi üzrə 2015-ci illə müqayisədə 53,3 faiz, formal prosedurlar üzrə 50 faiz, 2023-cü illə müqayisədə 8,3 faiz, institusional əməkdaşlıq və koordinasiya göstəricisi üzrə 2015-ci illə müqayisədə 33,3 faiz, 2023-cü ilə nəzərən 11,1 faiz, kağızsız ticarət üzrə 2015-ci illə müqayisədə 37 faiz, 2023-cü illə müqayisədə 3,7 faiz, sərhədlərarası kağızsız ticarət üzrə 2015-ci illə müqayisədə 50 faiz və nəhayət, 2023-cü ilə nəzərən isə 5,6 faiz bənd irəliləyib. Bütövlükdə, tədqiqat, Azərbaycanın sözügedən göstəricilər üzrə 2015-ci ildən 2025-ci ilə qədər yalnız davamlı olaraq icra faizlərini artırdığını nümayiş etdirib.

Azərbaycan sözügedən tədqiqatda yüksək nəticə əldə etməklə Asiya – Sakit okean zonasında yerləşən əksər ölkələri qabaqlayaraq icra performansına görə 7-ci mövqedə, habelə tədqiqatın regional təsnifatlaşmasında yer alan Şimal və Mərkəzi Asiya, o cümlədən dənizlərə çıxışı olmayan inkişaf etməkdə olan ölkələr arasında 1-ci mövqedə qərarlaşıb.

Eyni zamanda, Azərbaycan üzv olduğu bir sıra nüfuzlu beynəlxalq təşkilatlar çərçivəsində də liderdir. Belə ki, sözügedən tədqiqat çərçivəsində ölkəmiz İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı, Müstəqil Dövlətlər Birliyi, İqtisadi Əməkdaşlıq Təşkilatı, D-8 İqtisadi Əməkdaşlıq təşkilatına üzv ölkələr arasında lider mövqeyindədir. Bundan əlavə, Azərbaycan Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi üzərində yerləşən dövlətlər arasında Çin Xalq Respublikasından sonra 2-ci mövqedə qərarlaşıb.

Bu nailiyyətin əldə edilməsində əsas amillər xarici ticarət əməliyyatları zamanı prosedurların elektron qaydada olması və izlənilə bilməsi, bütün idxal – ixrac qaydalarının, tariflərin, prosedurların və sənədlərin onlayn olaraq rəsmi sayt və ya portalda dərc edilməsi, yeni ticarət qaydaları və ya gömrük prosedurlarına dəyişiklik edilərkən iş adamları, biznes assosiasiyaları və digər maraqlı tərəflərlə müzakirələr aparılması, yeni və ya dəyişdirilmiş ticarət qaydaları qüvvəyə minməzdən əvvəl sahibkarlara rəsmi bildirişlə məlumat verilməsidir. Bununla yanaşı, idxaldan əvvəl sahibkarların gömrükdən məhsulun tarif dərəcəsi və mənşə haqqında rəsmi yazılı qərar ala bilməsini özündə ehtiva edən şəffaflıq indikatoru üzrə Azərbaycanın 100 faiz nəticə əldə etməsi son illər xarici ticarətin liberallaşdırılması istiqamətində atılan addımlar, habelə gömrük prosedurlarının elektronlaşması istiqamətində həyata keçirilən islahatların effektiv kommunikasiyası ilə əlaqədardır.

Qlobal sorğunun ikinci bəndində yer alan formal prosedurlar mahiyyət etibarı ilə gündəlik sahibkarlıq subyektlərinin qarşılaşdığı klassik gömrük prosedurlarıdır. Bura malların riskəsaslı yoxlanılması, mallar ölkəyə çatmamışdan əvvəl gömrük bəyannamələrinin təqdim edilməsi və ilkin yoxlanılması, rəsmiləşmə və rüsumların yekun hesablanması, sadələşdirilmiş gömrük prosedurları, təcili və prioritet mallar üçün sürətli gömrük rəsmiləşməsi və s. aiddir. Bu istiqamətdə Azərbaycanın 100 faiz nəticəyə nail olması gömrük yoxlanılması, sərhəd-buraxılış məntəqələrində malların sürətli keçidi, müfəttiş – sahibkar münasibətlərinin daha da yaxşılaşdırılması istiqamətində aparılan məqsədyönlü islahat tədbirlərinin nəticəsidir.

Üçüncü bəndə "İnstitusional mexanizmlər və əməkdaşlıq" daxildir ki, bu da hökumətin ticarətə məsul səlahiyyətli institutlarının xarici ticarət iştirakçılarının davamlı və fasiləsiz fəaliyyətini stimullaşdırmaq məqsədilə idarəetmə çərçivəsinin keyfiyyətini əhatə edir. Ticarətin asanlaşdırılması üzrə milli komitə yaradılması, gömrük və sərhəd qurumlarının əməkdaşlığı üçün qanunvericilik çərçivəsi, iş günləri və saatlarının, gömrük qaydalarının qonşu ölkələrlə uyğunlaşdırılması kimi alt tədbirlər daha çox Dövlət Gömrük Komitəsinin qanunvericilik əsasında həyata keçirdiyi icraatları özündə əks etdirir.

Kağızsız ticarət üzrə Azərbaycanın mövqeyi 2015-ci illə müqayisədə 37,03 faiz irəliləyərək 92,6 faiz səviyyəsinə çatıb. Buna səbəb gömrük inzibatçılığı sahəsində, o cümlədən xarici ticarət prosedurlarında iştirak edən dövlət xidmətlərinin elektronlaşması, fiziki müraciətlərin minimuma endirilməsi və s. tədbirləri qeyd etmək mümkündür. Sözügedən indicator üzrə qlobal sorğunun çərçivəsinə Avtomatlaşdırılmış Gömrük Sistemi, gömrük və sərhəd xidmətlərinin internet vasitəsilə məlumat paylaşması və əməliyyatları, gömrük və sərhəd prosedurlarının vahid elektron portal üzərindən icrası, gömrük bəyannamələrinin elektron formada təqdim edilməsi, idxal-ixrac icazələrinin elektron alınması, eləcədə göndərilməsi daxildir.

Sonuncu istiqamətə isə "Sərhədlərarası kağızsız ticarət" indikatoru daxildir ki, bura elektron əməliyyatlar üçün qanun və normativ baza, elektron imza və təsdiq üçün hüquqi çərçivə, gömrük bəyannamələrinin elektron şəkildə başqa ölkələrlə qarşılıqlı paylaşılması, mənşə sertifikatı, sanitar və fitosanitar sertifikatların (yəni ərzaq və bitki mallarının icazələri) başqa ölkələrin gömrüyü ilə elektron paylaşılması daxildir.

Sözügedən tədqiqat Ümumdünya Ticarət Təşkilatının "Ticarətin asanlaşdırılması Sazişi"ndə nəzərdə tutulan, "Asiya və Sakit Okean regionunda sərhədlərarası kağızsız ticarətin asanlaşdırılması Çərçivə Sazişi", eləcə də digər kağızsız ticarət və ya elektron ticarətlə bağlı inkişaf edən regional və qlobal təşəbbüsləri özündə ehtiva edir.

"Azexport.az" portalının rəhbəri Ayxan Qədəşov bildirib ki, BMT-nin 2025-ci il üzrə "Rəqəmsal və davamlı ticarətin asanlaşdırılması üzrə qlobal tədqiqatı"nda Azərbaycanın lider mövqedə tanınmasını "Azexport" tərəfindən son illərdə həyata keçirilmiş rəqəmsal həllərin, o cümlədən "Virtual sərgi zalı", rəqəmsal sertifikatlaşdırma imkanları və "Alibaba", "Amazon" kimi qlobal elektron ticarət platformaları ilə inteqrasiya proseslərinin praktik nəticəsi kimi də qiymətləndirmək olar.

Xatırladaq ki, "Azexport.az" portalı dünyanın 150-dən artıq ölkəsindən 50 minə yaxın sifariş qəbul edərək, ixrac coğrafiyasını genişləndirib və "Made in Azerbaijan" məhsullarının beynəlxalq rəqəmsal platformalarda tanınmasını 2500 dəfə artırıb. Portalın fəaliyyəti bundan əvvəl də Avropa İttifaqının "EU4Digital" təşəbbüsü, "Alibaba" platforması, Türk Dövlətləri Təşkilatı və Birləşmiş Millətlər Təşkilatının müxtəlif rəsmi sənədlərində yüksək qiymətləndirilib, nümunəvi təcrübə kimi öyrənilməsi və digər ölkələrdə tətbiq olunması tövsiyə edilib.

# Ölkəmizdə Çinin 300-dək şirkəti fəaliyyət göstərir

## *Əməkdaşlıq strateji yöndə inkişaf edir*



**İqtisadiyyat naziri Mikayıl Cabbarov X hesabında etdiyi paylaşımda Çin Xalq Respublikasının ölkəmizdəki səfiri xanım Lu Mey ilə görüşməyin xoş olduğunu, ölkələrimiz arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini məmnunluqla vurğulayıb. Nazir paylaşımda, eyni zamanda, görüşdə iqtisadi əməkdaşlığın gündəliyində olan məsələlərin nəzərdən keçirildiyini, ticarət, sənaye, investisiya, enerji, nəqliyyat və rəqəmsal iqtisadiyyat sahəsində birgə fəaliyyətin perspektivlərinin qeyd olunduğunu bildirib.**

Qeyd edək ki, bu gün Azərbaycan – Çin münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi ticari – iqtisadi əlaqələrin inkişafına geniş imkanlar açır. Təbii ki, belə bir şəraitin davamlı şəkildə formalaşmasına iki ölkə arasında sərmayələrin təşviqi və qorunması, habelə ikiqat vergitutmanın qarşısının alınması üzrə imzalanan bir sıra sazişlər, həmçinin texniki-iqtisadi əməkdaşlığa dair sənədlər mühüm önəm daşıyır.

Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri olan Çinlə ölkəmiz arasında son illərdə səmərəli investisiya əməkdaşlığı həyata keçirilib. Respublikamızda Çin investisiyalı 300-ə yaxın şirkət qeydə alınıb. Bundan başqa, Azərbaycanın işğaldan azad edilən ərazilərində icra olunan infrastruktur layihələrində Çin şirkətlərinin fəaliyyəti getdikcə genişlənib. Məsələn, "Huawei" şirkəti tərəfindən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında "ağıllı kənd" və "ağıllı şəhər" təşəbbüslərinin gerçəkləşməsində müəyyən uğurlar əldə edilib.

Çin Azərbaycanın dördüncü ən böyük ticarət tərəfdaşıdır. Ölkəmizin bu dövlətlə ticarət dövriyyəsi davamlı olaraq artır. Çin şirkətləri respublikamızda sənaye, enerji, infrastruktur, informasiya texnologiyaları, ticarət, kənd təsərrüfatı və digər sahələrdə fəaliyyət göstərirlər. Onların ölkəmizə böyük marağı təsadüfi deyil. Çünki son illər ərzində Azərbaycan resursdan asılı iqtisadiyyatdan innovasiyaya, sahibkarlıq və biliyə əsaslanan sənaye iqtisadiyyatına keçidi uğurla gerçəkləşdirib. Tətbiq edilən vergi və kredit güzəştləri, hökumət təşəbbüsləri ilə dəstəklənən əlverişli investisiya mühiti və dövlət – özəl sektor tərəfdaşlığının genişləndirilməsi diqqətdə saxlanılıb.

# Ələt Azad İqtisadi Zonası Yaponiya sərgisində



**Ələt Azad İqtisadi Zonasının Səlahiyyətli Qurumunun nümayəndə heyəti Asiyanın aparıcı sənaye sərgilərindən biri olan "Manufacturing World Tokyo 2025"də – Yaponiyanın Makuhari Messe sərgi mərkəzində iştirak edib. Səlahiyyətli Qurumun nümayəndə heyəti Yaponiya, Koreya Respublikası, Çin, Hindistan və digər ölkələrdən olan şirkətlərlə görüşlər keçirib.**

Görüşlər zamanı nümayəndə heyəti azad zonada investisiya imkanları, o cümlədən mükəmməl qanunvericilik bazası, maliyyə və qeyri-maliyyə güzəştlər paketi, strateji coğrafi mövqe və istifadəyə hazır sənaye torpaq sahələri barədə ətraflı məlumat təqdim edib. Aparılmış müzakirələr məhsuldar olub və emal sənayesi və digər strateji sahələrdə mümkün əməkdaşlıq perspektivləri yaradıb.

Xatırladaq ki, Ələt Azad İqtisadi Zonası Qafqaz regionunun ən böyük azad iqtisadi zonasıdır və əsas beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yaxınlığında yerləşir. Azad zona, eyni zamanda, multimodal logistika imkanlarından yararlanır və hazırda inkişaf mərhələsində olan yük hava limanı sayəsində nəqliyyat və logistika potensialını əhəmiyyətli dərəcədə gücləndirəcək.

Səlahiyyətli Qurum beynəlxalq tərəfdaşlarla əlaqələri genişləndirməyə davam edir və yüksək əlavə dəyərli, ixracyönümlü istehsalatla məşğul olan şirkətləri yeni və perspektivli bazarlara çıxış üçün təqdim olunan imkanlarla tanışlığa dəvət edir.

# KOB evlərində sahibkarlara 260 min xidmət göstərilib

**Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən (KOBİA) aldığımız məlumata görə, 2025-ci il ilin yanvar–iyun aylarında KOB evlərində sahibkarlara 260 min xidmət göstərilib. Bu xidmətlərin 170 mini "Bakı KOB evi"ndə, 54 mini "Yevlax KOB evi"ndə, 36 mini isə "Xaçmaz KOB evi" və onun Xudat şəhərindəki xidmət mərkəzində həyata keçirilib. KOB evlərində göstərilən xidmətlərdən sahibkarların məmnunluq səviyyəsi isə 98 faiz olub.**

Xidmətlərin 232 mini dövlət təşkilatları ("G2B"), 24 mini isə biznes qurumları ("B2B") tərəfindən göstərilib. Sahibkarlar KOB evlərinə daha çox yükdaşımaları həyata keçirmək üçün icazə blankı, fərqlənmə nişanı, mənşə sertifikatı, fiziki şəxsin vergi uçotuna alınması, vergi, gömrük, kommunal xidmətlər və s. üçün müraciət ediblər.




Qeyd edək ki, KOB evləri sahibkarlara operativlik, şəffaflıq və vətəndaş məmnunluğu prinsipləri əsasında biznes xidmətlərinin göstərildiyi vahid məkandır. Hazırda KOB evlərində biznesin qeydiyyatından başlayraq, inkişaf etdirilməsinə qədər olan bütün zəruri xidmətlər, o cümlədən biznesin qeydiyyatı, lisenziya, icazə və digər sənədlərin alınması, vergi və gömrük məsələləri, güzəştli maliyyə vəsaitlərinə çıxış, kommunal xidmətlərə qoşulma, bank, sığorta, notariat və digər xidmətlər göstərilir.

Ümumilikdə, Bakı, Xaçmaz və Yevlax KOB evlərində sahibkarlara 50-yə yaxın dövlət və özəl qurum tərəfindən sahibkarlıq fəaliyyəti üçün zəruri olan 400-dən çox "G2B" və "B2B" xidmətlər göstərilir. KOB evləri Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin strukturuna daxildir.

# I yarımildə 11,6 milyon ton neft ixrac edilib

**Energetika Nazirliyinin məlumatına görə, cari ilin I yarısında Azərbaycanda 13,7 milyon ton neft (kondensatla birlikdə) hasil edilib. Məhsulun 8 milyon tonu "Azəri-Çıraq-Günəşli" yataqlarından, 1,9 milyon tonu (kondensat) "Şahdəniz" yatağından, 0,3 milyon tonu (kondensat) "Abşeron" yatağından çıxarılıb. Azərbaycan Dövlət Neft Şirkəti üzrə neft (kondensatla birlikdə) hasilatı 3,5 milyon ton olub.**



Bu dövrdə 11,6 milyon ton neft (kondensatla birlikdə) ixraca yönəldilib. Bunun 9,9 milyon tonu konsorsiumların, 1,4 milyon tonu Dövlət Neft Şirkətinin, 0,3 milyon tonu isə "Abşeron" yatağının payına düşüb. 6 ay ərzində xam neft hasilatı orta hesabla gündəlik 61,9 min ton (457 min barrel), kondensat hasilatı 13,7 min ton (113 min barrel) təşkil edib. Ümumilikdə neft hasilatı orta hesabla gündəlik 75,6 min ton (570 min barrel) olub. Hesabat dövründə neftin emalı 2,9 milyon ton təşkil edib.

"Azəri-Çıraq-Günəşli"dən bu il iyulun 1-dək 609,5 milyon ton neft, 236,5 milyard kubmetr qaz çıxarılıb, 658,1 milyon ton neft ixraca yönəldilib.

Bu dövrdə ölkədə 25,2 milyard kubmetr təbii qaz hasil edilib. Bunun 6,6 milyard kubmetri "Azəri-Çıraq-Günəşli" yataqlarının, 13,8 milyard kubmetri "Şahdəniz" yatağının, 0,8 milyard kubmetri "Abşeron" yatağının, 4 milyard kubmetrə yaxını isə Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) payına düşüb. Bu dövrdə xaricə qaz satışı 12,1 milyard kubmetr təşkil edib. Bundan 6,1 milyard kubmetr Avropaya, 4,9 milyard kubmetr Türkiyəyə (o cümlədən TANAP-la 2,9 milyard kubmetr), 1,1 milyard kubmetr Gürcüstana satılıb.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

*İzimiz, tariximiz*

# Baburilərin gəlini olmuş daha bir Səfəvi şahzadəsi – Dilras Banu Bəyim



Bibi Ka məqbərəsi

### VI YAZI

***Hindistanda Şah I İsmayılın soyundan olan Səfəvi şahzadəsi Dilras Banu Bəyimin həyatı, fəaliyyəti, o dövrün hadisələri ilə bağlı elmi və bədii əsərlər, şeirlər yazılıb, filmlər çəkilib.***

***Hindistan yazıçıları, şairləri və ssenariçilərinin maraq göstərdikləri Şahzadə Dilras Banu Bəyim Qucaratın naibi, Səfəvi şahzadəsi Bədiüzzaman Mirzə Səfəvinin (Şahnəvaz xan) qızı, Şahzadə Muhiddinin (Gələcəkdə Sultan Övrəngzib (Aləmgir) əsas xanımı, Sultan Şahcahanın və Ərcümənd Banu Bəyimin (Mümtaz Mahal) gəlini, imperatriçə...***

***Səfəvi şahzadəsi Bədiüzzaman Mirzə Səfəvi bu sülalədən ilk şah olan Şah I İsmayılın soyundandır.***



Dilras Banu Bəyim

Dilras Banu Bəyim hind yazıçısı Ruçir Quptanın 2014-cü ildə çap edilən "Taxtın sevgilisi" tarixi romanının baş qəhrəmanıdır, 2016-cı ildə N.S. İnamdar və Vikrant Pande tərəfindən yazılan "Şahənşah: Övrəngzibin həyatı" romanının əsas qəhrəmanıdır.

Dilras Banu Bəyim 2018-ci ildə Medha Deşmukh Bhaskaran tərəfindən qələmə alınan "Sərhədlər: Övrəngzib və Şivaci arasında amansız döyüş" romanının əsas qəhrəmanlarından biridir. 2020-ci ildə hind rejissoru Karan Coharın çəkdiyi "Taxt" epik filmində Dilras Banu Bəyim obrazını Alia Bhatt canlandırıb.

**Səfəvi şahzadəsi Dilras Banu Bəyim** 1622-ci il oktyabrın 8-də Aqra şəhərində Səfəvi şahzadəsi Bədiüzzaman Mirzə Səfəvinin ailəsində anadan olub. Böyük Moğol (Baburi) şahzadəsi Muhiddinin (Övrəngzib) Dilras Banu Bəyimlə nişanlanması 1637-ci ilin fevral ayında Aqra şəhərində baş turub. Sultan Şahcahanın arzusu ilə oğlu Şahzadə Muhiddin bu təklifi qəbul edib, Dilras Banu Bəyimin və atasının da razılığı alındıqdan sonra gənclərin nişan mərasimi keçirilib.

Dilras Banu Bəyimin anası Nauras Banu Bəyim Mirzə Məhəmməd Şərif adlı hörmətli bir kişinin qızı, atası isə İmperator Cahangirin hakimiyyəti dövründə şöhrət qazanmış Mirzə Rüstəm Səfəvinin oğlu idi. 1638-ci ildə Dilrasın kiçik bacısı Səkinə Banu Bəyim Sultan Övrəngzibin kiçik qardaşı Şahzadə Murad Bəxşlə evlənib. Bədiüzzaman Mirzə Səfəvinin (Şahnavaz xan) qardaşı qızı Övrəngzibin böyük qardaşı Şahzadə Şah Şuca ilə ailə qurmuşdu. Bu evliliklər imperator ailəsi ilə Şahnəvaz xanın ailəsi, ümumilikdə isə Moğollarla Səfəvilər sülaləsi arasındakı əlaqələrin daha da güclənməsinə səbəb olmuşdu.

## Toya hazırlıq başlanır

1637-ci il mayın 8-də Şahzadə Muhiddinlə Dilras Banu Bəyimin təntənəli toy məclisi Bədiüzzaman Mirzə Səfəvinin malikanəsində keçirilir. İmperatorun saray münəccimlərinin qərarına əsasən gənclərin nikah mərasimi sübhdən dörd saat əvvəl təmtəraqlı və möhtəşəm şənliklə başlanır. Sultan Şahcahanın və Mümtaz Mahalın, əyanların, əmirlərin və fəxri qonaqların iştirakı ilə gənclərin nigahı kəsilir. Mənbələrdə bildirilir ki, nigahın mehri kimi 400 min rupi müəyyən olunub.

Toyun əzəməti salnaməçi Xafi Xan tərəfindən belə təsvir edilib:

"Atəşfəşanlıq yer üzünü başqa bir səmaya çevirdi və müğənnilərin,

rəqqasların cazibəsi hətta Veneranın paxıllığına səbəb ola bilərdi".

Toy mərasimindən sonra vəlimə adlanan mərasim isə Şahzadə Muhiddinin atası Sultan Şahcahanın sarayında keçirilib. Mayın 14-də baş tutan bu mərasimdə Sultan Şahcahan öz əmirlərinə, əyanlara və digər qonaqlara hədiyyələr paylayıb.

Gənclər İmperator ilə birlikdə üç ay Aqra şəhərində qalır, cütlük 1637-ci il sentyabrın 4-də Şahzadə Muhiddinin canişin kimi xidmət etdiyi Dekana gedirlər. 1638-ci il fevralın 15-də Dövlətabadda cütlüyün ilk övladı-gələcəkdə istedadlı şair kimi tanınan Zebun Nisə dünyaya gəlib. Zebun Nisə atası Şahzadə Muhiddinin ən sevimli qızı olub. Bundan sonra onların daha dörd övladı dünyaya gəlib.

Dilras Banu Bəyim Şahzadə Muhiddinin birinci arvadı olduğundan onun üzərində təsir qüvvəsi var idi, əri tərəfindən Padşah Bəyim titulu da almışdı və birinci arvad kimi hərəmxananı idarə edirdi.

Diras Banu Bəyim sarayda sünni və şiə üləmanın iştirakı ilə müxtəlif görüşlər keçirib və bu məclislərə qızı Şahzadə Zebun Nisə də qatılıb. Övrəngzib imperator olduqdan sonra qızına belə məclislərdə iştirak etməməyi tapşırıb.

Tarixçi Maqan Lala görə, Zebun Nisə Bəyim atasının bu tapşırığına əməl edib. Ümumilikdə Səfəvi şiələri Övrəngzibin hakimiyyəti illərində güclənib, hətta Səfəvilərin Moğollara təsiri bundan əvvəl indi olduğu qədər güclü olmayıb. Səfəvilərdən çoxlu qabiliyyətli sərkərdə çıxıb və Övrəngzibin hərbi əməliyyatlarına rəhbərlik edib.

Hərəmxanada olan qadınlardan ikisi Övrəngzibə 4 övlad bəxş etsə də onlar hökmdardan təcrid olunmuş şəkildə yaşayıb. Birinci xanım statusu ancaq Diras Banu Bəyimə aid idi.

## Dilras Banu Bəyim dünyadan köçür

Diras Banu Bəyimlə Övrəngzibin evliliyinin 20-ci ilində onların beşinci övladı doğulub.



Dilrasın böyük oğlu Əzəm şah atasının yanında-soldakı uşaq

Dilras Banu Bəyim 1657-ci il sentyabrın 11-də beşinci övladı Məhəmməd Əkbəri dünyaya gətirdikdən təxminəm bir ay sonra-oktyabrın 8-də bədəninə infeksiya düşməsi ilə bağlı həyatını itirib. Dilras Banu Bəyimin ölümündən sonra Övrəngzibin səhhəti pisləşir, ailənin böyük oğlu Əzəm Şah depressiyaya düşür. Şahzadə Məhəmməd Əkbəri böyük bacısı Şahzadə Zebun Nisə böyüdüb. Məhəmməd Əkbər atasının da sevimli oğlu olub, onunla daha çox vaxt keçirib.

**Övladları:**

**Şahzadə Zebun Nisə Bəyim** 1638-ci il fevralın 15-də anadan olub, 26 may 1702-ci il mayın 26-da ailə qurmadan 64 yaşında həbsxanada vəfat edib. Məşhur şairə və atasının sevimlisi olub, mənbələrin məlumatıma görə, şeirləri qalıb. Müəyyən səbəblərə görə ömrünün son 20 ilini həbsdə keçirib.

**Şahzadə Zinətun Nisə Bəyim** 1643-cü il oktyabrın 5-də anadan olub, 1721-ci il mayın 7-də dünyasını dəyişib. Ailə qurmayıb.

**Şahzadə Zubdatun Nisə Bəyim** 1651-ci il sentyabrın 2-də anadan olub, 1707-ci il fevralın 17-də vəfat edib. Əmisi Dara Şükuhun oğlu Şahzadə Sifir Şükuhla evlənib və övladı olub.

**Şahzadə Məhəmməd Əzəm Şah** 1653-ci il iyunun 28-də doğulub, 1707-ci il iyunun 8-də dünyasını dəyişib. Atası Sultan Övrəngzib ölüm ayağında Məhəmməd Əzəm Şahı vəliəhd elan edib, Əzəm Şah qısa müddət imperator olub, ögey qardaşı Müəzzəm tərəfindən devrilib. Əmisi Dara Şükuhun qızı Şahzadə Cahanzeb Banu ilə evli olub. Məhəmməd Əzəm Şah və oğlu Bidar Bəxt döyüşdə öldürülüb.

**Şahzadə Sultan Məhəmməd Əkbər** 1657-ci il sentyabrın 11-də anadan olub. Dara Şükuhun nəvəsi ilə evlənib. Atası Övrəngzibə qarşı uğursuz üsyan qaldırıb, bundan sonra Maratha kralının sarayına, daha sonra isə Səfəvi imperiyasına sığınıb. 1706-ci il martın 31-də Məşhəd şəhərində vəfat edib və orada dəfn olunub.

## Sultan Övrəngzib (Aləmgir) taxta çıxır

Dilras Banu Bəyimin ölümündən bir il sonra Sultan Şahcahanın və Mümtaz Mahalın üçüncü oğlu Şahzadə Muhiddin Sultan Övrəngzib (Aləmgir) adı ilə 1658-ci ildə Böyük Moğol İmperiyasının (Baburilər dövləti) VI imperatoru kimi taxta çıxır.

Sultan Övrəngzib taxta çıxdıqdan sonra Diras Banu Bəyimin dəfn edilməsi üçün Övrəngabadda xüsusi olaraq Bibi Ka məqbərəsinin tikintisini əmr edir.

Məsələ burasındadır ki, Sultan Övrəngzib təxminən yarım əsrlik hakimiyyəti dövründə Dehlidə cəmi bir memarlıq abidəsi-Dehlidəki Padşah Məscidini tikdirib. 1660-cı ildə Dilras Banu Bəyimin məzarı Bibi Ka məqbərəsinə ("Xanımım məzarı") köçürülür və Rabia-ud-Davroni-"Dövrünün Rəbiyəsi" titulu ilə dəfn olunur. Bu titul Diras Banu Bəyimə Bəsrəli Rəbiyənin şərəfinə verilib. Belə ki, Bəsrəli Rəbiyə eramızın 9-cu əsrində yaşayıb və qatı dindar olduğuna görə övliya sayılır.

Diras Banu Bəyimin şərəfinə ucaldılan Bibi Ka məqbərəsinin tikintisinə Sultan Övrəngzibin göstərişi ilə oğlu Əzəm Şah nəzarət edib.

Bibi Ka məqbərəsi görünüşü və memarlığı baxımından Sultan Övrəngzibin anası,



Dilras Banu Bəyim və Övrəngzibin toyu

Dilrasın qayınanası Mümtaz Mahalın dəfn edildiyi məşhur Tac Mahalın heyrətamiz dərəcədə oxşarıdır.

Əslində, tikintiyə başlayanda da qarşıya belə məqsəd qoyulmuşdu, Tac Mahala bənzəyən bir abidə tikmək...

Məqbərə Dekan bölgəsində olduğundan Bibi Ka Məqbərəsini Dekan Tacı və Mini Tac da adlandırırlar. Diras Banu Bəyimin xatirəsinə tikilən bu abidə Övrəngzibin "evlilik sədaqəti"nin simvolu hesab olunur.

Bibi Ka Məqbərəsi Şahzadə Əzəm Şahın babası, Moğol imperatoru Şahcahan tərəfindən həyat yoldaşı Mümtaz Mahalın xatirəsinə Aqrada inşa etdiyi məşhur Tac Mahalın eyni, bu məqbərəyə rəqib olacaq bir abidə olmalı idi. Təəssüf ki, xəzinədə kifayət qədər vəsaitin olmaması, həmçinin ixtisaslı işçi qüvvəsinin çatışmazlığı səbəbindən tam Tac Mahal yox, oxşarı yaranır. Buna baxmayaraq, Bibi Ka Məbqərəsi Moğol üslubunda salınan bağın mərkəzində tikilməsi, mürəkkəb dizaynı, şəbəkə işləmələri, heyrətamiz strukturu və gözəl mənzərəsi ilə memarlıq möcüzəsi kimi meydana çıxıb.

Bəzən Bibi Ka Məqbərəsinə "Kasıb Tac" deyilsə də Məqbərənin çoxlu göllər, fəvvarələr və su kanalları ilə əhatə olunan bağda salınması abidəyə gözəllik verir. Məqbərənin hər küncündə Şərq üslubunda minarə ucalması da abidəni xüsusən baxımlı edir.

Onu da deyək ki, Bibi Ka Məqbərəsi o dövrdə 700 min, Tac Mahal təxminən 32 milyon rupiyə başa gəlib.

Bibi Ka Məqbərəsi Övrəngzib tərəfindən tikilən ikinci böyük abidədir. Dediyimiz kimi, Sultan Övrəngzibin Dehlidə tikdirdiyi birinci böyük abidə Padşah Məscididir (Mirvari Məsçid də deyilir).

Bibi Ka məqbərəsi Övrəngabadın şimal-qərbində, Sultan Övrəngzibin məqbərəsindən bir neçə kilometr aralıda yerləşir. Məqbərənin 1651-1661-ci illərdə tikildiyi bildirilir. Bəzi mənbələrdə məqbərənin 1668-1669-cu illərdə tikildiyi qeyd edilir.

Məqbərənin əsas giriş qapısında tapılan kitabədə bu məqbərənin memar Ataullah və mühəndis Hanspat Rai tərəfindən layihələşdirildiyi və onların rəhbərliyi ilə tikildiyi qeyd olunur. Ataullah Tac Mahalın baş ustası və dizayneri Usta Əhməd Lahaurinin oğlu idi.

Beləcə təxminən 355 il əvvəl Səfəvi Şahzadəsi Dilras Banu Bəyimin şərəfinə tikilən, hər il milyonlarla adamın ziyarət etdiyi Bibi Ka məqbərəsi öz cazibədarlığını, gözəlliyini min illər sonra da saxlayacaq.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan müxbiri***

**Daşkənd**

# “Kaspi” qəzeti necə milliləşmişdi?

## Həsən bəy Zərdabi “Əkinçi” yolunu burada davam etdirmişdi

**Rusiya imperiyasının Quzey Azərbaycanı işğal etməsindən sonrakı yarım əsrdən uzun müddətdə – 1875-ci ildə “Əkinçi”nin nəşrinədək ölkəmizdə anadilli qəzet olmadığından rus dilində yazıb-oxumağı bacaran azsaylı ziyalılarımız Qafqazda hakim xalqın dilində çap olunan mətbuatda çıxış etməli olmuşlar. Bu baxımdan Tiflisdə buraxılan “Kavkaz” qəzetində Azərbaycan həyatı ilə bağlı, eləcə də maarifçi ziyalılarımızın qələmindən çıxmış xeyli yazı işıq üzü görmüşdür.**

1881-ci ildən Bakıda nəşr edilən “Kaspi” qəzetini 1898-ci ildən isə Hacı Zeynalabdin Tağıyevin satın alıb redaktorluğunu Həsən bəy Zərdabinin kürəkəni Əlimərdan bəy Topçubaşova, ona peşəkar himayədarlığı isə Həsən bəyin özünə etibar etmişdi. Bundan sonra “Kaspi” 1919-cu ilədək Azərbaycan həyatının rus dilində davamlı və əhatəli güzgüsünə çevrilmişdi. İlk 17 ildə bu qəzetin yad-yabançı yaradıcı heyəti və auditoriyası formalaşmışdı. Onların maraqları Bakının milli mühitindən, yerli tələbatından, Azərbaycan xalqının gerçək həyatından uzaq olmuşdu. Bu daha çox onun əvvəlki redaktorlarının qeyri-azərbaycanlılar olması ilə bağlı idi.

Bu zaman qəzetdə Azərbaycan tarixi və mədəniyyəti haqqında nadir hallarda materiallar dərc olunur, azərbaycanlılar isə “tuzemsı” – yerli əhali və ya “tatar” adlandırılırdı. 1891-ci ildə “Kaspi” qəzetinin müvəqqəti redaktoru olmuş Məhəmməd ağa Şahtaxtlı bir məqaləsində azərbaycanlılar üçün mühüm əhəmiyyət kəsb edən bu məsələyə “Zaqafqaziya müsəlmanları necə adlandırılmalı?” başlığı altında cavab axtarmışdı.

Müəllif rusları yerli əhalini düzgün çağırmağa çalışmışdı: “Zaqafqaziya müsəlmanlarına ad vermək istəyərkən son zamanlar Qafqazda onları rus dilində “tatar” adlandırmağa başladılar. Bu yeniliyi heç cür uğurlu hesab etmək olmaz, belə ki, dil, görkəm, adət, xasiyyət baxımından Zaqafqaziya türkləri ilə daxili quberniya tatarları arasında böyük fərq var. Zaqafqaziya müsəlmanlarının danışdığı dil osmanlı, səlcuq, Azərbaycan dialektlərinə bölünən türk qrupuna aiddir. Zaqafqaziya müsəlmanları, əlbəttə, heç fars da deyillər. Bu xalqlar dillərinə görə bir-birindən seçilirlər, türk və fars dilləri ciddi surətdə fərqlidirlər. Zaqafqaziya müsəlmanlarını azərbaycanlı, onların danışıq dilini isə Azərbaycan dili çağırmaq daha düzgün olardı”.

“Kaspi” Qafqazda və Rusiyada kifayət qədər nüfuz qazanmış qəzet idi. XIX əsrin 90-cı illərində Rusiyada ümumdemokratik tendensiyaların fəallaşdığı zaman Bakıda demokratik ruhlu azərbaycanlı yazıçı-publisistlərin böyük qismi ana dilində mətbuat olmadığından “Kaspi” qəzeti ətrafında birləşmişdilər. Qəzetin redaksiya kollegiyasına A.Mahmudbəyov, N.Nərimanov, M.Sidqi, M.Şahtaxtlı daxil idilər. Həsən bəy Zərdabi hələ Zərdabda yaşadığı 16 ildə qəzetlə sıx əlaqələr qurmuşdu. Qəzet “azərbaycanlaşandan” sonra isə onun nəşrinə fəal müəllif və redaktor kimi milli yön vermişdi.

Milli folklor toplayıcısı Teymur bəy Bayraməlibəyov qəzet səhifələrində xalq yaradıcılığı nümunələri dərc etdirirdi. O, Şah Abbas və digər padşahlar haqqında yazdığı esselərdə Şərq hökmdarlarının yaxşı əməllərindən və nöqsanlarından söz açır, oxucuların diqqətini onların qalibiyyət yürüşləri ilə yanaşı, uğursuz döyüşlərinə də cəlb edirdi. T.Bayraməlibəyov və digər müəlliflər “Kaspi” qəzetinin səhifələrində mütəmadi çıxış edə bilmirdilər. Onları narahat edən məsələlər çox zaman redaksiya rəhbərliyini maraqlandırmırdı. Yalnız Zeynalabdin Tağıyev və Həsən bəy Zərdabi “Kaspi” və onun nəşriyyatını “milliləşdirəndən” sonra redaksiyanın yeniləşmiş heyəti qəzetin ictimai-siyasi xəttini yerli maraqlara yönəltdi.

Əlimərdan bəy Topçubaşovun “Kaspi” qəzetinə baş redaktor təyin edilməsi təsadüfi deyildi. O, vicdanlı hüquqşünas və səmərəli vəkil kimi şöhrət qazanmışdı. “Kavkaz” qəzeti ilə əməkdaşlıq etmiş savadlı jurnalist, qərəzsiz hüquqşünas idi. Sonrakı illərdə Rusiya Dövlət Dumasının yaranması və fəaliyyəti illərində Ə.Topçubaşov bütün Rusiya müsəlmanları arasında ən məşhur ictimai-siyasi xadimə çevrilmişdi. Bu illərdə Qafqazdan tutmuş Volqaboyu müsəlmanları onu “bizim Topçubaşov” adlandırırdı.

“Kaspi” qəzetinin 1898-ci ilin 24 iyun tarixli sayında Ə.Topçubaşov “Redaktordan” sərlövhəsi altında proqram xarakterli məqaləsində mətbuatın cəmiyyətlə qarşılıqlı əlaqəsini belə göstərirdi: “Cəmiyyət mədəni mənada nə qədər inkişaf edərsə, ictimai rəyin idealı və sözçüsü olan mətbuatın təsiri bir o qədər güclü olar”. Ə.Topçubaşov müsəlmanların Rusiyada acı taleyi, dini etiqadlarına görə hüquqlarının pozulması, həmçinin, azərbaycanlıların ermənilər tərəfindən sıxışdırılması haqqında siyasi məqalələr çap etdirdi.

Ə.Topçubaşovun redaktor olduğu dövrdə qəzetin ən görkəmli və məhsuldar müəllifi məşhur publisist Əhməd bəy Ağaoğlu idi. O, Sorbonna Universitetini bitirdikdən sonra doğma Qarabağa qayıdıb və Şuşa real məktəbində fransız dili müəllimi kimi fəaliyyət göstərirdi. İlahiyyat, filologiya və hüquq elmləri sahəsində dərin biliyi olan Ə.Ağaoğlu Fransada yaşadığı illərdə Paris nəşrlərində çap olunur, kübar dairələrdə tanınır, görkəmli alim və ictimai xadimlərlə əlaqələr qurmağa müvəffəq olmuşdu.

Lakin 1894-cü ildə atasının qəfil vəfatından sonra Ə.Ağaoğlu doğma yurda dönmək məcburiyyətində qalmışdı. O, Parisdə parlaq elmi karyeradan imtina edərək, özünü xalqına xidmətə, maarifçilik fəaliyyətinə həsr etmək qərarına gəlmişdi. Əhməd bəy Şuşada qiraətxana açmışdı, müəllim işləmişdi, “Kavkaz” və “Kaspi” qəzetlərinin redaksiyalarına məqalələr yazmışdı.



ИЗДАТЕЛЬСТВО Г. З. А. ТАГІЕВА

ОТКРЫТА ПОДПИСКА НА 1913 ГОДЪ

НА ЕЖЕДНЕВНУЮ, ОБЩЕСТВЕННО-ЛИТЕРАТУРНУЮ И ПОЛИТИЧЕСКУЮ ГАЗЕТУ

„Каспій“

(XXXIII годъ изданія)

“Kaspi”nin redaktoru təyin olunan Ə.Topçubaşov onu dərhal işə dəvət etdi. Azərbaycan “Kaspi”sinin 24 iyun 1898-ci il ilk sayında Ə.Ağaoğlu kəskin məqalə ilə çıxış edərək, Rusiya imperiyasını öz əyalətlərini unutmaqda, orada yaşayan xalqların problemləri ilə maraqlanmamaqda ittiham edib. O yazırdı ki, əyalət əhalisinin “qayğısına qalmaq dövlət adamlarının və rus mətbuatının ümdə vəzifəsidir”.

Birinci rus inqilabı ərəfəsində “Kaspi” qəzeti siyasi istiqamətdə xüsusilə fəallaşmışdı, hər sayında müsəlmanların Peterburqa ünvanladıqları ərizələrini dərc edir, əsas mahiyyətini oxuculara izah eləməyə çalışırdı: “Budur, bu vaxta qədər görünməyən səhnənin şahidiyik – Rusiyanın müsəlman əhalisinin yaşadığı bütün yerlərdə nümayəndəliklər təşkil olunur, ona görə yox ki, hansısa qəza və ya başqa pristava mədhnamə təqdim edilsin, bu və ya digər qəza rəisinə onun müdrik rəhbərliyi altında və ataliq qayğısı nəticəsində firavan həyat üçün minnətdarlıq bildirilsin. Əsla yox! Onlar Peterburqda imzalanan Ümidverici Ali Reskriptdən ruhlanıb müvafiq idarə və dairələrdə öz ehtiyac və tələbatları haqqında danışmaq, özlərinə Rusiya vətəndaşı hüququnu əldə etmək... hüquq və vəzifələrlə bölüşmək haqqını əldə etmək üçün paytaxta üz tutublar”.

Həmin dövrdə Ə.Topçubaşov da müsəlmanları narahat edən problemlərdən yazır, Rusiyada müsəlmanların hüquqlarının pozulmasında qanunvericiliyə, idarəyə, hətta məhkəməyə belə nüfuz etmiş dini baxışın müstəsna səbəb olduğunu ön plana çəkirdi: “Rusiya müsəlmanlarına qarşı bir növ səlib yürüşü rolunu alan bu baxış yüz illər boyu müsəlmanların başına yağan bütün pisliklərin mənbəyi idi”.

O dövrdə Azərbaycan ziyalılarını narahat edən mühüm məsələlərdən biri milli mətbuatın inkişafının ləng getməsi idi. Ə.Ağaoğlu “Şərqdə jurnalistikanın icmalı” və “Tatar-Azərbaycan dilində qəzetin zəruriliyi haqqında” adlı məqalələrində Misir, Osmanlı imperiyası, İran və Azərbaycanda mətbuatın inkişaf meyillərini tədqiq edir və Şərq xalqlarına xas mədəniyyət, temperament, əlifba məsələlərini araşdırır. O yazırdı ki, dövri mətbuat, xüsusilə gündəlik jurnalistika, icrada çeviklik və cəldlik, işdə dəqiqlik və səliqəlik tələb edir: “Bu keyfiyyətlər isə Şərqin süst təbiəti ilə bir araya sığmır”.

Ə.Ağaoğlu geriliyin daha bir səbəbini göstərirdi. Bu, çap işinə yaramayan əlifba idi: “Nəfislik baxımından gözəl olan əlifba saitlər olmadığından oxucuya çətinlik yaradır, onların əvəzində samitlərin altında ya üstündə nöqtə və ya tire qoyulur, bu isə öz növbəsində çap dəzgahının işini ağırlaşdırır”. Ə.Ağaoğlu qəzetin səhifələrində publisistika ilə yanaşı, bədii əsərlər də nəşr etdirmişdi.

“Kaspi” qəzetinin məzmununu milli maraqların ifadəsi baxımından təhlil etdikdə aşağıdakı nəticələrə gəlmək olar. 40 ilə yaxın nəşr edilən qəzet ilk illərdə rusdilli olması ilə bərabər, həm də rusdüşüncəli idisə, onu xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev aldıqdan sonra yeni redaksiya XIX əsrin sonu – XX əsrin ilk iki onilliyində Azərbaycan ictimai-siyasi və ədəbi fikrinin inkişafının milli mövqelərdən işıqlandırmışdı. “Kaspi” qəzetinin səhifələrində dövrün qabaqcıl milli ziyalılarının, demək olar ki, bütün nümayəndələri çıxış etmişdilər.

Həmin illərdə “Kaspi”nin səhifələrində Əli bəy Hüseynzadənin də imzasına rast gəlinir. O, bəzi hallarda məqalələrini “Təbib” təxəllüsü ilə imzalayırdı. İxtisasca həkim olan ədib araşdırılan dövrdə əhaliyə böyük bəlalar gətirən vəba haqqında bir neçə məqalə yazmışdı. “Kaspi” səhifələrində Ə.Hüseynzadənin ictimai-siyasi mövzularda yazıları da işıq üzü görmüşdü. O, oxucuları Osmanlı imperiyasında yeni yaranan siyasi meyillər – “gənc türklər” hərəkatı ilə tanış etmişdi.

1904-1905-ci illərdə “Kaspi”lə əməkdaşlığa başlayan Üzeyir Hacıbəyli Cəbrayıl və Şuşa qəzalarında qəzetin müxbiri omuşdu. O, bu qəzalardan hazırladığı materiallarda Cəbrayıl qəzasında ipəkçiliyin inkişafından, Zəngəzur və Cavad qəzalarında tuğyan edən vəbadan, Qarabulaq və Cəbrayılda talan və oğurluqlardan, Şuşa qəzasının Tuğ kəndində ermənilərlə azərbaycanlıların toqquşmaları və s. haqda xəbərlər yazmışdı.

“Kaspi” qəzetində bir neçə məqaləsi dərc edilmiş Azərbaycan ədəbiyyatı və dilinin yorulmaz təbliğatçısı Firidun bəy Köçərlinin adını çəkməmək mümkün deyil. Bunların sırasında Azərbaycan ədəbiyyatı tarixinə, böyük şair və siyasi xadim Molla Pənah Vaqifin yaradıcılığına həsr olunmuş məqalələri qeyd etmək lazımdır.

“Kaspi” qəzetinin yarandığı dövr Rusiyada islahatların əleyhinə və milli ucqar ərazilərin sürətli ruslaşmasına yönələn III Aleksandrın hakimiyyəti illərinə təsadüf etmişdi. Məhz bu səbəbdən qəzet 1898-ci ilə kimi yerli əhaliyə yabancı idi. M.A.Şahtaxtlının qısamüddətli qeyri-rəsmi redaktorluğu istisna olmaqla, onun maraq və ehtiyaclarına cavab vermirdi. Yalnız 1898-ci ildən qəzetin rus dilində çıxmasına baxmayaraq, onun rusdüşüncəli nəşrdən azərbaycanlıların milli qəzetinə trasformasiyası prosesi başlamışdı. “Kaspi”nin yeni sahibi H.Tağıyev, redaktoru Ə.Topçubaşov və mənəvi himayəçisi H.Zərdabi qəzetin istiqamətini əsaslı sürətdə dəyişərək, ona milli ruh vermişdilər.

*Lalə HACIYEVA,*
*filologiya üzrə fəlsəfə doktoru*

# Milli mətbuatımız və qadın hüquqları

**Dünya qadın hərəkatı tarixində mühüm mərhələlərdən biri 1901–1917-ci illəri əhatə edir. Bu dövrdə Avropada, Rusiyada, daha sonra isə Şərqdə maarifçilik ideyalarının təsiri ilə qadın hərəkatı genişləndi, onların təhsil almaq uğrunda mübarizələri gücləndi.**

Dünya ictimaiyyətinin diqqəti qadınların təhsilə cəlb edilməsi üçün məktəblərin açılması və bu işə hamilik köməyi göstərilməsi istiqamətində təşəbbüslərin artırılması məsələlərinə yönəldi. Həmin illərdə Azərbaycan ziyalıları da cəmiyyətdə qadın hüquqlarının müdafiəsinə qalxdılar və mövzunu ictimailəşdirmək üçün məsələni mətbuatın gündəminə çıxardılar, Azərbaycanda qadın hərəkatı ideologiyasının işlənib hazırlanmasında mühüm rol oynadılar.

Bu dövrdə cəmiyyətin fanatik düşüncəsi qız uşaqlarının müxtəlif şəhər və ölkələrə təhsil almaq üçün getməsi yolunda maneəyə çevrilmişdi. Ona görə də qızlar bir qayda olaraq ibtidai təhsildən yuxarı qalxa bilmirdilər. 1901-ci ildə Hacı Zeynalabdin Tağıyevin təşəbbüskarlığı və maddi vəsaiti ilə Bakıda qız məktəbinin fəaliyyətə başlaması qadınlar arasında təhsilin genişlənməsi, ictimai həyatda onların daha tez-tez nəzərə çarpmaları kimi hallar ictimai rəyə təsirin ən güclü vasitəsi olan mətbuatın bu yönümdə apardığı işlərin də uğurlu nəticələrindən biridir.

XX əsrin ilk illərində Azərbaycan qadınlarının mühüm problemlərindən birinin – təhsil almaq imkanının məhdudluğu ilə bağlı məsələlərin mətbuatda səslənməsində Əhməd bəy Ağayevin böyük rolu olmuşdur. Müsəlman qadının təhsilə cəlb olunmasının vacibliyi ilə bağlı “Həyat” qəzetinin dərc etdiyi oxucu məktubları mühüm əhəmiyyətə malikdir. Qəzetin redaktorlarından biri olan Əhməd bəy Ağayev qadın intibahı tərəfdarı idi və bu barədə öz düşüncələrini 1901-ci ildə “Kavkazski vestnik” jurnalında nəşr etdirdiyi “İslam dinində və islam aləmində qadın” əsərində ifadə etmişdi. Əsər çox tez məşhurlaşmışdı və dövrün tərəqqipərvər ziyalıları tərəfindən təqdir olunmuşdu.

Ə. Ağayev “Həyat”, “İrşad”, “Tərəqqi” – “Proqress” qəzetlərində redaktorluq fəaliyyəti zamanı xeyriyyə cəmiyyətləri, mədəni-maarif ocaqları yaratmaq və qızlarımızı təhsilə cəlb etmək üçün ciddi səylər göstərmişdir. Əhməd bəy Ağayevin Bakıda nəşr etdirdiyi “Tərəqqi” qəzeti qadınları birliyə çağırır, ictimai rəyi qadınların öz problemlərini təşkilatlar vasitəsilə birləşərək həll edə biləcəklərinin vacibliyinə yönəldirdi. Bu sahədə Osmanlı qadınlarının fəaliyyətindən nümunə götürməyi məsləhət görən qəzet “Osmanlı qadınları”, “Müsəlman xanımlarının ittifaqı”, “Xatunlar ictimai”, “Xanımlar arasında Osmanlı tərəqqipərvər cəmiyyəti” sərlövhəli yazılarında belə cəmiyyətlərin proqramlarını da dərc etməklə azərbaycanlı qadınları bu sahədə işlər görməyə istiqamətləndirirdi.

Çar Rusiyasının senzura idarələri milli dildə çıxan qəzetləri tez-tez bağlasa da, ziyalılarımız onları başqa adlar altında yenidən dirçəldirdilər. Əhməd bəy Ağayev söz demək, qəzet çıxarmaq, xalqın siyasi-mənəvi hüquqları uğrunda mübarizə aparmaq, qəzet vasitəsilə hökumət və cəmiyyət qarşısında mühüm məsələlər qoya bilmək üçün mətbu tribunanı əldə saxlamağa çalışırdı. Ə.Ağayevin sonralar nəşr etdiyi “Tərəqqi” qəzeti də öz sələfinin ideyasını davam etdirərək “Qızlar ana olacaqlar. Səd heyif ki, oxumağın vacib olduğunu hər kəs bilmir” sərlövhəli məqaləsində valideynlərin öz qız övladlarına qarşı mərhəmətsiz davranmaları, onların hissiz, şəfqətsiz buraxıldıqları və bələliklə, fəlakətə sürükləndiklərini diqqətə çatdırırdı.

Qəzetin “Hacı Zeynalabdin cənabları və onun qız məktəbi” sərlövhəli məqaləsində məktəb binaları inşa etmək üçün digər “sərvət və hümmət sahiblərinə” Hacı Zeynalabdin Tağıyevi tək buraxmamaq tövsiyə edilirdi.

“Həyat” qəzetində Sankt-Peterburq, Sibir və Kazanda yaşayan müsəlman qızların onlara təhsil verilməsi ilə bağlı tələbləri əks olunurdu. Zeynəb Əhmədova adlı bir qızın “Rusiyadan bir müsəlman qızından gələn bir kağızdır” sərlövhəsi altında dərc edilən məktubunda qızların “millət islahatçıları”na qarşı ittihamları səslənirdi: “Millətimizdə tərbiyəyi-ətfal (uşaq tərbiyəsi – A.Q.) yox hökmündə olsa da, ər oğlanların da tərbiyəli olmasına, təlimləri haqqında da bəhslər açılıb islahına çalışılır. Amma, gələcəkdə millətin də anaları olacaq biz zavallı qızcığazlar xüsusunda bir məqalə, ya bir məsələ açılmadı”.



Müəllif “millətin kiçik xəstəliklərinə əlac arayan millət doktorlarını” qınayır və onların bu mövzuda susmalarını xalqa xəyanət saydığına görə əlinə qələm aldığını bildirirdi: “Amma, əfəndilər! Bu nə hüquqsuzluq, insaniyyət, ədalət, həqaniyyət, bilməm. Nələr deyə bağırıb-çığırırsınız. Sonra da mənim nə səbəbə həqqimi ayaqlar altına çəkib üzürsünüz? İnsaf, əfəndilər! Bizim haqqımız yoxdu?.. Bizim hal-hazırımıza siz məsul deyilmisiniz?”.

Zeynəb Əhmədovanın məktubuna cavab olaraq Qədriyyə xanım adlı bir qız Sibirdən göndərdiyi məktubda təhsil və tərbiyə məsələlərində müsəlman xanımlarının geridə qaldıqlarından şikayətlənirdi. “Kazanlı bir xanımdan”, “Tatar xanımlarından” başlıqlı məktublar da eyni məzmunu ifadə edirdi. Məktubların sayının artdığından fərəhlənən Qədriyyə xanım “Həyat”a göndərdiyi “İslam qızları” sərlövhəli ikinci məktubunda yazırdı: “Tatar (azərbaycanlı – A.Q) qızları dəxi qələmi ələ aldılar. Qızlar tərbiyəsi məsələsini meydana qoydular”. O, İstanbul ünas məktəbində qızların islam adətlərinə müvafiq tərbiyə olunduğundan bəhs edirdi: “Hicab rəf olunmamalıdır. Hicab həqiqət, hicab şəridir (şəriətə müvafiqdir – A.Q)”. Müəllif İslamın qayda-qanunlarında qızların təhsil və tərbiyə görmələrinin heç bir maneə təşkil etmədiyini vurğulayırdı.

Maarifçilik hərəkatının təsiri ilə XX yüzilliyin ilk illərindən məktəblər açılması, oğlanlarla birlikdə qızların da təhsilə cəlb olunmasını ictimai şüura çatdıran ziyalılarımız qadına cəmiyyətin tamhüquqlu üzvü kimi baxır, onun təhsil alması, sosial həyata qovuşması kimi məsələlər qaldırırdılar. Qadın hüquqları uğrunda mübarizə Azərbaycan milli mətbuatının sonrakı dövrdə də davam etdirilib bugünümüzə çatdırılan sivil və demokratik ənənələrindən biri kimi öyünc doğurur.

*AMALYA QASIMOVA,*
*tarix üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

İlyas Babayev – 90

# Qədim Qəbələnin yeraltı dünyasının bələdçisi

**Bugünlərdə Azərbaycanın elmi-mədəni ictimaiyyəti görkəmli arxeoloq, AMEA-nın müxbir üzvü, professor İlyas Babayevin yubileyini onun ruhuna dərin hörmət, elmi irsinə yüksək qiymət duyğu-düşüncələri ilə qeyd edir.**

Ötən həftə AMEA-da sevimli müəllimimizin xatirəsinə həsr olunmuş "Antik dövrdə Qafqaz və ətrafında urbanizasiya prosesləri" mövzusunda ikigünlük beynəlxalq elmi konfransda çıxış edən çoxsaylı yetirmələri və xarici ölkə mütəxəssisləri qeyd etdilər ki, ömrünü milli arxeologiyanın inkişafına, ölkəmizin yeraltı xəzinəsinin dünya elminə təqdim edilməsinə həsr etmiş fədakar alimin tədqiqatları zaman tanımır və bu gün üçün də önəmlidir. AMEA prezidenti akademik İsa Həbibbəyli, Arxeologiya və Antropologiya İnstitutunun direktoru, dosent Fərhad Quliyev, digər natiqlər bildirdilər ki, o, Azərbaycanda elmi məktəb yaratmış alim kimi mənalı ömrünü bütünlüklə tarix elminə və arxeoloji fəaliyyətə həsr edib. Onun tədqiqatları zəngin tariximizi və mədəniyyətimizi dünyaya göstərir.



Azərbaycan arxeoloqlarının ağsaqqalı, sadə, səmimi və çalışqan insan olan İlyas Babayev artıq 8 ildir ki, aramızda yoxdur. Hər dəfə komanda halında səfərlərdə, elmi ezamiyyətlərdə, xüsusən də arxeoloji qazıntılarda olarkən necə zəhmətsevər, həssas, qayğıkeş ziyalı olduğunu göstərərdi. Geniş diapazonlu mütaliəsi, xüsusən də antik mənbələri orijinaldan oxuyaraq incəliklərinə qədər bilməsi hər kəsdə heyranlıq doğurardı. Bəzən bu barədə saatlarla, yorulmadan danışardı. Elə bu keyfiyyətinə görə arxeoloq həmkarları onu "Azərbaycanın Böyük Pilinisi" – deyə çağırardılar. Arxeoloji tədqiqatlar üçün yetərincə təminat olmadığı, çöl tədqiqat işləri zamanı arxeoloqların ən adi ehtiyaclarının belə ödənilmədiyi o illərdə universitetin tarix fakültəsini fərqlənmə diplomu ilə bitirmiş bir gənc üçün ömrünü bütünlüklə bu işə sərf edərək Vətənin tarixini öyrənmək və yazmaq, həqiqətən, qibtə olunmalı bir nümunədir.

İlyas Babayev 1935-ci ildə Quba rayonunun Xanagah kəndində anadan olub. Azərbaycan Dövlət Universitetinin (indiki BDU) tarix fakültəsini fərqlənmə diplomu ilə bitirib. Hələ tələbəlik illərindən qədim dillərə və tarixin müxtəlif sahələrinə böyük maraq göstərib. Elə bu maraq onu Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutuna gətirib. 1969-cu ildə tanınmış arxeoloq Saleh Qazıyevin rəhbərliyi ilə yaradılan Qəbələ arxeoloji ekspedisiyasında çöl tədqiqatlarına başlayan İlyas Babayev ömrünün sonuna qədər Qafqaz Albaniyası tarixinin və mədəniyyətinin tədqiqi ilə məşğul olub. Gənc arxeoloq elmi tədqiqatını davam etdirmək məqsədilə 1962-ci ildə Leninqrada (indiki Sankt-Peterburq) gedib. Orada aspiranturada oxuduğu illərdə dissertasiya işi ilə bağlı tədqiqatlarla yanaşı, qədim yunan dilini öyrənməklə də məşğul olub. 3 il aspiranturada təhsil alan gənc tarixçi 1965-ci ildə "Azərbaycanın antik və orta əsrlər dövrü qliptika abidələri" mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə edib.

Xatırladaq ki, o zaman Azərbaycanda qliptika və sfragistika üzrə mütəxəssis yox idi. Respublikanın müxtəlif yerlərində aparılan arxeoloji qazıntılar zamanı əldə olunan müxtəlif qiymətli daşlardan, şüşədən, pastadan və keramikadan hazırlanmış qliptika abidələri öyrənilməmiş qalırdı. İlyas Babayevin tədqiqatları əsasında müəyyən olunub ki, əksəriyyəti möhür kimi istifadə edilən bu abidələrin cəmiyyətdə əmlak bərabərsizliyinin sinifli cəmiyyətin və dövlətin, habelə iqtisadi-ticari və mədəni əlaqələrin öyrənilməsində mühüm əhəmiyyəti olub.

Artıq tanınmış arxeoloq kimi özünü təsdiq etmiş İlyas Babayev 1983-cü ildə SSRİ EA Arxeologiya İnstitutunda "Qafqaz Albaniyasının şəhərləri" (e.ə. IV–III əsrlər) mövzusunda doktorluq dissertasiyası müdafiə edib. Bilavasitə onun Qəbələdə apardığı arxeoloji tədqiqatlar nəticəsində Azərbaycanın antik şəhərlərinin plan quruluşunu, daxili strukturunu, ticarət və sənətkarlığın inkişaf səviyyəsini, yerli əhalinin dəfn adətlərini, bir sözlə, şəhər əhalisinin məşğuliyyətini və dünyagörüşünü öyrənmək baxımından son dərəcə zəngin material əldə olunub. 1990-cı ildə doktorluq dissertasiyası əsasında tamamlayaraq nəşr etdirdiyi eyni adlı monoqrafiyasında ilk dəfə məhz o, Azərbaycan ərazisində sinifli cəmiyyətin, qədim Azərbaycan dövləti olan Albaniyanın paytaxt şəhəri Qəbələdə aparmış olduğu davamlı elmi axtarışların nəticəsi kimi, şəhərlərin, dövlətin yaranması, sənətkarlıq, beynəlxalq ticarət əlaqələri, sikkə zərbi və s. problemlərin geniş təhlilini verib.

Professor İlyas Babayev 1987-ci ildən ömrünün sonunadək AMEA Arxeolgiya və Etnoqrafiya İnstitutu antik dövr arxeologiyası şöbəsinin müdiri vəzifəsində çalışıb. Onun uzun illər ərzində rəhbərlik etdiyi Qəbələ arxeoloji ekspedisiyası artıq xeyli vaxtdır ki, beynəlxalq statusda çalışır. Son illər ekspedisiyanın apardığı qazıntılarda Cənubi Koreya Respublikasından olan arxeoloqlar da iştirak edirlər.

Dünyada tanınan alim İlyas Babayevin rəhbərlik etdiyi, Almaniya və Gürcüstan arxeoloqlarının da qatıldığı II beynəlxalq ekspedisiya Şəmkir – Qaracəmirli arxeoloji ekspedisiyasıdır. Bu ekspedisiya Kür çayının sağ sahilində e.ə. V–IV əsrlərə aid şəhər tipli yaşayış yerində böyük sarayın və onun ətrafında digər ictimai binaların qalıqlarını aşkar etmişdir. Sarayın əsas binası, hasarlı həyəti və propleyası (giriş binası) 20 hektara yaxın ərazini əhatə edir. İlyas Babayevin fikrincə, bu abidə çox güman ki, həmin əsrlərdə bütünlükdə Cənubi Qafqazı əhatə etmiş mühüm inzibati mərkəzin qalıqlarıdır.

Arxeoloq kadrlarının hazırlanmasında da İlyas müəllimin xüsusi xidmətləri olub. Onun rəhbərliyi ilə neçə-neçə gənc dissertasiya müdafiə edərək alimlik dərəcəsi alıb. Alim 270-dən artıq elmi əsərin müəllifidir. O, dəfələrlə dünyanın müxtəlif şəhərlərində keçirilən beynəlxalq elmi konqres, simpozium və konfranslarda maraqlı məruzələrlə çıxış edib.

AMEA-nın müxbir üzvü İlyas Babayev bir çox ali və orta məktəb dərsliklərinin, həmçinin çoxcildlik "Azərbaycan tarixi"nin I və II cildlərinin, "Azərbaycan ensiklopediyası"nın və "Naxçıvan Ensiklopediyası"nın müəlliflərindəndir. O, Azərbaycanın müxtəlif universitetlərində "Arxeologiya", "Qədim Şərq tarixi", "Antik dünya tarixi", "Tarixə köməkçi fənlər", "Azərbaycan tarixi", "Qədim dünya tarixinin aktual problemləri", "İbtidai icma tarixi", "Tarixi antropologiya" və s. fənlər üzrə mühazirələr oxuyub.



2007-ci ildə AMEA-nın müxbir üzvü seçilən İlyas Babayev 2001–2011-ci illərdə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tarix üzrə Ekspert Şurasının üzvü, 2011–2012-ci illərdə isə həmin komissiyanın sədri olub. Görkəmli alim, nəcib və xeyirxah insan İlyas Babayev 2017-ci il dekabrın 27-də 82 yaşında dünyasını dəyişib.

Nə az, nə çox – düz 50 il Qəbələdə – antik şəhər yerində tədqiqat aparmış İlyas Babayev ömrünün son 15 ilində şəhərin müxtəlif dövrünü və müxtəlif problemlərini öyrənən bir neçə arxeoloji dəstəni özündə birləşdirən Qəbələ arxeoloji ekspedisiyasının rəhbəri olub. Beləliklə o, özünün bütün şüurlu ömrünü Azərbaycanın qədim paytaxt şəhəri olmuş Qəbələnin tədqiqinə həsr edib. Görkəmli arxeoloqun elmi irsini yaratdığı məktəb uğurla davam etdirir, əziz xatirəsi ürəklərdə yaşayır.

***Qafar CƏBİYEV,***
***AMEA Arxeologiya və Antropologiya İnstitutunun şöbə müdiri, professor, Qəbələ arxeoloji ekspedisiyasının rəhbəri***

# Vaqif Poeziya Günləri Gəncədə






**Xəbər verdiyimiz kimi, Qazaxdan sonra Vaqif Poeziya Günləri şairlər-şairlər, dahi Nizaminin vətəni Gəncədə davam etdirilib.**

Mir Cəlal Paşayevin ev-muzeyində təşkil olunan tədbiri Azərbaycan Yazıçılar Birliyinin (AYB) yaradıcılıq məsələləri üzrə katibi şair, yazıçı – kinodramaturq İlqar Fəhmi açdı. O AYB sədri, Xalq yazıçısı Anarın salamlarını çatdıraraq dedi ki, Vaqif Poeziya Günlərinin qədim Gəncədə böyük coşqu ilə davam etdirilməsi bir daha şeirə, sözə, sənətə verilən dəyərin ölçüsüdür. İndi xalqımız Vaqif Poeziya günlərini daha böyük qürurla keçirir. Əzəli torpaqlarımız işğalçılardan təmizləndikdən sonra şanlı ənənəsi olan Vaqif poeziya bayramı da, nəhayət, bərpa edilib.

Azərbaycan Yazıçılar Birliyi Gəncə bölməsinin rəhbəri, Əməkdar mədəniyyət işçisi, şair-dramaturq Xəzangül Hüseynova qeyd etdi ki, Vaqif Poeziya günlərinin bir ünvanının da Gəncə olması bizi hədsiz sevindirir. Gəncənin tarixən poeziya ocağı olmasının sübuta ehtiyacı yoxdur. Tək Nizami Gəncəvi yetər ki, deyək: "Gəncə şairlər vətənidir!" Vaqif Poeziya Günlərinin bərpa olunması, ənənənin davam etdirilməsi bizim Şuşa nisgilimizə son qoymağımızın bir növ poetik ifadəsidir.

Sonra Gəncədə yaşayan yazıçı və şairlərə, alimlərə, ziyalılara söz verildi. "Gəncənin səsi" qəzetinin redaktoru, yazıçı-jurnalist Rəfiqə Sadıqova, yazıçı-dramaturq, jurnalist Nüşabə Məmmədova, ədəbiyyatşünas alim, filologiya üzrə fəlsəfə doktoru, şair Sahib İbrahimli, Aləmzər Əlizadə, Vüsal Hicran, İqbal İsmayılov, Cavanşir Atəşi, Almaz Yusifli, Zahid Şirani, Salman Balakişiyev, Mələk İsmayıl, AMEA Gəncə bölməsinin sədr müavini Əlimuxtar Muxtarov və başqaları çıxış etdilər, şeirlər söylədilər.

İlqar Fəhmi tədbirə yekun vuraraq bildirdi ki, hər bir çıxış Vaqif poeziyasına vurğunluqdan xəbər verdi, Şuşamızın dağ havasını bu yerlərə gətirdi, hamımızda böyük bir bayram əhval-ruhiyyəsi yaratdı.

Tədbirdən sonra iştirakçıların təəssüratlarını öyrəndik.

**Rəfiqə Sadıqova:**

– Ulu öndərin Şuşada, o lopa-lopa qar yağan gündə iştirakı, çıxışı yadıma düşdü. İndi Qazaxda, Gəncədə, Ağdamda, Şuşada keçirilən belə tədbirlər həm bizi kövrəldir, həm də qəlbimizi dağa döndərir.

**Sahib İbrahimli:**

– Tədbirin gedişi zamanı gözlərim istər-istəməz digər iştirakçıların gözləri ilə qarşılaşırdı. İnanırsınızmı, əksəriyyətinin gözlərində sevinc hissinə qarışıq bir yaş görürdüm. Təkcə ona görə yox ki, şeirlərdə, çıxışlarda bir iftixar vardı, həm də Vaqif poeziyasının işığında Şuşa, bütöv Qarabağ, Heydər Əliyev, İlham Əliyev görünürdü...

Tədbir axşamçağı Gəncə Dövlət Filarmoniyasında geniş konsert proqramı ilə başa çatdı.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

**Gəncə**

Cəlal Qaryağdı – 110

# Daşları "danışdıran" böyük sənətkar

**Şuşanın məşhur Qaryağdılar nəslinin nümayəndəsi, böyük xanəndə Cabbar Qaryağdıoğlunun qardaşı oğlu, Xalq rəssamı Cəlal Qaryağdı Azərbaycan heykəltəraşlıq məktəbinin banilərindən biri olub.**



Erkən yaşlarında ata-anasını itirən Cəlalı xalası ilə nənəsi böyüdüb. 1927-ci ildə Bakıya gələrək, burada Rəssamlıq Məktəbinə qəbul olunub. Sonra Tbilisi Rəssamlıq Akademiyasında oxuyub, amma maddi imkansızlıq üzündən təhsilini yarımçıq qoyaraq Bakıya qayıdıb. Qəzetlərdə rəssamlıq edib, "Gənc işçi"yə, "Yeni yol"a plakatlar, karikaturalar çəkərək, pul qazanıb. Yataqxanada qalıb, özü də ulu öndər Heydər Əliyevin qardaşı – "Kommunist"də (indiki "Xalq qəzeti") rəssam işləyən Hüseyn Əliyevlə bir otaqda. Eyni zamanda Rəssamlıq Məktəbində müəllim işləyib.

Cəlal Qaryağdı 40-cı illərdə heykəltəraşlıq əsərlərini yaratmağa başlayıb. Onun ilk böyük işlərindən biri Bakıda İçərişəhərin qala divarlarının yaxınlığında görkəmli satirik şair M.Ə.Sabirin heykəlidir (memarlar Ə.İsmayılov və Q.Əlizadə, 1958-ci il). Bir vaxtlar oxuduğumuz universitetin jurnalistika fakültəsi İstiqlaliyyət küçəsində – Əlyazmalar İnstitutunun binasında yerləşirdi deyə, tez-tez bu heykəlin yanından keçməli olur, ayaq saxlayıb baxır, baxırdım. Oturmuş halda, əlində kitabla təsvir olunan şairin qarşısında qeyri-iradi olaraq özümü şagird kimi hiss edirdim. Tələbə yoldaşlarımla orada şəkillər də çəkdirmişəm. Yəni, Cəlal Qaryağdının üzünü görməsəm də, yaradıcılığı ilə tanışlığımın tarixi yarım əsr olar.



Sonra öyrəndim ki, Bakıda Nəriman Nərimanovun, vaxtilə Lenin (indiki Azadlıq) meydanında qoyulmuş Vladimir Leninin heykəllərini də C.Qaryağdı yaradıb. Qara Qarayevin, Fikrət Əmirovun, Bülbülün, Niyazinin, Cahangir Cahangirovun və başqalarının büstlərinin müəllifi də odur. Nizami adına Ədəbiyyat Muzeyinin binası heykəltəraşlıqla memarlığın vəhdətinə gözəl nümunədir. Daim qarşısında xarici turistlərin dayanıb heyranlıqla baxdıqları bu muzeydə tətbiq olunan milli memarlıq elementləri binanın xarici görünüşünə bir zəriflik gətirir. Muzeyin qərb fasadının eyvanında qoyulmuş ədəbiyyat xadimlərinin heykəlləri binanın arxitekturası ilə plastik əlaqə və həmahənglik təşkil edir. Burada digər tişə ustaları ilə bərabər, Cəlal Qaryağdının da zəhməti var: o, Molla Pənah Vaqifin heykəlini ustalıqla işləyib.

Görkəmli heykəltəraşın monumental-dekorativ əsərləri bədii ifadəliyi ilə seçilir. İki dəfə Sovet İttifaqı Qəhrəmanı, general Həzi Aslanovun Lənkərandakı abidəsi (1983) bu baxımdan xeyli əzəmətli təsir bağışlayır.

Yaradıcılıq özəllikləri ilə seçilən sənətkar Azərbaycanda və keçmiş SSRİ-nin digər respublikalarında təşkil olunan sərgilərdə dönə-dönə uğur qazanıb. Onun rəssamlıq fəaliyyətinin əsas mərhələsi İkinci Dünya müharibəsi dövrünə təsadüf edib. Bu illərdə, o, hünər və rəşadəti əks etdirərək, qəhrəmanlıq göstərmiş şəxslərin portretini yaradıb. Büst, barelyef və fiqurlarda da öz dəst-xəttini qoruyub saxlayıb.

Cəlal Qaryağdı dostluğa, insanpərvərliyə yüksək önəm verib. Onu tanıyanların dediyinə görə, Səməd Vurğunla, Rəşid Behdudovla ova çıxmağı sevər, silah atmaq əvəzinə "palçıq adamlar" düzəldər, məzəli əhvalatlar danışmağı xoşlayardı. Şuşa sənətkarlarının çoxunu evlərində, ocaqlarının başında görüb. Gələnlər əmisi Cabbar Qaryağdıoğlunun səsinin sehrinə yığışıblar. Bütün bunlar barədə gözəl xatirələri vardı.

Bakıda isə bir dəfə unudulmaz dahi şəxsiyyət Heydər Əliyev onun emalatxanasına gəlib. Ömür-gün dostu Firəngiz xanımın xatirələrindən: "Nəriman Nərimanovun heykəli 10 il idi ki, emalatxanada yatırdı. Deyirdilər, Kirovun heykəlindən böyük çıxıb. Heydər Əliyev gəldi, heykələ baxdı, bəyəndi. Dedi, ucaldılsın. Ev almağımızda da onun köməyi oldu. Amma emalatxanaya öyrəşdiyimizdən heç cür o evdə qala bilmirdik. Özü də 8-ci mərtəbədə. Mən birtəhər öyrəşdim. Cəlalsa o evdə heç qalmadı. Bazarlıq eləyirdi, 1-ci mərtəbəyə qoyurdu, düşüb götürürdüm. Həmişə deyirdi ki, uşaqlar bir gün ordan yıxılacaq. Evi 2-ci mərtəbəyə dəyişəndən sonra da emalatxanada qaldı. Deyirdi, ev məni sıxır. Həm də gecələr işləyirdi axı..."

Onu da deyək ki, ölümündən sonra Cəlal Qaryağdının emalatxanası ailəsinə verilib. İndi orada oğlu Cəlil işləyir. Atasının sənətini davam etdirir.

***Əli NƏCƏFXANLI***
***XQ***

## Musiqili Teatr tətilə çıxdı



**Azərbaycan Dövlət Akademik Musiqili Teatrı 115-ci teatr mövsümünə dahi bəstəkar Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" musiqili komediyası ilə yekun vurub.**

Qeyd edək ki, Üzeyir Hacıbəylinin 140 illik yubileyi çərçivəsində təqdim olunan 115 yaşlı komediyanın sonuncu quruluşu (1998) tanınmış rejissor, Xalq artisti Cənnət Səlimovaya aiddir. Tamaşanın quruluşçu dirijoru Əməkdar incəsənət xadimi Nazim Hacıəlibəyov, dirijoru Əməkdar incəsənət xadimi Fəxrəddin Atayev, quruluşçu rəssamı Əməkdar rəssam İsmayıl Məmmədov, xormeysteri Əməkdar artist Vaqif Məstanov, quruluşçu baletmeysterləri Əməkdar artistlər Zakir və Leyla Ağayevlərdir.

Səhnə əsərində Xalq artisti Pərviz Məmmədrzayev, Əməkdar artistlər Şövqi Hüseynov, Əzizağa Əzizov, Nadir Xasiyev, Nahidə Orucova, aktyorlar Şaban Cəfərov, Elxan İsmayılov, Elçin İmanov, Hüseyn Əlili, Türkel Tariqpeyma, Əliməmməd Novruzov, Təranə Əliyeva, Elməddin Dadaşov, həmçinin teatrın xor və balet artistləri iştirak ediblər.

***XQ***

# Trampın ultimatumu: “Silahlı sülh” diqtəsi



**ABŞ prezidenti Donald Tramp Ukrayna münaqişəsi ilə bağlı yeni bəyanatla çıxış edərək, Kiyevə hərbi yardımın genişləndirildiyini, Avropa müttəfiqlərinin dəstəyi ilə bu ölkəyə silah göndəriləcəyini bildirib. Eyni zamanda, əgər yaxın 50 gün ərzində münaqişənin nizamlanmasına nail olunmazsa, Rusiya və onun ticarət tərəfdaşlarına qarşı 100 faizlik gömrük rüsumlarının tətbiq ediləcəyini vurğulayıb.**

Prezident Trampın çıxışı Vaşinqtonun Moskva ilə münasibətlərində nisbətən neytral mövqedən daha sərt ritorikaya keçdiyini göstərdi. Son 6 ayda ABŞ administrasiyası Rusiyaya qarşı müstəqil sanksiyalardan çəkinir, Avropa paytaxtlarında isə Vaşinqtonun dəstəyinin hansı çərçivədə və necə formalaşacağına dair qeyri-müəyyənlik hökm sürürdü.

Lakin Trampın çıxışı bu mənzərəni qismən dəyişdi. Ağ Evin Oval kabinetində keçirilən görüşdə NATO baş katibi Mark Rüttenin də olduğu səhnədə Tramp açıq şəkildə bildirdi ki, əgər Rusiya ilə barış əldə olunmasa, ABŞ 100 faizlik, o cümlədən ikili təyinatlı gömrük rüsumları tətbiq edəcək. Bu, yalnız Moskvanı deyil, onunla ticarət əlaqələrini saxlayan üçüncü ölkələri də hədəf alacaq. Cənab Trampın bu bəyanatı həm də Vaşinqtonun yalnız hərbi deyil, iqtisadi təzyiq alətlərini də yenidən gündəmə gətirdiyinin siqnalıdır.

Donald Tramp Kiyevə silah tədarükünün əvvəlki administrasiyanın etdiyi kimi birbaşa və pulsuz şəkildə deyil, ödənişli əsaslarla həyata keçiriləcəyini bəyan etdi. O, ABŞ-ın NATO ölkələrinə silah satacağını, həmin ölkələrin isə bu texnikanı Ukraynaya ötürəcəyini vurğuladı. Prezident Tramp bu prosesi ABŞ-ın NATO-dakı daimi nümayəndəsi Metyu Uitakerin koordinasiya edəcəyini bildirdi.

Bundan başqa, ABŞ prezidenti Ukraynaya 17 ədəd “Patriot” hava hücumundan müdafiə sisteminin göndəriləcəyini də açıqladı. Hərbi ekspertlər bu açıqlamanı ehtiyatla qarşılayaraq, həmin sayın texniki reallığa uyğunluğunu sual altına alırlar. NATO baş katibi Rütte isə bu təşəbbüsə açıq dəstəyini bildirərək, Almaniya, Danimarka, İsveç, Estoniya və Niderlandın bu prosesdə iştirak edəcəyini bəyan etdi.

Avropa İttifaqının əsas paytaxtlarında isə Trampın bəyanatlarına fərqli reaksiya bildirildi. Almaniya hökumətindən verilən ilkin şərhlərdə vurğulandı ki, Vaşinqtonun təşəbbüsləri “diqqətlə təhlil olunacaq”. Paris və Brüsseldə isə daha çox ABŞ-ın gömrük rüsumları ilə bağlı ritorikası narahatlıqla izlənilir. Fransanın Avropa işləri üzrə dövlət katibi Silvi Goulard bildirir ki, “Avropanın təhlükəsizlik maraqları ABŞ-ın iqtisadi şərtlərinə tabe edilməməlidir”. Eyni zamanda, Qərb paytaxtlarında cənab Trampın Ukraynaya dəstəyinin struktur dəyişiklikləri ilə müşayiət olunması onun daxili siyasi strategiyası ilə də əlaqələndirilir. ABŞ-da prezident seçkiləri öncəsi Donald Trampın xarici siyasətdə daha sərt mövqelər nümayiş etdirməsi daxili auditoriyaya yönəlmiş bir siqnal kimi dəyərləndirilir.

Eyni zamanda, cənab Tramp çıxışında Rusiya ilə diplomatik kanalların tam bağlanmadığını da vurğuladı. O, Rusiya prezidenti Vladimir Putinlə bir neçə dəfə danışdığını, lakin bu dialoqların nəticə vermədiyini də etiraf etdi: “Mən zəngi bitirəndə düşünürəm ki, yaxşı keçdi. Amma sonra raketlər yenə Kiyevə atılır”. Bununla belə, ABŞ prezidenti müharibənin daha da kəskinləşəcəyi təqdirdə ABŞ-ın konkret hansı addımları atacağı sualına cavab verməkdən yayındı.

Beləliklə, Prezident Trampın bəyanatları ABŞ-ın Ukrayna və Rusiya ilə bağlı siyasətində həm sərtləşmə meyillərinin, həm də diplomatik ehtiyatlılığın paralel mövcudluğunu ortaya qoydu. Avropada isə bu mövqenin qəbulu bir qədər ehtiyatla müşayiət olunur. Buna görə də, ekspertlər güman edirlər ki, ABŞ-la Avropa arasında həmrəylik çağırışları fonunda iqtisadi və hərbi qərarların koordinasiyası qarşıdakı həftələrin əsas mövzusuna çevriləcək.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Ordubad sakinləri ilə görüş



**Dünən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Ordubad rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb.**

Səlahiyyətli nümayəndə Ordubadın muxtar respublikanın hər zaman sayılıb-seçilən bölgələrindən olduğunu diqqətə çatdıraraq bildirib ki, Azərbaycan Respublikası Prezidentinin müavfiq sərəncamı ilə “Ordubad” Dövlət Tarix-Mədəniyyət Qoruğu yaradılıb. Bu qədim diyar zəngin tarixi və mədəniyyəti ilə yanaşı, yetirdiyi dünyaşöhrətli şəxsiyyətləri ilə də tanınır. Bu gün Ordubad həm də qədim və özünəməxsus ənənələrinin vəhdətində müasir inkişafının yeni mərhələsinə qədəm qoyur.

Fuad Nəcəfli xtırladıb ki, “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda digər bölgələrimiz kimi, Orubdadın da sosial-iqtisadi inkişafı üçün bir çox iri layihələrin icrası nəzərdə tutulub. Bu məqsədlə Ordubad şəhərinin yeni baş planı hazırlanır. Dövlət Proqramına uyğun olaraq rayonda geniş infrastruktur quruculuğu işləri həyata keçiriləcək, rayonun sosial-iqtisadi inkişafı sürətləndiriləcək, əhalinin maddi rifah halı daha da yüksələcək.

Görüşdə iştirak edən sakinlərin problem və təklifləri dinlənilib, rayon ərazisindəki çoxsaylı tarixi-memarlıq abidələrinin qorunub saxlanılması, ətraf mühitin mühafizəsi məsələləri geniş müzakirə olunub.

# Uşaq Kitabxanasına hədiyyə



**“Əcəmi Seyrəngahı” İstirahət Kompleksində Adil Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanasına təqdim olunan yeni kitabların təqdimat mərasimi keçirilib.**

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının əməkdaşı Musa Məmmədov bildirib ki yeni kitabları Bakıda fəaliyyət göstərən, uşaq ədəbiyyatına xüsusi maraq göstərən və maarifləndirici təşəbbüsləri dəstəkləyən bir kitabsevər hədiyyə edilib. Bu nəcib təşəbbüs uşaqların oxu vərdişlərinin formalaşması, dünyagörüşlərinin genişlənməsi və kitablarla erkən yaşdan dostluq etməsi baxımından yüksək qiymətləndirilir. Belə təşəbbüslər ouşaqların mütaliəyə marağını artırır, tərbiyə və təhsilinə müsbət təsir göstərir.

Kitabxananın direktoru Ruzi Süleymanov təqdim olunan yeni nəşrlərin müxtəlif yaş qruplarına uyğun olmaqla yanaşı, maraqlı və öyrədici mövzuları əhatə etdiyini söyləyib. Bu kitablar uşaqların təxəyyülünü, biliklərini və mütaliə vərdişlərini inkişaf etdirmək baxımından faydalıdır.

***H.SƏBUHİ***
***XQ***

# Ağdamda “Konstitusiya və Suverenlik İli” mövzusunda konfrans

**Bir vaxtlar erməni vandalizminin qurbanına çevrilərək “Qafqazın Xirosiması”, “Ruhlar şəhəri” adlandırılan Ağdam şəhəri işğaldan azad edildikdən sonra sürətlə yenidən qurulur. Ağdam artıq ölkənin sosial-iqtisadi, siyasi həyatına inteqrasiya edərək mötəbər tədbirlərin keçirildiyi məkana çevrilir.**



İyulun 15-də Ağdam daha bir konfransa evsahibliyi etdi. Belə ki, “Aghdam City Hotel”də Baş Prokurorluğun təşkilatçılığı ilə “Konstitusiya və Suverenlik İli” çərçivəsində “Hüquqi dövlətin təməli” mövzusunda regional konfrans keçirildi.

Konfransdan öncə iştirakçılar ümummilli lider Heydər Əliyevin Ağdam şəhərində ucaldılmış abidəsini ziyarət edərək, dahi rəhbərin əziz xatirəsini ehtiramla andılar. Konfransda Azərbaycan Respublikası Prezidentinin Ağdam, Füzuli və Xocavənd rayonları üzrə xüsusi nümayəndəsi Emin Hüseynov, Baş Prokurorluğun İstintaq İdarəsinin rəisi Nemət Əvəzov və digər rəsmilər, həmçinin 10-a yaxın regionun prokurorluq orqanlarının media ilə işləməyə məsul əməkdaşları, dövlət və qeyri-hökumət təşkilatları, media qurumları, təhsil müəssisələri və hüquq-mühafizə orqanlarının nümayəndələri iştirak edirdilər.



Azərbaycan Respublikası Prezidentinin Ağdam, Füzuli və Xocavənd rayonları üzrə xüsusi nümayəndəsi Emin Hüseynov qeyd etdi ki, ölkə başçısı İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri yalnız infrastrukturla məhdudlaşmır, burada hüquqi dövlətin və konstitusion prinsiplərin bərqərar olunması istiqamətində də mühüm addımlar atılır. Konstitusiya ilə təsbit olunmuş vətəndaş hüquqlarının təmin edilməsi, qanunun aliliyinin qorunması və ictimai institutların fəal iştirakı bölgənin dayanıqlı inkişafı üçün əsas şərt kimi dəyərləndirildi.

Baş Prokurorluğun İstintaq İdarəsinin rəisi Nemət Əvəzov çıxışında bildirdi ki, hüquqi dövlətin təməl prinsiplərindən biri ədalətli və şəffaf istintaq prosesinin təmin edilməsidir. Konstitusiya və suverenlik anlayışları hüquq-mühafizə orqanlarının fəaliyyətində əsas meyarlar kimi çıxış edir və bu çərçivədə cinayətlərin obyektiv araşdırılması, insan hüquq və azadlıqlarının qorunması prokurorluq orqanlarının başlıca vəzifələrindəndir. İşğaldan azad olunmuş ərazilərdə hüquqi mühitin formalaşdırılması isə bu bölgələrdə hüquqi dövlət quruculuğuna ciddi töhfə verir.

Daha sonra çıxış edən Ağdam rayon prokuroru Vasif Süleymanov, Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov, Ədliyyə Akademiyasının kafedra müdiri, hüquq elmləri doktoru Mətanət Əsgərova, Azərbaycan Mətbuat Şurası İdarə Heyətinin üzvü Umud Mirzəyev və Ağdam Dövlət Sosial-İqtisadi Kollecinin nümayəndəsi Neymət Rüstəmli işğaldan azad olunmuş ərazilərdə hüquqi maarifləndirmə, ictimai nəzarət mexanizmləri və hüquqi dövlət quruculuğunda medianın və vətəndaş cəmiyyətinin rolu kimi aktual məsələlər ətrafında fikirlərini bölüşdülər.

Konfrans çərçivəsində dövlət qurumları ilə qeyri-hökumət təşkilatları və media arasında əməkdaşlığın gücləndirilməsi, ictimai iştirakçılığın genişləndirilməsi və hüquqi maarifləndirmə strategiyalarının təkmilləşdirilməsi mövzusunda müzakirələr aparıldı, vətəndaşların hüquqi biliklərinin artırılması və hüquqi informasiyanın operativ və dəqiq şəkildə cəmiyyətə çatdırılmasının vacibliyi xüsusi olaraq vurğulandı.

Sonra “Xalqın adamı” adlı sənədli film nümayiş etdirildi, Ümummilli lider Heydər Əliyevin konstitusiya quruculuğundakı rolu və müasir suveren dövlətçiliyin formalaşmasındakı xidmətləri bir daha xatırlandı.

Tədbirin sonunda xatirə fotoşəkli çəkildi.

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Ağdam**


## “Səba” ASC səhmdarlarının nəzərinə!

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 107-1-ci maddəsinə müvafiq olaraq 18 avqust 2025-ci il saat 15.00-da Bakı şəhəri, Yasamal rayonu, Cəfər Cabbarlı küçəsi 60 nömrəli ünvanda “Səba” Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:

**1. “Səba” ASC-nin direktorlar şurasının 2023-2025-ci illər ərzindəki fəaliyyətinə dair hesabatı və onun tərəfindən qəbul edilmiş qərarların müzakirəsi.**

**2. “Səba” ASC-nin tək təsisçiliyi ilə təsis edilmiş “Qarabağ Taxıl Aqro” MMC-nin (dövlət qeydiyyat № (VÖEN): 5001333151; dövlət qeydiyyatına alındığı tarix: 10.07.2025) nizamnamə kapitalındakı “Səba” ASC-yə məxsus payların satılması barədə.**

**3. “Səba” ASC-də dividendlərin elan edilməsi haqqında.**

Cəmiyyətin bütün səhmdarlarına izah olunur ki, səhmdarlar ümumi yığıncağın gündəliyinin layihəsinə aid təkliflər vermək və ümumi yığıncağa 15 (on beş) gün qalmış gündəliyə daxil olan bütün məsələlər üzrə müvafiq sənədlərlə AZ1065, Bakı şəhəri, Yasamal rayonu, Cəfər Cabbarlı küçəsi 60 nömrəli ünvanda yerləşən cəmiyyətin ofisində tanış olmaq hüququna malikdirlər.

Ümumi yığıncağa gələn səhmdarlar şəxsiyyəti təsdiq edən sənəd, səhmdarların nümayəndələri isə şəxsiyyəti təsdiqləyən sənəd və nümayəndənin səlahiyyətləri barədə etibarnamə təqdim etməlidirlər.

Əlaqə telefonları - (+99450) 201 -20 -15 – direktor
(+99455) 215- 08- 60 – hüquqşünas
Ünvan - Bakı şəhəri, Yasamal rayonu, Cəfər Cabbarlı küçəsi 60.

***“Səba” ASC-nin direktoru***

## “F.S” ASC səhmdarlarının nəzərinə!

18 avqust 2025-ci il saat 14.00-da “F.S” ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı cəmiyyətin yerləşdiyi ünvanda keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:

1. ASC-nin çevrilmə şəklində yenidən təşkili.

2. Çevrilmə şəklində yenidən təşkil edilmiş cəmiyyətin bölünməsi və bölünmə balansının təsdiq edilməsi.

3. ASC-nin çevrilmə nəticəsində bölünmüş əmlakının təhvil verilməsi qaydasının müəyyən edilməsi.

4. ASC-nin çevrilməsi nəticəsində yenidən təşkil olunun MMC-lərin təsis edilməsinə və nizamnamə kapitalının əmlak şəklində formalaşmasına razılığın verilməsi.

5. ASC-yə məxsus səhmlərin ləğv edilməsi və dövriyyədən çıxarılması.

6. Digər məsələlər.

Səhmdarlar gündəlikdəki məsələlərə aid sənədlərlə tanış olmaq üçün həftənin iş günləri saat 10.00-dan–13.00-dək cəmiyyətin icra orqanının rəhbərinə müraciət edə bilərlər. Əlaqə telefonu – 012-564-25-76. Ünvan – Bakı şəhəri, Nərimanov rayonu, Dərnəgül qəsəbəsi, 1999 -cu məhəllə.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 144 (30838) 16 iyul 2025-ci il, çərşənbə

## İDMAN

### Hakimlərimiz beynəlxalq proqramlarda



**Azərbaycanın kamandan oxatma hakimləri beynəlxalq sertifikatlaşdırma proqramlarına cəlb olunacaqlar. Bu məsələ dünən Azərbaycan Kamandan Oxatma Federasiyasının (AKOF) prezidenti Anar Quliyevlə Dünya Kamandan Oxatma Federasiyasının rəhbəri Uğur Erdener arasında keçirilən görüş zamanı razılaşdırılıb.**

Görüşdə, həmçinin, Azərbaycan idmançılarının beynəlxalq turnirlərdə iştirak imkanlarının artırılması və məşqçilərin qabaqcıl təcrübələrə yiyələnməsi üçün ortaq layihələrin həyata keçirilməsi ilə bağlı məsələlər müzakirə edilib.

### III MDB Oyunları – 1840 idmançı




**Məlum olduğu kimi, III MDB Oyunları 2025-ci il 28 sentyabr – 8 oktyabr tarixlərində Azərbaycanın yeddi şəhərində – Gəncə, Yevlax, Mingəçevir, Qəbələ, Şəki, Göygöl və Xankəndidə təşkil olunacaq. Yarışın açılış və bağlanış mərasimləri Gəncə şəhər stadionunda baş tutacaq.**

Dünənə olan məlumata əsasən, yarışa MDB məkanını təmsil edən 8 ölkədən (Azərbaycan, Belarus, Qazaxıstan, Qırğızıstan, Rusiya, Özbəkistan, Tacikistan, Türkmənistan) 1840 idmançı və 2666 nümayəndə qatılacaq. Son olaraq Türkmənistan idmançılarının ölkəmizə gələcəyi təsdiqlənib.

Beləliklə, Azərbaycanın 349, Rusiyanın 263, Qazaxıstanın 259, Özbəkistanın 257, Belarusun 255, Tacikistanın 202, Türkmənistanın 170, Qırğızıstanın 85 idmançısının turnirdə mübarizə aparacağı dəqiqləşib.

### “Real” müdafiəçisinin rekordu




**İspaniyanın “Real” klubunun müdafiəçisi Federiko Valverde ötən mövsüm meydanda ən çox vaxt keçirən futbolçu olub. 6 min dəqiqədən çox meydanda olan futbolçu rekorda imza atıb.**

26 yaşlı müdafiəçi “Real”ın, Uruqvay yığmasının heyətində 72 matçda oynayıb və 6 min 116 dəqiqə meydanda olub. Siyahıda “Mançester Yunayted”in və Portuqaliya yığmasının yarımmüdafiəçisi Brunu Fernandeş (5 min 796 dəqiqə) 2-ci, “Milan”ın və Fransa yığmasının qapıçısı Mayk Menyan (5 min 624 dəqiqə) 3-cü pillədə qərarlaşıb.

*M.HACIXANLI*
*XQ*

## Adamlar və talelər

# Gülsara



**... Gülsara taleyin zərbələrinə dözə-dözə yaşayırdı. Üzüntülər içində olsa da, taleyi ilə barışmışdı. Üzdə şən görünürdü, nikbin görünürdü. Onun şirin ləhcəsində sevinci də şiriniydi, kədəri də. Bir qədər də baməzə söhbət etməyi vardı. O baməzəliyin içində mənim, yalnız mənim duya bildiyim kədər gizlənirdi.**

Birotaqlı mənzilində dərd içində gizlənən bir ada kimiydi Gülsara. Tək-tənha yaşayırdı. Gedəni də özüydü, gələni də. Ailə yox, övlad yox. Qohum yox, qardaş-bacı yox. Elə bu tənhalıq idi onu içdən üzən. Tənhalıq dərdini öz içində gizlətsə də, yaşa dolduqca tək yaşamağın ağırlığını hiss edirdi. Canıyanan insanlar Gülsaranın ailə qurması üçün yollar arayırdılar. Mən də onlardan biri idim. Maraqlı və işıqlı insani keyfiyyətlərinə az-çox bələd olduğuma görə, dedim:

– Gülsara, nə vaxtadək tək yaşayacaqsan? Evin-eşiyin də, işin də var. Təkcə qulaq yoldaşın yoxdur.

O, sözlərimi təbəssümlə qarşıladı. Heç nə demədi. Bir dəfə də bu barədə söhbət edəndə kədərli bir görkəm aldı və dedi:

– Eh, ay qardaş, dərdimi təzələmə. Ömür qurtarmamış dərd qurtarmaz ey, ay qardaş!..

Nə biləydik, bəlkə də Gülsara nakam bir eşqin acısını yaşayırdı?! Həmin anda mənə elə gəldi ki, o, danışmırdı, yaralı bülbül kimi ötürdü. Sonra da gözlərini bir nöqtəyə zilləyib sükuta daldı. Göz yaşları yanağından cığır saldı. Əlinin arxası ilə gözlərini sildi.

Mən onun bu halına çox acıdım. Yaman kövrəlmişdi. Məni də kövrəltdi. O, mənim nəzərimdə, qərib axşamlarda yuvasına sığınan sonalar kimiydi.

Nə yaxşı ki, gündüzlər iş yerində onun qərib taleyinə həyan olan iş yoldaşları vardı.

Mən, minlərlə işçini bir kollektivdə birləşdirən nəhəng müəssisənin rəhbərliyində çalışırdım. Minlərlə işçinin arasında Gülsara mənə daha doğma idi. Onu görəndə kənd qızları, həm də özümün nakam taleli bacılarım gözümün önünə gəlirdi.

Gülsara uşaq yaşlarından yetim qalmışdı. Uşaq evində böyümüşdü. İnternat məktəbini bitirdikdən sonra universitetin kimya fakültəsinə qəbul olub. Kimyaçı-mühəndis ixtisası alıb. Sonra respublikanın sənaye nəhəngi sayılan iri müəssisələrdən birinin mərkəzi laboratoriyasında laborant kimi əmək fəaliyyətinə başlayıb. Ömrünün sonuna kimi orada baş laborant vəzifəsində çalışıb. Müəssisə rəhbərliyi onu yaxşı işçi kimi dəfələrlə mükafatlandırıb və birotaqlı mənzillə təmin etmişdi.

Gülsara mütaliəni çox sevirdi. Müəllifi olduğum kitabların təmənnasız təbliğatçısına çevrilmişdi. Həmin kitabları iş yoldaşlarına verəndə sanki bağça uşaqlarına deyirmiş:

– Oxuyun, özümə qaytarın. Amma kitabların vərəqlərini cırmayın, haa...

Özü də məsum uşaq kimiydi. Bu, onun ürəyinin təmizliyindən irəli gəlirdi. Gülsara saf su kimiydi. Aydan arı, sudan duru...

Mənə dediyi sözləri heç unutmamışam:

– Səni görəndə ellərimiz, çöllərimiz yadıma düşür. Otağındakı güllər-çiçəklər adamı özünə çəkir. O gün otağından sazın səsini eşidəndə elə bildim Ayrım elindəyəm. Mənim də ruhum sazdan ayrı qəribsəyir.

– Gülsara, sən uşaq evində olanda hardan bildin ki, ayrım elindənsən?

– Məni uşaq evinə bir qadın gətirmişdi. Uşaq evində məni çox mehriban qarşıladılar. Orada mənə “ayrım qızı” deyirdilər. Mən də o vaxtdan bildim ki, Ayrım elindənəm...

Sazın-sözün vurğunuydu Gülsara. İşlədiyi kollektivdə sazdan bir köynək aralı olanlara da sazı sevdirməyə çalışırdı. Uzun illər onunla bir yerdə işləyən tatar qızı saza ağız büzəndə könlü bulanardı.

Gülsara bir dəfə ona dedi:

– Ay qız, mən saza qulaq asanda sən niyə ağız büzürsən? Ağzının üstünə bir dumbuz vuraram, ağlın başına gələr.

Onun leksikonundakı dialekt sözlər kollektivdəki qızlar üçün anlaşılan deyildi. Amma onun insani keyfiyyətinə yaxından bələd olduqdan sonra Gülsaranın həm özünə, həm də söhbətinə-sözünə vuruldular. Onun bəzi kəlmələri kollektivdə aforizmə çevrilmişdi.

Gülsaranın bir könüldaşı olmasa da, yoxluğu könül yandırır. Keçmiş iş yoldaşları hər il onun ad gününü qeyd edirlər. Gülsara sağlığında onların ad günündə gözəl zövqlə süfrə bəzəyirdi. Dadlı, ləziz yeməklər, yüksək şövqlə qurutlu xəngəl yayıb bişirirdi.

Gülsaranın ailəsi, külfəti olmasa da, onun çəkdiyi qəhri hər qadın çəkə bilməzdi. O, qış üçün hər cür meyvə-tərəvəzlərdən tədarük görürdü. Soruşan olanda deyirdi:

– Nə olsun ki, külfətim yoxdu, ehtiyacı olanlara pay verirəm.

İnsanseverlik Gülsaranın canında-qanındaydı. Ürək qızdırdığı hər evə ürəyidolu, əlidolu gedirdi.

O, adidən-adi, sadədən-sadə, kövrəkkönül bir insan idi. Özünün halal əməkhaqqı ilə dolanırdı. Çoxlarına əl tuturdu. Kimsəsizin, yetimin qayğısına qalırdı. Özünə həyan gərəkdiyi halda, başqasına həyan olurdu. Uşaq evində böyüyüb, internat məktəbini bitirdikdən sonra təbəddülatlarla üzləşən bacı-qardaşa uzun müddət Gülsaranın dayaq durduğunu çoxları bilirdi. Onların yolunda Gülsara çox əzablara qatlaşırdı. Bunlar Gülsara üçün şirin əzab olmaqla bərabər, həm də sonsuz səadət idi.

Gülsara bir müddət həmin uşaqlara ana əvəzi oldu. Dəfələrlə əlaqədar təşkilatlara ayaq döydükdən sonra, onların iş və yataqxana problemlərini həll etdi.

O, həyanı olmayan hər kəsə həyan idi. Üstünə diləyə gələn hər kəsə olanından qıyan idi. Mənzilinin qapısı kilid-açar tanımazdı. Deyərdi:

– Nəyim var, oğru gəlib nə apara?! Mənim evimə oğru yox, doğru gələr.

... Nə yazıqlar ki, Gülsaranın məlahətli və təravətli fiziki ömrü gödək oldu. Amma mənəvi ömrünü onu tanıyanların qəlbində yaşayır. Ürəklərdə yeri var Gülsaranın...

*Həzi HƏSƏNLİ,*
*şair-publisist*

# Şəhid övladları infoturda




**Sabah Bakı Dövlət Universitetinin “BDU könüllüləri” təşkilatı və “Zəfər” Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin təşkilatçılığı ilə şəhid övladları olan abituriyentlər üçün infotur keçiriləcək.**

BDU-dan mətbuata bildirilib ki, infotur çərçivəsində abituriyentlərə universitetin fakültə və ixtisasları, təhsil imkanları, tələbə həyatı, eləcə də sosial və akademik dəstək mexanizmləri barədə ətraflı məlumat veriləcək, BDU kampusu ilə tanışlıq imkanı yaradılacaq.

*XQ*

# Xaçmaz şahmatçıları regionun qalibi oldular



**20 İyul – Beynəlxalq Şahmat Gününə həsr olunan turnirdə Xaçmaz, Quba, Qusar, Şabran və Siyəzən rayonlarının məktəblilərindən ibarət komandalar mübarizə aparıblar. Gərgin mübarizə şəraitində keçən yarışda birinciliyi Xaçmaz komandası qazanıb. Quba şahmatçıları 2-ci, Şabran məktəbliləri isə 3-cü olublar.**

Mükafatlandırma mərasimində Azərbaycan Şahmat Federasiyasının Qadın və sosial komissiyasının sədri, beynəlxalq qrossmeyster Zeynəb Məmmədyarova, Yeni Azərbaycan Partiyası Xaçmaz rayon təşkilatının sədri Məhəmməd Balaqadaşov və Quba–Xaçmaz Regional Gənclər və İdman İdarəsinin rəisi Qumru Məmmədova çıxış edərək, ölkəmizdə şahmata, eləcə də digər idman növlərinə göstərilən dövlət qayğısından danışıblar, qalibləri təbrik ediblər. Sonra qaliblərə diplom, medal və kuboklar təqdim olunub.

*XQ*

## Abşeron yarımadasında yağmursuz, isti hava...



**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin yağmursuz keçəcəyi gözlənilir. Zəif cənub-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 22-26, gündüz 34-39 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan aşağı – 753 millimetr civə sütunu, nisbi rütubət isə gecə 65-75, gündüz 40-45 faiz təşkil edəcək.**

Azərbaycanın rayonlarında da havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq və dağətəyi rayonlarda qısamüddətli leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi, arabir duman olacağı ehtimalı var. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 22-27, gündüz 36-40, dağlarda gecə 11-16, gündüz 28-33 dərəcə isti olacağı ehtimal edilir.

*Q.QASIMOV*
*XQ*

*✓ 2004-cü il aprelin 21-də Naxçıvan Muxtar Respublikasının Şərur Rayon Hərbi Komissarlığı tərəfindən Namazov Məzahir Bayram oğlunun adına verilmiş müharibə veteranının M/V seriyalı, 068432 nömrəli vəsiqəsi itdiyi üçün etibarsız sayılır.*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3232
SİFARİŞ 1642
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI
Çapa imzalanmışdır 00:00